www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 dekabr 2015-ci il Cümə axşamı № 287 (6315) Qiymәti 40 qәpik

## Xəbər

**SOCAR: "Avropa zavodları bizdən neft almır, vəziyyət mürəkkəbdir"**

yazısı səh.9-da

## Gündəm

### Türkiyəyə xain zərbə - Dəmirdaş Moskvada Türkiyəni Rusiyanın ayağına verdi



Səlahəddin Dəmirdaş

PKK yönlü partiyanın lideri təyyarə olayı məsələsində Kremlin yanında olduğunu bəyan elədi; daha bir partiya nümayəndəsini Moskvaya göndərdi; qardaş ölkə əleyhinə daxili düşmənlərlə xarici güclərin çulğalaşması prosesi başlayıb...

yazısı səh.9-da

### KİVDF 113 jurnalisti mükafatlandırdı

yazısı səh.3-də

*Zahid Oruc:*

### "2016-cı ildə büdcəyə yenidən baxılmalı olacaq"

yazısı səh.4-də

### Bankların yarısı bağlanacaq...

yazısı səh.10-da

*Ağadadaş Ağayev:*

### "Son devalvasiyadan 50 min manat ziyana düşmüşəm"

yazısı səh.12-də

### "Gələn ilin büdcəsi devalvasiya və inflyasiya büdcəsidir"

yazısı səh.10-da

### Parlamentə "ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" qanun layihəsi təqdim olundu

yazısı səh.2-də

### Ermənistanın "atəşkəs bitdi, müharibə başlayır" hədəsinə Bakıdan cavab gəldi

yazısı səh.13-də

### Mağazalarda bahalaşma tüğyan edir; bəzi ərzaq malları yoxa çıxıb

yazısı səh.11-də

### Öldürülən jurnalistlə bağlı istintaq yekunlaşdı

yazısı səh.3-də

### "Üsyankar" müstəntiqin səhhəti kritikləşib

yazısı səh.12-də

## Prezidentdən islahatlar anonsu: növbə gömrüyə çatdı

# İLHAM ƏLİYEVDƏN SENSASİON MANAT AÇIQLAMASI - SƏBƏB QƏRB VƏ RUSİYA DAVASIDIR

Dövlət başçısı "Neftin qiymətinin il ərzində birdən-birə 3 dəfə düşməsi düşünülmüş siyasətdir və məqsədi heç kim üçün sirr deyil" dedi; prezident antikrizis tədbirlərinin konturlarını açıqladı: "Bahalaşmaya yol verənlər cəzalanacaq, inhisarçılığa qarşı mübarizə aparılacaq; gömrük və vergi sistemində şəffaflıq təmin ediləcək"




yazısı səh.8-də

## Pənah Hüseyndən hökumətə antiböhran təklifləri - "...məsuliyyəti və hakimiyyəti bölək"

AXP lideri: "Dövrün çağırıları məsuliyyətin bölüşdürülməsini və bu da hakimiyyətin bölüşdürülməsini tələb edir; əks halda, vəziyyətdən normal çıxış yolu mümkün deyil"; "Yaxın dövrdə spontan aksiyaların olacağını istisna etmirəm"

yazısı səh.6-da



### "Hər iki devalvasiyanın məsuliyyəti Elman Rüstəmovun üzərindədir"

yazısı səh.4-də



*Ərəstun Oruclu:*

### "O sənəd qəbul edilsə, Azərbaycan ağır duruma düşəcək"

yazısı səh.5-də



*Siyavuş Novruzov:*

### "Süni bahalaşmanın qarşısı alınmalıdır"

yazısı səh.2-də

# 24 dekabr 2015



## Siyavuş Novruzov: "Süni bahalaşmanın qarşısı alınmalıdır"

**Azərbaycanda uzun illər manatın məzənnəsi Mərkəzi Bankın ehtiyatları sayəsində tənzimlənirdisə, artıq bunu etmək qeyri-realdır. Bunu «Trend»ə açıqlamasında Yeni Azərbaycan Partiyası icra katibinin müavini, millət vəkili Siyavuş Novruzov deyib.**

Onun sözlərinə görə, dollar və avronun bahalaşması təbii haldır və bu, təkcə Azərbaycanda baş vermir. Buna baxmayaraq, millət vəkili Mərkəzi Bankın üzən məzənnəyə keçidinin vətəndaşlar üçün də müəyyən problemlər yaradacağını istisna etmir: "Bu, təkcə Azərbaycanda baş verən hadisə deyil. 1 milyard yarım əhalisi olan Çində də, 90 milyon əhalisi olan Türkiyədə də devalvasiya baş verib. Bu devalvasiyadır, istər-istəməz hər bir cibə təsir edəcək. Amma bu qaçılmaz idi, bunu mütləq həyata keçirməliydik. Bu proses birdən-birə yox, mərhələli şəkildə həyata keçirilib".

**S.Novruzov dollar və avronun bahalaşmasından sui-istifadə edənlərin olduğunu qeyd edib:** "Devalvasiyadan sui-istifadə etmək istəyənlər var. Süni bahalaşmanın qarşısı alınmalıdır. Təbii ki, İqtisadiyyat və Sənaye Nazirliyi çox ciddi şəkildə bununla məşğul olmalıdır ki, qiymətlər süni şəkildə artırılmasın. Mən özüm də şahidi olmuşam ki, bir sıra mağaza və dükanlarda satışı dayandırıblar. Bəzi adamlar bundan sui-istifadə etməyə çalışacaqlar. Hesab edirəm ki, süni qiymət artımının qarşısının alınması və dükanlarda insanların aldadılmaması üçün komissiya yaradılmalıdır".

## Bank rəhbərləri hüquq-mühafizə orqanlarına müraciət etdi

**Bank sektorundan daxil olan məlumata görə, son günlərdə bəzi şəxslər dələduzluqla məşğul olaraq, sosial şəbəkələrdə, xüsusilə də whatsapp-da ölkənin bir sıra aparıcı bankları haqqında antitəbliğat çağırışlar yayırlar.**

Bank sektorundakı mənbələrdən virtualaz.org-a verilən məlumata görə, bu məsələnin araşdırılması və bu qanunsuz əməllərin aşkara çıxarılması üçün bir sıra kommersiya banklarının rəhbərliyi tərəfindən hüquq- mühafizə orqanlarına müraciət edilib. Ən qısa müddətdə bu dələduzluqla məşğul olan şəxs və ya şəxslərin şəxsiyyəti müəyyənləşdiriləcək, qanunvericilik çərçivəsində tədbirlər görüləcək.

Kommersiya banklarının rəhbərləri bu dələduzluq əməllərini mövcud vəziyyətdən sui-istifadə edərək siyasi- iqtisadi stabilliyi pozmağa, bank müştəriləri arasında məqsədli şəkildə təşviş yaratmağa yönəlmiş addımlar hesab edərək, bu qanunsuz əməlləri qəti şəkildə pisləyirlər.

Yuxarıda qeyd olunan dələduzluq əməlləri ilə bank sisteminin fəaliyyətinə kölgə salmaq və müştərilərində narahatlıq yaratmaq istəyənlərin əməlləri qanunvericilik çərçivəsində həllini tapacaq.


"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:



"Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Parlamentə ABŞ-a sanksiyalar tətbiq etməklə bağlı layihə verildi

**Milli Məclisə "ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" qanun layihəsi təqdim olunub. APA-nın əldə etdiyi məlumata görə, qanun layihəsinin müəllifi MM-in Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, "Azərbaycan Respublikasının Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin üzvü Rövşən Rzayevdir.**



Layihədə qeyd edilir ki, son illər ABŞ-da irqi və dini zəmində ayrı-seçkilik, ksenofobiya və islamafobiya təzahürləri xeyli güclənmiş, cəmiyyət üzərində total nəzarət sistemi bərqərar olmuş, şəxsi həyata müdaxilə, ifadə və mətbuat azadlığının məhdudlaşdırılması halları artıb: "Leqal korrupsiya və lobbiçilik ABŞ siyasi sisteminin əsas atributlarından birinə çevrilmişdir. ABŞ daxilində cərəyan edən neqativ proseslər, habelə dünya hegemonluğu iddiası Azərbaycan Respublikasını bu ölkə ilə əməkdaşlığa və illər ərzində formalaşmış ikitərəfli münasibətlərə yenidən baxmağa sövq edir".

**Bunları nəzərə alaraq layihədə qeyd edilir:**

**Xarici İşlər Nazirliyinə tövsiyə edilsin ki, aşağıdakı kateqoriyalara aid olan şəxslərə Azərbaycana gəlmək üçün viza verilməsindən imtina etsin:**

- ABŞ hökumətində təmsil olunan şəxslər və onların ailə üzvləri;
- ABŞ Konqresində Azərbaycanın diskreditasiyası istiqamətində ardıcıl iş aparan konqresmenlər, senatorlar və onların ailə üzvləri;
- Erməni diaspor təşkilatları və lobbi qrupları ilə əməkdaşlıq edən vəzifəli şəxslər, siyasətçilər;
- Azərbaycana qarşı iftira və qarayaxma kampaniyası aparan kütləvi informasiya vasitələrinin rəhbərləri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ekspertlər;
- ABŞ-ın yüksək rəhbərliyi ilə işbirliyi sahəsində böyük həcmdə maliyyə vəsaiti əldə edən şəxslər;
- ABŞ-ın erməni diasporu və lobbi qruplarının dəstəyi ilə seçkili orqanlara seçilmiş şəxslər;
- seçki saxtakarlığında iştirak edənlər, seçki qanunvericiliyinin təkmilləşdirilməsinə qarşı çıxanlar;
- ABŞ-ın insan hüquqlarına dair beynəlxalq müqavilələrə qoşulmasına qarşı çıxanlar.

- Nazirlər Kabinetinə tövsiyə edilsin ki, Azərbaycanın dövlət qurumları ilə ABŞ şirkətləri arasındakı bütün əlaqələrin dayandırılması məsələsinə baxsın.

Özəl sektorun təmsilçilərinə tövsiyə edilsin ki, ABŞ şirkətləri ilə bağlanmış kontraktlara son qoysunlar və yeni ticari-iqtisadi əlaqələrin yaradılmasından imtina etsinlər.

Müvafiq mərkəzi icra hakimiyyəti orqanlarına tövsiyə edilsin:

- ABŞ-da fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının Azərbaycan ərazisində proqram və layihələr həyata keçirməsinə imkan verilməsin və onların bank hesabları bağlanılsın;
- ABŞ hökuməti və Konqresi tərəfindən maliyyələşdirilən qeyri-hökumət təşkilatlarının AR-dəki filial və nümayəndəliklərinin fəaliyyətinin dayandırılması üçün zəruri tədbirlər görülsün;
- ABŞ-la ticarət, energetika, hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığa son qoyulması üzrə təkliflər hazırlanıb aidiyyəti üzrə təqdim edilsin;
- Beynəlxalq Təhlükəsizliyə Yardım Proqramı (İSAF) çərçivəsində Əfqanıstandakı əməliyyatlarda iştirakı dayandırılsın;
- ABŞ-ın hərbi və digər təyinatlı yüklərinin Azərbaycan üzərindən daşınması və bu məqsədlə yerli infrastrukturdan istifadə edilməsi qadağan olunsun;
- ABŞ-ın ATƏT-in Minsk Qrupunun həmsədrliyindən geri çağırılması ilə bağlı müvafiq proseduralara başlanılsın.

## Ermənistanda həbsdə olan azərbaycanlı azadlığa buraxılıb

**Gürcüstan-Ermənistan sərhədini qanunsuz keçməkdə təqsirli bilinən Gürcüstan vətəndaşı Turqay Mikayılov azadlığa buraxılıb.**

APA-nın "news.am"a istinadən verdiyi məlumata görə, dekabrın 23-də Lori Rayon Məhkəməsi onu təqsirli hesab edərək, barəsində 5 ay azadlıqdan məhrum etmə hökmü çıxarılıb. T. Mikayılov iyulun 23-dən həbs olunduğu və 5 ay həbsdə qaldığı üçün məhkəmə zalından azadlığa buraxılıb.

Qeyd edək ki, Turqay Mikayılov bu il iyulun 23-də Gürcüstandan Ermənistanın Lori vilayətinin Dzyunaşox kəndinə piyada keçib. O, həmin vaxt içkili vəziyyətdə olduğunu bildirib. 34 yaşlı azərbaycanlıya Cinayət Məcəlləsinin sərhədləri qanunsuz keçmə maddəsi ilə cinayət işi açılıb.



## Nərgiz Yaqublu mükafatı dekabrın 28-də təqdim ediləcək

**Müsavat Partiyası tərəfindən mərhum müsavatçı aktivist Nərgiz Yaqublunun xatirəsinin əbədiləşdirilməsi üçün təsis edilən Nərgiz mükafatının hər il dekabrın 28-də təqdim edilməsi qərara alınıb. Mükafat hər il dekabr ayının 28-də-Nərgiz Yaqublunun doğum günündə sahibinə təqdim olunacaq.**

Mükafat müxtəlif şəxslər və təşkilatlar tərəfindən Mükafat Komissiyasına təklif olunan namizədlər arasından gizli səsvermə ilə seçilən bir şəxsə verilir. Nərgiz Mükafatı Komissiyasının toplantısı keçirilib və gizli səsvermə ilə ilk mükafatçı müəyyənləşib.

Dekabr ayının 28-i, saat 15.00-da Müsavat Partiyasının gərargahında mükafatın təqdimatı olacaq. Komissiya Nərgiz mükafatının verildiyi şəxsin adını təqdimat mərasimində açıqlayacaq.

❑ E.SEYİDAĞA

## Rauf Mirqədirov son söz demək üçün məhkəmədən vaxt istədi

### Jurnalist barəsində bəraət qərarı istənildi; dekabrın 25-də son məhkəmə prosesi olacaq

**Dekabrın 23-də Bakı Ağır Cinayətlər Məhkəməsində "Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovun məhkəmə prosesi davam etdi. Bu gün hər kəs ona hökm çıxarılacağını gözləyirdi. Buna görə də məhkəmə binasının önünə çoxsaylı media nümayəndələri, vicdan məhbusunun dostları və ailə üzvləri toplaşmışdılar.**

Proses 10:30-a təyin olunsa da, yarım saat gec başladı. Əlisultan Osmanovun sədrliyi ilə keçirilən məhkəmə iclası qapalı olduğuna görə prosesin nəticəsi bitəndən sonra məlum oldu. Müdafiə tərəfinin vəkili Fuad Ağayev R.Mirqədirovun son söz demək üçün məhkəmədən vaxt istədiyini söylədi: "Bu günkü prosesdə vəkil olaraq çıxış etdim. Bu barədə bir söz deyə bilmərəm. Yalnız onu deyə bilərəm ki, Rauf Mirqədirov barəsində bəraət hökmü çıxarılmasını xahiş etdim. Bildirdim ki, onun cinayətini sübut edəcək heç nə yoxdur, amma cinayət əməli törətmədiyini sübut edəcək kifayət qədər faktlar var. Rauf məhkəmədən son söz demək üçün vaxt istədi. Məhkəmə də ona vaxt verdi. Dekabrın 25-i saat 16:00-a qədər fasilə elan olundu. Həmin gün Raufun son söz deyəcəyi gözlənilir".

**Məhkəmənin gedişatının müdafiə tərəfini qane edib-etməməsi ilə bağlı suala vəkil belə cavab verdi:** "Məhkəmənin gedişinin bizi qane edib-etməməsini yalnız qərar çıxarılandan sonra deyə biləcəm. Əsas məsələ odur ki, Raufun barəsində hansı qərar çıxarılacaq. Bizim üçün əsas odur".

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı çıxış edərək R. Mirqədirovun 7 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya olunub. O, Cinayət Məcəllənsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunur.

❑ Cavanşir ABBASLI

## Fransada 700 məscid bağlandı

**Fransada 700 məscid bağlanıb. AzNews.az xarici mətbuata istinadən xəbər verir ki, noyabr ayında Parisdə 130 nəfərin ölümü ilə nəticələnən terror hadisəsindən sonra Fransada polislər müsəlmanlara qarşı güc tətbiq edirlər. Polislərin onlara təzyiq etdiyi videolar sosial şəbəkələrdə yayımlanıb.**

Müsəlmanlara qarşı daha bir təzyiq vasitəsi isə onların ibadət ocaqlarını bağlamaq olub. Məlumata görə, terror hadisəsindən bu günə qədər Fransada bağlanan məscidlərin sayı 700-ə çatıb.

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Dekabrın 23-də Beynəlxalq Mətbuat Mərkəzində Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsində ikinci və üçüncü yeri tutan qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**




# KİVDF 113 jurnalisti mükafatlandırdı

## Fond müsabiqə yazılarından ibarət kitab hazırlayıb

Mərasimdə fondun icraçı direktoru Vüqar Səfərli çıxış edərək məlumat verib ki, 2015-ci ildə KİVDF tərəfindən ayrıca və digər qurumlarla birgə bir neçə müsabiqə keçirilib. Bugünkü yazı müsabiqəsinə 60 media orqanından ümumilikdə 156 yazı təqdim olunub. Hər istiqamət üzrə ümumilikdə 6 qalib seçilib. Ümumilikdə 113 jurnalist mükafatlandırılıb. Vüqar Səfərli müsabiqəyə təqdim olunan yazıların qiymətləndirilmə mexanizmi və yazıların səviyyəsi barədə də danışıb. Hansı media orqanından daxil olmasına baxmayaraq ən yaxşı yazıların mükafatlandırıldığını bildirib. V.Səfərli müsabiqədə birinci yerin qaliblərinin mükafatlandırılması mərasiminin isə dekabrın 27-də "Altunsaray" restoranında təntənəli bayram tədbiri ilə birlikdə keçiriləcəyini deyib.

Mətbuat Şurasının sədri, deputat Əflatun Amaşov Azərbaycan jurnalistlərinə dövlətin qayğı göstərdiyini bildirib. Ə.Amaşov jurnalistlərin müsabiqə yazılarında orijinallığa, araşdırmaya üstünlük verməsinin məqsədəuyğun olduğunu ifadə edib.

Müsabiqəyə təqdim olunmuş yazıların qiymətləndirilməsində iştirak etmiş ekspertlərin də bəziləri tədbirdə çıxış edib. Ekspertlər Rəşad Məcid, Vüqar Rəhimzadə, Müşfiq Ələsgərli, Elçin Mirzəbəyli yazıların müsbət və çatışmayan tərəflərindən danışıblar. Jurnalistlərə tövsiyələrini veriblər.



Tədbirdə qeyd edilib ki, KİVDF media nümayəndələri arasında sağlam rəqabətin daha da gücləndirilməsi, yekun nəticələrdən daha çox jurnalistin faydalanması imkanının yaradılması baxımından mövcud müsabiqə qaydalarına bəzi əlavə və dəyişikliklər edib. Müsabiqə mövzuları jurnalistlərin özləri tərəfindən KİV-lərin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında nəzərdə tutulmuş 19 istiqamət əsasında, sərbəst şəkildə müəyyənləşdirilib.

Qaliblər sırasında "Yeni Müsavat" qəzetinin redaktoru Elşad Məmmədli və müxbiri Etibar Seyidağa da var.

Tədbirdə KİVDF-nin 2009-2015-ci illərdə keçirdiyi fərdi jurnalist yazıları müsabiqələrində qalib olmuş ən yaxşı yazıların əksini tapdığı "Sözün zirvəsində" adlı kitabın təqdimatı da keçirildi.

❑ **E.SEYİDAĞA**

# Öldürülən jurnalistlə bağlı istintaq yekunlaşdı

## Cavid Hüseynovun cinayət işinin ayrı icraata götürülməsi ciddi narazılıq yaradıb

**Avqustun 8-də döyüldükdən bir gün sonra həyatını itirən ANN.TV-nin reportyoru, jurnalist Rasim Əliyevin ölümü ilə bağlı başlanan cinayət işinin istintaqı başa çatıb. İş materialları dekabrın 22-də məhkəməyə göndərilib. Gələn ayın ortalarından məhkəmə prosesinin başlanması ehtimal olunur.**




Qeyd edək ki, istintaqın nəticələrinə zərərçəkmiş tərəfin və cəmiyyətin sərt təpkisi var. Mətbuat və sosial şəbəkələrdə bu açıq şəkildə sezilir. Buna səbəb hadisə ilə bağlı həbs edilən "Qəbələ" futbol klubunun sabiq kapitanı Cavid Hüseynovun işinin ayrıca icraata götürülməsidir. Əksəriyyət jurnalistin ölümündə onun əlinin olduğunu iddia edir. Amma istintaq əksini düşünür. Bu, istintaqın nəticələrində açıq şəkildə görünür. Belə ki, sabiq kapitan Cinayət Məcəlləsinin 307.1 (cinayətin hazırlanmasını və törədilməsini bilərək, bu barədə məlumat verməmə) və 307.2 (qabaqcadan vəd etmədən cinayəti gizlətmə) maddələri ilə ittiham olunur. Yeni jurnalistin ölümü ilə bağlı hazırda həbsdə olan digər 5 nəfərin- Kənan Mədətov, Camal Məmmədov, Samir Mustafayev, Elşən İsmayılov və Arif Əliyevə qarşı irəli sürülmüş 126.3-cü (qəsdən sağlamlığa ağır zərər vurma, zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə C.Hüseynov təqsirləndirilmir. Bu isə zərərçəkmiş tərəfin ciddi etirazına səbəb olub. Onlar iddia edirlər ki, bu yolla futbolçu gələcəkdə azad oluna bilər. Hazırda jurnalistin ölümü ilə bağlı əsas müzakirə mövzusu da budur. Bu barədə Baş Prokurorluğun mətbuat xidmətinin yaydığı məlumatda da göstərilir ki, Cavid Hüseynov barəsindəki cinayət işi ayrıca məhkəməyə göndərilmək üzrədir. Prokurorluq işin nə vaxt məhkəməyə göndəriləcəyini dəqiq açıqlamayıb. Məsələnin yubadılması, futbolçunun işinin ayrılması bir çox suallar yaradıb.

**Xüsusilə bir neçə gün əvvəl "Qəbələ"nin vitse-prezidenti Fariz Nəcəfovun verdiyi açıqlama Cavid Hüseynovla bağlı müəyyən proseslərin getməsindən xəbər verirdi. "Qəbələ" rəsmisi jurnalistlərə açıqlamasında bunları demişdi:** "Ümid edirik ki, həbsdə olan kapitanımız Cavid Hüseynovun ilin əvvəllərində baş tutacaq məhkəmədə təqsirsizliyi sübut olunacaq və qışda komandamıza qoşulacaq. Artıq ona prokurorluq tərəfindən irəli sürülmüş cinayətin təşkilatçısı olma ittihamı üzərindən götürülüb".

Onu da qeyd edək ki, C.Hüseynova qarşı irəli sürülmüş cinayət maddəsində nəzərdə tutulan cəza növləri onun azadlığa çıxacağı prosesini sürətləndirə bilər.

İstintaqın nəticələri ilə bağlı yaranan narazılıqlardan biri də hakimlərin məsuliyyətdən kənarda qalmalarıdır. Zərərçəkmiş tərəf iddia edir ki, R.Əliyevin ölümünə həkimlərin məsuliyyətsiz davranışları da səbəb olub.

**Zərərçəkmiş tərəfin vəkili Əsabəli Mustafayev "Yeni Müsavat"a açıqlamasında istintaqın nəticələri ilə bağlı iki məqamdan narazı olduqlarını bildirdi:** "Bir narazılığımız Cavid Hüseynovun işinin yüngülləşdirilməsi və ona qarşı irəli sürülmüş ittihamların ayrı icraata götürülməsidir. İkinci məqam isə həkimlərin məsuliyyətdən kənarda qalmasıdır. Biz bu amillərdən narazılığımızı bildiririk, yəqin ki, məhkəmədə də öz etirazımızı ifadə edəcəyik. Cavid Hüseynov istintaqdan tam çıxarılmayıb. Məsuliyyətdən də tam kənarda deyil. Hazırda o həbsdədir. İşi məhkəməyə göndəriləcək. İnanmıram ki, məhkəmə onu zaldan azadlığa buraxsın. Yəqin ki, ona cəza veriləcək. Hüseynova qarşı irəli sürülmüş cinayət maddəsində cəzanın ən yuxarı həddi üç ildir. Eyni zamanda cərimə də nəzərdə tutulur. 1-2 il də cəza verilə bilər. Bu da o anlama gəlir ki, yarı cəza, yaxud şərti cəza ilə azad oluna bilər. Bunu proqnozlaşdırmaq çətin deyil".

**Vəkil narazı qaldıqları məsələlərlə bağlı verdikləri vəsatətlərin təmin olunmadığını söylədi. Ə.Mustafayev R.Əliyevin döyülmə səhnəsi ilə bağlı yayılan videoya da münasibət sərgilədi:** "Rasim Əliyevin döyülməsi ilə bağlı yayılan videoda istintaq sirrindən söhbət gedə bilməz. Ola bilsin ki, ictimaiyyətin diqqətində olduğuna görə videonun yayılması məqsədəuyğun hesab olunub. İctimaiyyətin müstəqil qiymət verməsi vacibdir. Bir var ki, 4-5 nəfərin döydüyünü eşidəsən, biri də var ki, gözlə görəsən".

Xatırladaq ki, R.Əliyev facebookda C.Hüseynovla bağlı yazdığı statusa görə avqustun 8-də futbolçuya yaxın şəxslər tərəfindən döyülüb. Jurnalistin döyülmə anı həmin ərazidəki nəzarət kameralarına düşüb. Dekabrın 22-də yayılan videoda R.Əliyevin döyülməsi anbaan kameranın yaddaşına düşüb. Aldığı xəsarətlərdən R.Əliyev avqustun 9-da gecə saatlarında 1 saylı Şəhər Kliniki Xəstəxanasında dünyasını dəyişib.

❑ **Cavanşir ABBASLI**

# Gücüm 20 senatoru məhv etməyə çatar



**Aydın CANIYEV**

**Neçə gündü camaat bir-birindən belə hal-əhval tutur:**

- Manatdan (dollardan) nə xəbər?

Yazıq camaat, bu kağız-kuğazın əlində əsir qalıb, əhvalımız dollarla manatın məzənnəsindən və bizlə məzələnməsindən asılıdır. Hamı burnunu sallayıb, qaş-qabağını töküb. Hətta xalqın əzabkeş nümayəndələri, "dollardan mənə nə, üçdə alacağım yox, beşdə verəcəyim",- deyən optimist nümayəndələrinin də hərdən üzünü bulud alır.

Çünki Azərbaycan manatının ikiüzlülüyü elə hamıya xəyanətdi, ən çox da "mənə nə" deyən kasıbına. Çünki bu "mənə nə"nin müəllifi olan kasıb şəhər "varlılar da ağlayır" məzmununda nə qədər sevinirdisə, axşam öz ucuz siqaretini marketlərdə tapmayanda, o biri gün kredit kartlarını bağlanmış görəndə anlayır ki, "müharibə onların da dağlarına gəlib çatıb".

Bu manat niyə belə eləyir, o da bir başqa mövzudur, ən azından ona dəfələrlə təcavüz olunub! Və müstəqillik dönəmində bu dəfələrlə təcavüz tarixçəsində hələ də qeydə alınmayıb ki, manatın zorlanmasında özümüzünkülər də "qrup-pavuxa"da iştirak etsin. Belə bir hal ötən əsrin 90-cı illərinin əvvəlində bircə dəfə qeydə alınmışdı, o vaxt adını "iqtisadi sabotaj" qoymuşdular - ölkədə siqaret satışdan birdəfəlik götürülmüşdü, millət siqaret tüstüsü əvəzinə ciyərlərindən nifrət püskürürdü - onda bu hal yaxşıydı: sovet hökumətinə nifrət güclənsin baxımından!

İndi siqaret monopolistləri bunu nə niyyətlə etdilər, hansı hökumətə nifrəti gücləndirirlər?

Xalqı qəflətən və səhər tezdən iki gün yarım iki gecə siqarətə həsrət saxlamaq, şəhərin bu başından o başına sürütləmək nə kişilikdəndi, nə də biznes bacarığından. Avropada belə "ani pulqırmalar"ın klassik nümunəsi olub - bunu istiqraz vərəqələri üstündə ediblər, ağıl işlədiblər, amma bunu çörək və siqaret üstündə, milli valyutanın məzənnəsi, məzələnməsi və zorlanması fonunda etməyiblər. Səhv etmirəmsə, Nobellərdən hansısa biridi, atla çaparaq Almaniyaya özünü çatdırıb - önəmli deyil, amma qazancı məqbul sayıldığı üçün ötəri xatırlatdım!

Mən düz iki gündü bu xalqı miskin görürəm və bu miskinlik hələ uzun müddət davam edəcək! Çünki bu xalq onu siqaretlə imtahana çəkən idbar xisləti insanları hələ uzun müddət kişi sayacaq, məclislərdə adını varlı adam, biznesmen kimi hörmətlə çəkəcək, yəni ki... bu qədər miskin!

Mən manatın təcavüzündən üzüldüm. Baxmayaraq ki, doğrudan da yaltaq və harasagirən iqtisadçılardan fərqli olaraq, Azərbaycan dövlətinin manatın şərəf və ləyaqəti uğrunda qanlı döyüşlərini alqışlayıram: manat bir gündə hipe-inflyasiyaya da uğraya bilərdi - bunu rəqiblərin etməsi də mümkün. Rusiya rublunun taleyi göz qabağında. Və mən manatın 63 rubl 50 qəpikdən 63 rubla ekvivalent olmasına sevinən vətənpərvər rusları gördüm Moskvaya son səfərimdə. Və anladım ki, doğrudan da bizim üçün Azərbaycanı qoruyanlar var və yaxud vardı - iqtidar komandasımı, hansısa mason təşkilatımı, yainki transmilli korporasiyamı, istənilən halda indiyə qədər hər şey yaxşı idi.

Bir az kinayəmizi gücləndirsək, hətta sevinmək məqamı da taparıq bu işdə. Siqaretistlərin əlində iki gün avara qalan, başqa vaxt küçədə bir-birindən saatı belə soruşmamasına rəğmən, iki gündü bir-birindən siqaret üçün ağız açacaq qədər mehribanlaşıb. Nə olsun ki, ən kiçiyindən tutmuş ən böyüyünə qədər iş adamları bu xalqın qanına susayıb, başını kəsməyə məqam axtarır, cibini doldurmaq üçün düşmənçilik edir. Amma nə olsun, bu xalq yenə onlara varlı-hallı və əsl kişi kimi baxmaqda israrlı.

"Bu meydan pəhləvan meydanıdı" Mirzə Cəlil demiş, hünər istər ki, yenə biri çıxsın bu meydana və desin:

"Xalqın şeyiylə oynamayın!"

Onunçün avropalı müdriklərdən biri deyirdi ki, demokratiyanın təntənəsi monopoliyanın və korrupsiyanın kökünün kəsilməsindən başlayır.

Bir az da mehriban olun, hər şey düzələcək.

Hə bir də... Qərara aldım ki, bundan sonra ancaq "Senator" çəkəcəm.

Azərbaycanın taleyi yavaş-yavaş senatorlardan asılı olmağa başlayır - mənim gücüm 20 "senator"u məhv etməyə çatar!

BU QƏDƏR...

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

# Manatın "qatili": "Kim olsa, istefaya gedərdi"

**Ekspert:** "Bu il baş verən hər iki devalvasiyanın məsuliyyəti Elman Rüstəmovun üzərindədir"

**Samir Əliyev:** "Biz dəfələrlə demişdik ki, vaxtında yumşaq devalvasiyaya gedilsə idi, bu gün biz 47-48 faiz kəskin devalvasiya ilə üzləşməzdik"

**Natiq Cəfərli:** "Normal ölkələrdə bu hal baş versə, mənəvi məsuliyyətə görə həmin məmur istefa verir"

**Manatın bir il ərzində 98 faiz dəyərdən düşməsi və bu prosesdən hökumətin qazanclı, vətəndaşın ziyanlı çıxması insanların mövcud hakimiyyətə qarşı münasibətinə də təsir edir. İstənilən halda baş verənləri vətəndaşlar üçün fəlakət adlandırmaq olar. Manatın birdən-birə kəskin şəkildə ucuzlaşmasının səbəbkarı kim və ya kimlərdir? Necə etmək olardı ki, bu prosesdə vətəndaşlar bu dərəcədə zərər çəkməsin? Manatın devalvasiya qərarı Mərkəzi Bank tərəfindən verildiyi üçün vətəndaşların gözündə ən böyük günahkar baş bankir Elman Rüstəmovdur. Məhz bu şəxs hər iki devalvasiya öncəsi çıxış edərək manatın ucuzlaşmayacağına söz verir, lakin qısa müddət sonra qəfil, gecə yarısı devalvasiya baş verir.**

Ekspertlər də bu prosesdə həm Mərkəzi Bankın rəhbəri Elman Rüstəmovun, həm də hökumətin məsuliyyət daşıdığını bildirir.

**İqtisadçı ekspert Samir Əliyev** "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, bu il baş verən hər iki devalvasiyanın məsuliyyəti Elman Rüstəmovun üzərindədir: "Çünki Mərkəzi Bankın rəhbəri odur, ölkədə məzənnə siyasətini bu qurum müəyyənləşdirir və qərarları Elman Rüstəmov verir. Bizim öhdəliyimiz yoxdur ki, kiminsə hansı qərarı hansı vəziyyətdə verdiyini anlayaq. Görünən odur ki, bu qərar Elman Rüstəmovun öz iradəsi ilə verdiyi qərar deyil. İstər ötən dəfə, istərsə də bu dəfə gözləniləndən daha çox həddə devalvasiyanın baş verməsi onu göstərir ki, Maliyyə Nazirliyinin bu məsələdə əhəmiyyətli dərəcədə rolu var.

Aydın məsələdir ki, il sona yetir, büdcədə və Neft Fondunda kifayət qədər problemlər var, kəsir yaranıb. Biz gözləyirdik ki, Neft Fondunda 2 milyard manat kəsir yaransın. Neft Fondu dövlət büdcəsi qarşısında öhdəliklərini yerinə yetirə bilmədi. Burada büdcə amili rol oynadığına görə mən düşünürəm ki, burada əsas əhəmiyyətli təsir rıçaqları Maliyyə Nazirliyinin və Vergilər Nazirliyinin əlindədir".



**Ekspertin sözlərinə görə, Mərkəzi Bankın öhdəliyi o idi ki, milli valyutanın məzənnəsinin kəskin düşməsinə imkan verməsin:** "Hər devalvasiyadan sonra bunun məsuliyyəti Mərkəzi Bankın üzərinə düşür. İstənilən halda, bu məsuliyyət hökumətindir, o cümlədən də Mərkəzi Bankın rəhbərinin. Çünki kəskin devalvasiyaya getməmək olardı. Biz dəfələrlə demişdik ki, vaxtında yumşaq devalvasiyaya gedilsə idi, bu gün biz 47-48 faiz kəskin devalvasiya ilə üzləşməzdik. Hətta fevral ayında birinci devalvasiya olanda, biz təklif etdik ki, bundan sonra hökumət kəskin devalvasiyaya getsin və ilin sonunda kəskin devalvasiya olmasın. Çünki neftin qiyməti ilə bağlı proqnozlar optimist deyildi. Hər dəfə deyirdik ki, hökumət yumşaq devalvasiyaya getmədikcə, kəskin devalvasiya ehtimalı daha da artır. Devalvasiya nə qədər gec olarsa, daha kəskin şəkildə baş verir. Əgər bu qərar bir ay da gecikdirilsə idi, o zaman devalvasiya 47-48 faiz yox, 60 faiz olardı".

**Böhranın aradan qaldırılması tədbirlərinə gəlincə, Samir Əliyev bildirdi ki, artıq hökumət bu prosesə gecikib:** "Vaxtında qeyri-neft sektoru inkişaf etdirilmədi. 2008-ci ilin sonunda neft kəskin ucuzlaşanda bir çox ölkələr devalvasiyaya getdi, Azərbaycan isə getmədi. Sonradan yenidən neft bahalaşdı və bu, hökumətdə arxayınlıq yaratdı. Lakin bu xəbərdarlıq siqnalından sonra hökumət manatın məzənnəsini tədricən ucuzlaşdırmalı, qeyri-neft sektorunu inkişaf etdirməli idi. O zaman büdcədə pul var idi, istehsal obyektləri açmaqla qeyri-neft sektoruna yatırım etmək, devalvasiyaya uyğun olaraq maaşları artırmaq olardı.

Artıq indiki mərhələdə devalvasiyadan başqa yol yoxdur və bunun günahkarı hökumətdir. Bu məqamda bir problem də vətəndaşların aldadılmasıdır. Neft ucuzlaşanda bəyanat verildi ki, hər şey yaxşıdır, devalvasiya olmayacaq, qiymətlər qalxanda elan edilir ki, heç bir artım olmayıb. Bu, insanları aldatmaqdır. Birinci devalvasiya zamanı da Elman Rüstəmov devalvasiya olmayacağı haqqında söz verdi və iki gün sonra bu baş verdi. Bu onun reputasiyasına da ziyan vurdu. Əslində normal ölkədə o istefa etməli idi, ancaq görünür, vəzifə onun üçün daha vacibdir. Mərkəzi Bankın rəhbəri ayrı-ayrı vaxtlarda bu mesajları verirdi, ekspertlər bu çıxışlar əsasında proqnozlar verirdi. Ancaq bizi ittiham edirdilər ki, siz panika yaradırsınız. Lakin hökumət heç olmasa, bunun miqyasını azaltmaq üçün addım atmadı. İnsanların hesabına büdcəni doldurdu. Zərbə banklara və vətəndaşlara dəydi. Banklar və vətəndaşlar üz-üzə qaldı. Bunun banklar üçün nəticələri çox pis olacaq. Çünki birinci devalvasiyadan özlərinə gəlməmiş ikinci devalvasiya baş verdi. Güman edirəm ki, yaxın vaxtlarda bazarı tərk edən bankların sayı artacaq, bir çox bankların filialları bağlanacaq. Problemli kreditlər artacaq. Digər tərəfdən, yüksək inflyasiya gözlənilir, qiymətlər artacaq. Bir sözlə, zərbə vətəndaşlara dəyəcək və bunun da məsuliyyəti hökumətin üzərinə düşür".

**Ekspert Natiq Cəfərli isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, manatın devalvasiyasında Elman Rüstəmovun ciddi rolunun olması ehtimalı çox aşağıdır:** "Çünki Mərkəzi Bank müstəqil fəaliyyət göstərmir. Sadəcə, onun mənəvi məsuliyyəti var. Çünki hər dəfə devalvasiyadan öncə çıxış edərək insanlarda manatın ucuzlaşmayacağı ilə bağlı arxayınlıq yaradır, rəsmi açıqlama verir. Bu, artıq mənəvi məsuliyyətdir və insanları aldatmaqdır. Normal ölkələrdə bu hal baş versə, mənəvi məsuliyyətə görə həmin məmur istefa verir. Bunun başqa yolu yoxdur və vətəndaşı iki dəfə aldatmaq olmaz. Ancaq manatın devalvasiyasında bütün hökumət günahkardır.

Elman Rüstəmovun məsuliyyəti odur ki, hökuməti xəbərdar etməli idi ki, kəskin devalvasiya baş verə bilər. Ancaq artıq bu mərhələdə geriyə yol yoxdur və hökumət ciddi iqtisadi islahatlara getməlidir".

**Ekspert xarici təcrübəni əsas gətirərək, ölkəmizdə vətəndaşların aldadılmasının bağışlanmaz olduğunu bildirdi:** "Amerikanın Federal Rezerv Sistemi uçot dərəcələrinin artırılması ilə bağlı bir il idi müzakirə aparırdı ki, uçot dərəcəsini qaldırsınmı, qaldırmasınmı, bu, dolların məzənnəsinə necə təsir edəcək. Hər 45 gündən bir toplantı keçirərək ictimaiyyətə açıqlama verirdilər. Bu da həm Amerika vətəndaşlarını, həm də dünya ictimaiyyətini bu hadisəyə hazırlayırdı. Amma Azərbaycanda əsl sovet yanaşması ilə hər şey bir gecənin içində baş verdi. Bu, əsl hüquq pozuntusudur. Azərbaycan hüquq dövləti olsaydı, normal məhkəmə sistemi olsaydı , vətəndaşlar Mərkəzi Banka qarşı iddia qaldıra bilərdi. Lakin Azərbaycanda belə məhkəmələrin də perspektivi yoxdur".

❑ **Nərgiz LİFTİYEVA**

# Əmək haqları və təqaüdlər artırıla bilərmi?

**Azərbaycandakı növbəti devalvasiya daha çox az əməkhaqqı və təqaüd alan insanlara təsir edib. Onsuz da ağız vəziyyətdə yaşayan xalqın aldığı maaş, təqaüd indiki qiymətləri ödəyə bilmir. Belə olan təqdirdə isə ortaya əmək haqlarının, təqaüdlərin artıb-artmayacağı ilə bağlı sual çıxır.**

İqtisadçı ekspert Vüqar Bayramov əmək haqlarının və təqaüdlərin artırılmasına ehtiyac olduğunu dedi: "Dolların manata nisbətən yüksəlməsi əmək haqları məsələsini olduqca aktuallaşdırıb. Əmək haqlarının manatın aşağı düşməsindən sonra formalaşan real inflyasiya səviyyəsinə uyğunlaşdırılması vacibdir. Çünki ölkəyə idxal edilən ərzaq məhsullarının qiymətlərində həddindən artıq artım var. Bazarda neçə faiz inflyasiya müşahidə ediləcəksə, həmin inflyasiyanın büdcədən maliyyələşən hissələrindən əmək haqqı, pensiya və tələbə təqaüdlərinə transfer edilməsi vacibdir. Kommunal xidmətlərin, əmək haqlarının, nəqliyyat xərclərinin ödənilməsi manatla həyata keçirilir və onlarda artım yoxdur. Amma xərcin dollar predmetində artımlar var. Bütün bunlar hesablanmaqla, real inflyasiya səviyyəsini müəyyənləşdirmək mümkündür".



**Vüqar Bayramov:** "Dolların manata nisbətən yüksəlməsi əmək haqları məsələsini olduqca aktuallaşdırıb"



**Zahid Oruc:** "2016-cı ildə büdcəyə yenidən baxılmalı olacaq"

**Ekspert bildirdi ki, real inflyasiya səviyyəsini hesablamaqla əmək haqlarının və təqaüdlərin artımını həyata keçirmək lazımdır:** "Bizim proqnoz ondan ibarətdir ki, manatın dəyərsizləşməsi idxal olunan məhsullarda 30 faizə yaxın qiymət artımına səbəb olacaq. Əvvəllər məhsuldarlıq yüksək, 50 faizə yaxın olacaq. Çünki onların xərci tamamən dollarla olan xərclərdir. Gətirib bir başa bazara çıxarırlar. Bəzi məhsullar isə nisbətən azalacaq. Amma bütövlükdə idxal olunan məhsulların inflyasiyası gözlənilir. Süni qiymət artımları da olacaq. Ona görə də bütün bu inflyasiya göstəricilərini nəzərə alaraq orta inflyasiya göstəricisinin müəyyənləşdirilməsi və təbii ki, əmək haqqı və təqaüdlərin bu rəqəmə indeksasiya edilməsinə ehtiyac var ki, manatın dəyərsizləşməsi məhz həmin kateqoriyadan olan insanların sosial vəziyyətinə mənfi təsir göstərməsin".

Maraqlıdır, maaş, təqaüdlərin artırılması məsələsi Milli Məclisdə də müzakirəyə çıxarılacaqmı?

**Deputat Zahid Oruc manatın devalvasiyasından daha çox əhalinin iki seqmentinin ziyan çəkdiyini dedi:** "Hazırkı vəziyyətdə manatın devalvasiyasından daha çox əhalinin iki seqmenti ziyan çəkir. Onun birincisi dollarla kredit götürənlərdir, ikincisi isə ölkədə yaşayış minimumu 136 manat müəyyənləşdirilən əmək qabiliyyətli əhali üçün bu 146 manatdır, pensiyaçılar üçün 115 manatdır, uşaqlar üçün 117 manat. Bütün bu rəqəmlər 2016-cı ilin büdcəsi üçün müəyyənləşib. Belə demək mümkünsə, baza hesablama nöqtəsi həmin rəqəmlərə istinad olunur. Lakin reallıq dəyişib və insanların aldığı maaşlar, təqaüdlər hazırkı devalvasiyanın şərtlərinə uyğunlaşmır. Ona görə də düşünürəm ki, hökumət bu məsələ ilə bağlı sürətli, ciddi kompleks tədbirlərini həyata keçirməlidir. Burada qətiyyən inflyasiyadan narahat olaraq atılacaq addımlar pul kütləsini dövriyyədə çoxaldacaq, bu isə avtomatik vətəndaşa gediş çıxmamış o artımları yeyəcəkmiş kimi bir fəlsəfə ilə hərəkət etmək olmaz. Hökumət bu yöndə ilk addımlarını prezidentin dünən verdiyi fərmanlarla atmaqdadır".

**Deputat 2016-cı il büdcəsinə yenidən baxılmalı olduğunu və bu məsələnin parlamentdə müzakirəyə çıxarılmasının vacibliyini vurğuladı:** "Hesab edirəm ki, 2016-cı ildə büdcəyə yenidən baxılmalı olacaq. Bunun üçün mənbələr var, ehtiyatlar mövcuddur. Hesablamalar göstərir ki, o rəqəmlər həddindən artıq böyük deyil. Hazırkı dövrdə devalvasiyanın gətirdiyi inflyasiyanı, qiymət artımlarını və manatın müəyyən bir nisbətdə dəyərinin dəyişməsini qarşılamaq lazımdır. Dollar bizim milli valyutamız deyil. Onu əhalinin kiçik bir hissəsi bu dövrə qədər ala bilərdi. Hesablamalar göstərir ki, faiz etibarı ilə 15-dən yuxarı ola bilməz. Bu da şərti rəqəmdir. Yerdə qalan hissə isə manat resursuna dayanaraq fəaliyyətini qurur. Ümidvaram ki, bu məsələ parlamentin 29 dekabr iclasında gündəmə gətiriləcək".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

# "O sənəd qəbul edilsə, Azərbaycan ağır duruma düşəcək"

## Ərəstun Oruclu: "Hakimiyyətin ABŞ-la münasibətlərə yenidən baxmasına ehtiyac var"

**Bu gün dünya Amerika Birləşmiş Ştatlarından idarə olunur, dünyanın qaynar nöqtələrində baş verən olaylar Vaşinqtondan hazırlanan ssenarilər üzrə inkişaf edir, Birləşmiş Ştatlar əsas rəqibi Rusiyanı daha da zəiflətmək üçün enerji bazarındakı durumu asanlıqla öz xeyrinə dəyişə bilir. Bu fikirlərə çağdaş dünyada gedən prosesləri şərh edən ünlü politoloqların açıqlamalarında rast gəlmək olar.**

Bəs ABŞ-ın gücü nədədir? Hansı səbəbdən ABŞ uzaq coğrafiyalarda bu qədər etkilidir? Nədən dünyanın demokratikləşmək istəyən kəsimi Vaşinqtonun yanında yer almaq istəyir? Vaşinqtonun "gözdən çıxardığı" rejimlər isə xaosun içərisinə düşür.

**Bu sualları ünvanladığımız "Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu deyir ki, ABŞ-ın əsas gücü iqtisadiyyatındadır:** "İqtisadiyyat bugünkü dünyada həlledici faktordur. İqtisadiyyatla siyasəti müqayisə edəndə nəyə görəsə belə düşünürlər ki, həlledici siyasətdir. Amma siyasəti həyata keçirmək üçün çox vacib amillərdən birincisi elə o gücü təmin edən ölkənin iqtisadi durumudur. Konkret Amerika Birləşmiş Ştatlarına baxsaq, görərik ki, orada iqtisadiyyat bütün parametrlər üzrə yetərincə yüksək göstəricilərə malikdir. Həmin ölkənin valyutasının dünyada universal vasitə olması, bu ölkədə yerləşən birjaların, bankların dünya iqtisadiyyatındakı rolu, dünya bazarlarına təsiri göz qabağındadır. Bu gün dünyanın 10 aparıcı şirkətinin 9-u ABŞ şirkətləridir. Ən başlıca göstərici budur. Savaş ənənəvi güc amili kimi qəbul olunur. Çağdaş dünyada savaş artıq çöllərdə, dağlarda, şəhərlərdə aparılmır. İndiki savaşlar banklarda, birjalarda gedir. ABŞ əsas rəqibi Rusiya ilə iqtisadi məkanda döyüşür. Rusiya Ukraynaya təcavüz eləməklə, Suriyaya müdaxilə eləməklə özünü sanksiyalara məruz qoydu. Bu sanksiyalar Rusiyanı çox ağır duruma gətirib. Bunun nəticəsində yaxşı nə isə gözləmək ən azı naşılıq olar. Digər bir tərəfdən, ABŞ texnoloji inkişaf etmiş ölkədir. Bunun da tarixi səbəbləri var. Avropada, dünyanın digər ölkələrində elmi, tərəqqini irəli çəkən şəxslər təqib olunanda ABŞ qapılarını açıb bu insanları qəbul edib, onlara şərait yaradıb. Bundan başqa, digər ölkələrdə mülkiyyət təhlükə altında düşəndə, dövlət mülkiyyət üzərində nəzarəti gücləndirmək istəyəndə ABŞ liberal bazar yaradıb, həmin sərvətləri, investisiyaları özünə cəlb edib. Yəni bu, ABŞ dövlətinin fəlsəfəsindən irəli gəlir".

**Ekspert dövlətin güclü olmasının amillərindən biri kimi mükəmməl idarəetmə sistemini göstərir:** "ABŞ-da qanundan yuxarıda heç kəs yoxdur. Tarixdə prezident Niksonun yol verdiyi qanun pozuntusuna görə impiçmentlə üzləşməməsi üçün istefa verməsi, prezident Klintonun Monika Levinski məsələsinə görə məhşər ayağına çəkilməsi, Dik Çeyni kimi nüfuzlu bir vitse-prezidentin ofis rəhbərinin məhkəmə qərarı ilə həbsə atılması kimi faktlar var. Bu olaylar həmin şəxslər yüksək dövlət postlarında oturarkən baş verib. Demək, bu dövlətin gücünü ifadə edən amillərdən biri də hüquqi dövlətin olmasıdır. ABŞ-ı güclü edən digər bir amil isə güclü vətəndaş cəmiyyətidir. 11 sentyabrdan sonra Corc Buş hökuməti antiterror tədbirləri çərçivəsində insanların şəxsi həyatına müdaxiləni gücləndirmək istəyirdi. Ancaq onun təmsil etdiyi Respublikaçılar Partiyası həm Konqresə seçkini, həm də prezidenti seçkisini uduzdu. Cəmiyyət buna imkan vermədi. Gələn il keçiriləcək prezident seçkiləri ilə bağlı debatlarda respublikaçıların qalmaqallı bir namizədi var - Donald Tramp. Yeri gəlmişkən deyim, Tramp Azərbaycan hökumətinin yaxın dostudur. Onun müsəlmanlarla bağlı dediyi sözlər ABŞ cəmiyyətində çox neqativ reaksiyalar doğurub. İş o yerə çatdı ki, Respublikaçılar Partiyası açıqlama verərək Trampın mövqeyinin partiya dəyərlərinə zidd olduğunu bildirdi. Respublikaçılar mühafizəkardırlar, heç şübhəsiz Amerikada Tramp kimi düşünənlər var, ancaq bütün cəmiyyət belə yanaşmanın zərərli olduğunu qəbul etdi. ABŞ-ın gücü bundadır".

**Ərəstun Oruclu deyir ki, əgər ölkədə normal sistem qurulubsa və bu sistem saat kimi işləyirsə, demək, uğur təmin edilib:** "Güclü sistem qurduğuna görə ABŞ dünyanın ən güclü ordusuna sahibdir. Dünyada 26 təyyarədaşıyan gəmi var, onun 23-ü ABŞ donanmasındadır. Bu yalnız ABŞ ordusu ilə bağlı 1 faktdır. Belə güclü ordunu saxlamaq üçün nəhəng maliyyə imkanları tələb olunur. Ona görə də ABŞ-ın istənilən məsələdə qarşısında dayanmaq çətindir. Rusiyanı Ukraynadan nisbətən geri çəkmək üçün Qərb Orta Doğuda bir tələ qurdu və Rusiya o tələyə düşdü. Avromaydandan sonra Rusiyanın Ukrayna siyasəti kökündən yanlış idi. Qərb bu durumu dəyişmək üçün hərəkətə keçdi. Rusiyanın daxili ovqatının bir qədər şovinist, bir qədər imperialist olmasına əsaslanan Putin cəsarətlə Ukraynaya hərbi müdaxilə etmişdi. Sözsüz, bu, Putin hökumətinin kobud səhvi idi. Birincisi, Ukrayna məsələsi Rusiyanın daxilində yetərincə ziddiyyətli mövqelər doğurdu, çünki ukraynalılar və ruslar faktiki olaraq eyni xalqdır. Ölkənin aydın elitasının, eləcə də iş dünyasının böyük bir hissəsi bu məsələdə Putinin tərəfində durmadı, əksinə, onu sərt tənqid etdi. Bu durumda Putin hökuməti situasiyanı dəyərləndirdi və gördü ki, toplumun fikrini Ukraynaya təcavüz məsələsindən nisbətən yayındırmaq gərəkdir. Eyni zamanda hakimiyyətin əsas dayaqlarından olan şovinist və imperialist kəsimə yeni yem vermək lazımdır. Bunun üçün də ən uyğun məkan kimi Suriyanı seçdi. Rusiya hakimiyyəti daxilə mesaj vermək istəyir ki, o, Orta Doğudakı proseslərdə də söz sahibidir, İŞİD-lə mübarizə aparır. Əslində isə Rusiya Suriyada İŞİD-i yox, İŞİD-ə qarşı olan müxalifləri bombalayır. Bunu dünyada artıq hər kəs bilir. Rusiya Orta Doğuda meydan sulamaqla məşğuldur. Rusiya hərbi təyyarələri təkcə bu il 6 dövlətin hava məkanını pozub. Türkiyənin hava məkanı 3-cü dəfə pozulandan sonra Ankara buna beynəlxalq hüquq normaları çərçivəsində cavab vermək qərarına gəldi. Rusiya bu hərəkətləri ilə daxili auditoriyaya səslənir ki, bizə qarşı sanksiyalar tətbiq ediblər, bizi təcrid etməyə çalışırlar, amma biz Suriyaya qədər gedə bilirik. Bayaq dediyim kimi, bölgədə ciddi rəqabət gedir, Qərb tələni qurdu, Rusiya da o tələyə düşdü".

**Azərbaycan-ABŞ münasibətləri də yaxın tarixin ən gərgin dönəminə daxil olmaqdadır. Helsinki Komissiyasında Azərbaycan dövlətinə sanksiyaların tətbiq edilməsi üzrə qanun layihəsi hazırlanması gərginliyi getdikcə yüksəltməkdədir. ABŞ-ın rəsmi Bakıya mesajlarından aydın görünür ki, əgər ən qısa zamanda siyasi məhbus problemi üzrə ciddi addım atılmasa, sanksiyalar qaçılmazdır. Ərəstun Oruclu bildirir ki, bu, gözlənilən idi. Ekspert onu da deyir ki, Azərbaycan cəmiyyətində sanksiyalar haqqında təsəvvür xeyli dərəcədə yanlışdır:** "Bu, yetərincə ciddi məsələdir. 7-8 ay öncədən biz Azərbaycan hakimiyyətinin addımlarını müzakirə edərkən sanksiyaların gündəmə gələcəyi haqqında xəbərdarlıqlar etmişdik, eyni zamanda bunu önləmək üçün resept də vermişdik. Mən siyasi məhbusların azad edilməsinə inadkarlığı anlaya bilmirəm. Söhbət insanları cəzalandırmaqdan gedirsə, bu insanlar şərlənib, müxtəlif bəhanələrlə həbs edilib. Yəni artıq cəzalanıb. Bu şəxsləri uzun müddət cəza evində saxlamaq lazımdırmı? Bu sualın Azərbaycan hökuməti tərəfindən verilən cavabı bir qədər məyusluq doğurur. Bu inadkarlıq çox təəssüf, hələ də davam edir. Artıq sanksiyalar haqqında qanun layihəsi Konqresə təqdim olunub. Azərbaycanda bəzi ekspertlər yanlışlıqla bildirirlər ki, sənədi hazırlayanlar ermənipərəst konqresmenlərdir. İzah kökündən yanlışdır. Sənədi hazırlayıb Konqresə təqdim edən Helsinki Komitəsidir. Helsinki Komissiyası yetərincə nüfuzlu bir qurumdur. Orada həm Pentaqon, həm Dövlət Departamenti, həm də Ağ Ev təmsil olunub, yəni hakimiyyətin məhkəmə qolundan başqa bütün qolları. Düşünürəm ki, Azərbaycan hökuməti sanksiyaların hazırlandığından xəbərdar idi. Çünki ABŞ-da qanun layihələri gizli şəkildə hazırlanmır. Bu adi qanunvericilik praktikasıdır və bu informasiyalar şəffafdır. Hazırlıq dönəmində dəfələrlə bu haqda yazılır, informasiya verilir. Mənə görə, Arif və Leyla Yunusların həbsdən buraxılması da sanksiyalarla bağlıdır. Hakimiyyət siyasi məhbus məsələsi üzərindən ABŞ-la mübadilə aparmaq istədi. Ancaq görünür ki, Vaşinqton bununla qane olmadı, qanun layihəsinin Konqresə təqdim edilməsi ilə bildirdi ki, bu məsələdə alver ola bilməz, siyasi məhbus məsələsi birmənalı şəkildə həll edilməlidir. Düşünürəm ki, problem yalnız budur, ola bilər, ikitərəfli münasibətlərdə gərginlik yaradan çözülməsi uzadılan digər məqamlar da var ki, biz onu bilmirik. Bütün hallarda bu layihə ilə bağlı çox ciddi düşünmək lazımdır. Hesab edirəm ki, rəsmi Bakı bunu yaxşı anlayıb. Çünki əvvəlki tənqidi bəyanatlara baxanda budəfəki reaksiyalar yetərində yumşaqdır. Rəsmi Bakı anlayır ki, ortada çox ciddi bir sənəd var və bu sənəd qəbul olunarsa, Azərbaycan dövləti ağır duruma düşəcək".

**Ərəstun Oruclunun sözlərinə görə, sanksiyalar yalnız dövlət rəsmilərinə qarşı qadağalar demək deyil. Söhbət ölkənin beynəlxalq maliyyə qurumları ilə münasibətlərinə sanksiyalar tətbiq olunmasından gedir:** "Bu, Azərbaycanın Beynəlxalq Valyuta Fondu, Avropa İnkişaf və Yenidənqurma Bankı, Dünya Bankı ilə münasibətlərinə ciddi problemlər yarada bilər. Azərbaycanda kreditlərə gərək olduğu bir dönəmdə sanksiyaların tətbiq olunması çox ciddi siqnaldır. ABŞ 2016-cı il fevralın sonu-martın əvvəlləri̇ndə sənədin müzakirəsinə başlayacaq. Müzakirələr 1 gündən 3 aya qədər çəkə bilər. Bu sənəd müzakirə dönəmində olsa belə düşünürəm ki, beynəlxalq miqyaslı hansısa bank Azərbaycana kredit verə. Çünki sanksiya tətbiq olunsa, bu, həmin vəsaitlərin batmaq ehtimalını yüksəldir. Yəni artıq sənədin gündəmə gətirilməsi öz rolunu oynayıb. Ona görə də bu sənədi düzgün dəyərləndirmək və qəbul olunmaması üçün konkret addımlar atmaq lazımdır. Söhbət hansısa senatorları, konqresmenləri qonaqlığa dəvət edib Nyu-Yorkun bahalı restoranlarında görüş keçirməkdən getmir. İlk sırada beynəlxalq qurumların siyasi məhbus kimi tanıdığı ictimai-siyasi fəallar həbsdən azad edilməlidir. Bu şəxslərin azad olunması həm cəmiyyətin özünə lazımdır, həm də beynəlxalq sanksiyalardan qorunmaq üçün hakimiyyətin özünə".

**Ərəstun Oruclunun fikrincə, yetərincə həssas olan indiki geosiyasi durumda Azərbaycanın ABŞ siyasətinə yenidən baxmasına ehtiyac var:** "Biz artıq Avropanın da Azərbaycanla bağlı siyasətini kəskinləşdirdiyini görürük. AŞ PA prezidenti Torbörn Yaqlandın sonuncu çıxışı belə düşünməyə əsas verir. Bu təşəbbüslərə Avropa Parlamenti, Avropa Komissiyası da qoşula bilər. Azərbaycan öz enerji imkanlarına həddən artıq güvənir. Ancaq Azərbaycan qazını bu qədər böyütmək lazım deyil. Dünya artıq sürətlə dəyişməkdədir. Neft 1 il öncə ilə müqayisədə 3 dəfədən də artıq ucuzlaşıb. Belə görünür, artıq karbohidrogen mənşəli enerji daşıyıcılarına tələbat da getdikcə azalacaq. Yəni "biz Avropanın enerji təhlükəsizliyini təmin edirik" kimi tezislər artıq işləmir. Çox ciddi iş aparmaq, xarici siyasət kursunda konkret dəyişikliklər etmək lazımdır. Birinci məsələ kimi də ölkədə siyasi məhbus məsələsi həll edilməlidir. Əminəm ki, bu addım atılsa, sənədin qəbul olunma ehtimalı müəyyən qədər aşağı düşəcək. Ancaq 3 ay sonra da bugünkü reallıqlar qüvvədə olsa, həmin sənəd şübhəsiz qəbul olunacaq. Manatla bağlı son durumu, sanksiyaların tətbiqinin ölkənin maliyyə durumunda yaradacağı fəsadları nəzərə alsaq deyə bilərik ki, Azərbaycan bu sənədin qəbul edilməməsi üçün nə mümkünsə etməlidir. Çünki söhbət təkcə məmurlara sanksiyalardan getmir. Burada Qarabağ məsələsi də var, maliyyə institutları məsələsi də. Sanksiyaların tətbiqi Azərbaycanı faktiki izolyasiya vəziyyətinə sala bilər. Bu səbəbdən nə hakimiyyətin inadkarlığı, nə də bu sənədə görə sevinənlərin reaksiyası anlaşılan mövqe deyil. Məgər Azərbaycana sanksiyalar tətbiq olunanda biz yaxşı günə çıxacağıq? Mən bunu belə təsəvvür etmirəm. Söhbət Azərbaycan dövlətinə sanksiyalar tətbiq edilməsindən gedir və bu hər bir Azərbaycan vətəndaşına təsir edəcək məsələdir".



❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

# Pənah Hüseyndən hökumətə antiböhran təklifləri - “...məsuliyyəti və hakimiyyəti bölək”

## “Yaxın dövrdə spontan aksiyaların olacağını istisna etmirəm”

**AXP sədri Pənah Hüseyn musavat.com-a müsahibə verib. Partiya sədri müsahibəsində manatın devalvasiyasından, bunun ölkə iqtisadiyyatına təsirlərindən və çıxış yollarından danışıb. Həmçinin hakimiyyəti və məsuliyyəti bölüşdürməyi təklif edib:**



**AXP lideri: “Dövrün çağrıları məsuliyyətin bölüşdürülməsini və bu da hakimiyyətin bölüşdürülməsini tələb edir; əks halda, vəziyyətdən normal çıxış yolu mümkün deyil”**

- İqtidarın səbəb olduğu bu böhranın nəticələrini xalqın, uşaqdan böyüyə, yeni doğulmuş körpədən tutmuş pensiyaçıya, işçiyə, iş adamına, məmuruna, hərbiçisinə qədər hamının hesabına həll etmək istəyirlər. Problemi belə şəkildə həll etməyə cəhdin müvəqqəti effekti ola bilər, lakin aydın məsələdir ki, bu yolla bu prosesin qarşısını almaq yalnız bir neçə ay, ya il möhlət verər. Doğrudur ki, manatın devalvasiyasının xaricdə gedən proseslərlə bağlılığı var. Lakin bu hadisənin kökü daha dərində, daxildə, hakimiyyətin qüsurlu siyasətindədir. İqtisadi və sosial böhranın siyasi böhrana keçməsi isə zaman məsələsidir və bir qayda olaraq labüddür.

***- Demək istəyirsiniz ki, böhran istiqrarsızlıq, xaos yarada bilər? Müxalifətdəki, iqtidardakı, cəmiyyətdəki vətənpərvərlərin bu məqamda mövqe və səylərinin nəticəsi olmazmı?***

- Açığı, bu anlayışda xeyli dərəcədə subyektivlik var. Kimin vətənpərvər, kimin qeyri-vətənpərvər olmasını hələ aydınlaşdırmaq lazımdır. Hər halda, tutaq ki, bu məsələdə anlaşdıq. Vətənpərvərlərin narahatlığı başa düşülə bilər, lakin, açığı bu labüd olanın, yəni iqtisadi-sosial böhranın, aradan qaldırılmazsa, əvvəl - axır, siyasi istiqrarsızlığa keçməsinin qarşısının alınması baxımından əhəmiyyətsizdir. Odur ki, narahat olmalarına olsunlar, ancaq həqiqətən vətənpərvərdilərsə, və narahatlıqları səmimidirlərsə, istiqrara təhdid olan mövcud siyasəti və bu siyasətin daşıyıcılarını, subyektlərini dəyişmək üçün çalışmalıdırlar. Vətənpərvərlik bu gün bunu tələb edir. İstiqrarsızlıq və xaos labüd deyil, bunun alternativi var və həmin alternativ islahatlar və dəyişiklikdir.

***- İkinci devalvasiyadan sonra rəyini soruşduğumuz müxalifət liderləri bahalaşma əleyhinə aksiya keçirilməsini istəmədiklərini bildiriblər. Sizin bu məsələyə münasibətiniz necədir?***

- Sizin rəyinizi soruşduğunuz şəxslərin heç aksiya keçirmək imkanları da yoxdur. Ancaq ədalətlə danışsaq digərlərinin də belə imkanı məhduddur və ya o qədər də böyük deyil. Mahiyyət başqadır. Bu aksiya məsələsi belə görünür ki, heç siyasi müxalifətdən çox asılı olmaya da bilər. Müəyyən həyəcanlar var, xüsusən ticarət sferalarında. Bu da təbiidir. Çünki əhalinin çox fəal hissəsi oralarda cəmləşib. Hələ manatın ucuzlaşması olana qədər onların bir çoxu son həddə fəaliyyət göstərirdi. Və indi bu sahədə hesab etmək olar ki, iş yerlərinin (özləri çörək yerləri deyir) 60-70 faizinin bağlanacağı gözlənilir. Ona görə də bu baxımdan mən ən yaxın dövrdə spontan aksiyaların olacağını istisna etmirəm. Bunun siyasi şüarlarla, yaxud ilkin dövrdə siyasi təşkilatlar tərəfindən yönləndirilməsi və yaxud ortalığa qoyulmasına heç bir ehtiyac-filan qalmır. Məmurların mühüm bir hissəsi paket sistemi ilə yaşayırdı. Bu paketlərin də kəsildiyi və ya yanvar ayından kəsiləcəyi bildirilir. Hələ mən ixtisarları, məcburi iki-üç aylıq öz hesabına məzuniyyətləri və sairi demirəm. Beləliklə, məmurlar içərisində də ciddi həyəcan və müəyyən təbəddülatlar olacaq. O vaxt əlbəttə ki, siyasi müxalifət də hərəkətə gələcək. Bu da gözləniləndir. Yaxud həmin aksiyalar özləri siyasiləşəcək.

***-Manatın devalvasiyası təminatlı və uzunmüddətli effekt verməyəcəksə, sizcə, nə olacaq?***

- Manatın devalvasiyası manatın ucuzlaşması, qiymətdən düşməsidir elə deyilmi? Bu isə istehlak və o cümlədən gündəlik tələbat mallarının 90 faizi xaricdən gətirilən bir ölkədə bahalaşma və bahalığın ardınca daxili bazarın daralması, kiçilməsi deməkdir. Bunun da nəticəsi getdikcə artan işsizlikdir. İşsizlik öz növbəsində daxili bazarı daha da daraldır və kiçildir. Bu, ictimai fəlakət silsiləsidir.Və bu silsilə uçuruma qədər davam edir... Oturub gözlənilsə belə də olacaq. Bu fəlakət silsiləsini kəsən hadisələr ortaya qoyulmalıdır.

***-Nə etməli? Pənah Hüseyn nə təklif edir?***

- Nə qədər məyusedici olsa da təzə bir şey eşitməyəcəksiniz. Əvvəla, ox hədəfdən çıxıb və çətinliklər bu və ya başqa dərəcədə mütləq olacaq. Bu çətinliklərdən daha tez və az zərərlə qurtarmaq üçün antiböhran proqramı qəbul olunmalıdır və həyata keçirilməlidir. Bunu əksəriyyət, o cümlədən iqtidarda da qəbul edirlər. Lakin çoxları, xüsusilə iqtidardakılar bu proqramı yalnız iqtisadi və sosial tərkibdə görürlər. Azərbaycan kimi cəmiyyətlərdə isə bu proqramın siyasi tərkib hissəsinin də olması zəruridir. Mənim fikrimcə, paradoksal görünsə də, siyasi tərkib axırıncı səslənsə də, antiböhran tədbirləri istiqamətində ilk addımlar məhz siyasi addımlar, siyasi dəyişikliklər, siyasi islahatlar olmalıdır. Bir dəfə belə metod SSRİ nümunəsində doğrulmayıbsa, bu, metoddan imtina edilməsi üçün əsas deyil. Siyasi və iqtisadi hakimiyyət biri-birindən ayrılmalıdır. Bizneslə məşğul olan oliqarx məmurlar siyasi vəzifələrdən uzaqlaşdırılmalıdır. Başdan-ayağa korrupsiyaya uğramış bu oliqarxlar vəzifələrdə qaldıqca böhrandan çıxmaq mümkün deyil. Kimlər cinayətə yol verməyibsə, dövlətin, xalqın cibinə girməyibsə, oğurluq etməyibsə, o məmurları öz obyektləri ilə baş-başa buraxmaq lazımdır. Onların məmur olmalarından yaranan imtiyazlarını əllərindən almaq, məhrum etmək lazımdır. Manat üzən kursa buraxıldığı kimi, həmin məmurları da bazar rəqabəti dənizinə buraxmaq lazımdır ki, üzməyi öyrənsinlər. Öyrənə bilməyənlər boğulsunlar. Bunlar da aydındır. Ölkədə bir neçə milyarder şirkət var. Bunlara kimlərin rəhbərlik etdiyi də məlumdur. Müqavimət göstərənləri isə hər mənada təcrid etmək lazımdır. Müqavimət əlbəttə ki, olacaq. Siyasi sahədə islahatlardan biri indiki Nazirlər Kabinetinin buraxılması və ya radikal şəkildə yenidən qurulmasıdır. Hazırda çalışan, texnokrat, təcrübəli məmurlardan söhbət getmir, amma artıq xeyli dərəcədə korrupsiyalaşmış və bu yaranmış vəziyyət üçün məsuliyyət daşıyan şəxslər var və bunlar mütləq istefaya göndərilməlidir. Həqiqətən səlahiyyətli bir baş nazir hökumətə gətirilməlidir. Hətta bəzi ölkələrin təcrübəsindən istifadə edərək xarici vətəndaşları da, siyasi postları istisna edilməklə, iqtisadi idarəçiliyə cəlb etmək mümkündür. İkincisi, əgər biz istəyiriksə ki, bu böhranın sosial fəsadları az olsun, addımlar atmalıyıq. Mərkəzi Bank rəhbərinin çıxışından anlaşılır ki, qapıları daha sıx bağlamaq təklif edilir. Düzdür, o bunu lüks mallar idxalına şamil etdi, dedi ki, rüsumları artırmaq lazımdır. Əsaslandırması odur ki, guya bu, daxili, yerli məhsullara şərait yaradacaq. Yerli məhsul-filan yoxdur. Yəni rus ədəbiyyatından fərqli olaraq Rusiyanın siyasətini Azərbaycancaya tərcümə etmək mümkün deyil. Rusiyanın geniş bir bazarı var, istehsal resursları var, qiymətlər də bizdən qat-qat ucuzdur. Bizdə Rusiyada olduğu anlamda və miqyasda yerli malla əvəzləmədən danışmaq absurddur. Ya bu mallar ümumiyyətlə ölkədə istehsal olunmur, ya da bunların böyük bir tərkib hissəsi yenə xaricdən gətirilir, şəkərdən tutmuş kolbasaya qədər, yağa qədər. Yeri gəlmişkən, indi bahalıqdan bir çox firmalar keyfiyyətin aşağı salınması hesabına çıxmaq istəyirlər. Keyfiyyətin aşağı salınması birbaşa əhalinin sağlamlığı və həyat təhlükəsizliyi ilə bağlı olan bir məsələdir. Bu vəziyyətə nəzarət olmasa, çox dəhşətli bir situasiya gözləyir bizi və bunun qarşısının alınması üçün də heç bir tədbir görülmür. Bunun üçün yol nədir? Qapıları bağlamaq, rüsumları artırmaq yox, əksinə, qapıları tam açmaq lazımdır. Çünki Azərbaycanda həmin o proteksionizm yolu ilə müdafiə etməyə özyetərli “yerli” istehsal filan yoxdur. Əslində indiki Gömrük Komitəsinə və digər analoji funksiyalı təsisatlara gərək belə yoxdur, bu qədər şişirdilmiş bir qurumu saxlamağa da ehtiyac qalmayacaq. Bir broker MMC-də, deyilənə görə, beş min işçi çalışır, monopoliya deyilən məsələnin canı bu MMC-dədir. Bunların hamısını göndərmək lazımdır gedib bazarda alver etsinlər, təbii ki, onların arxasında duran şəxslər də daxil olmaqla. Yaxın dövrdə, yanvar ayından başlayaraq bu qeyd etdiyimiz addımlar atılmasa, çox ciddi bir böhrana keçilməsi təhlükəsi aktuallaşacaq. Bu barədə danışılır, deyilir. Və mən hesab edirəm ki, bu, dəyişikliklər olmasa bu qaçılmaz olacaq...

***- Müxalifət bu mərhələdə öz üzərinə nə götürə bilər?***

- Əslində bu sualın cavabı yuxarıdakıların davamıdır. Müxtəlif alternativlər var. Məsələn, uzun müddət bir çoxları, o cümlədən mən belə təkliflərlə çıxış edirəm ki, dövrün çağrıları proseslər üçün məsuliyyətin bölüşdürülməsini və bu da hakimiyyətin bölüşdürülməsini tələb edir. Bu, olmasa, vəziyyətdən normal çıxış yolu mümkün deyil. Bu, nə yolla baş verə bilər? Növbədənkənar seçkilərdən danışırlar. Mən sözün doğrusu, belə bir situasiyada normal bir seçkini mümkün hesab etmirəm. Ona görə daha çox siyasi razılaşmalardan, kompromisləri, razılıqları nəzərdə tuturam. Strateji olaraq əlbəttə ki, müəyyən bir mərhələ azad və demokratik seçkilərdən başlanacaq. Lakin buna qədər bir keçid dövrünün olacağı mümkün alternativlərdən biridir və ən optimal yoldur. Bu məsələnin də artıq dialoq kimi devalvasiyaya uğramış anlayışlarla da qarışdırmaq lazım deyil. Mənə elə gəlir ki, ölkənin birinci vəzifəlisi və dövlətin taleyi üçün əsas məsuliyyət daşıyan şəxs olaraq İlham Əliyev nəhayət ki, siyasi müxalifət liderləri ilə ayrı-seçkilik etmədən bir araya toplamalıdır və bu istiqamətdə onları dinləməlidir. Mənə elə gəlir ki, necə ki, ölkədən xaricdə olan qüvvələrlə müəyyən kompromisə getmək lazım gəlir, ölkənin siyasi müxalifəti ilə də müəyyən kompromisə getmək lazımdır. Bu da aydındır ki, hakim siyasi iradə və siyasi müxalifətin mövqeyi belə bir prosesin başlaması və davamlı şəkildə getməsi üçün kifayət etməyə bilər. Nəzərdə tutulan prosesin ictimai qarantı olaraq Azərbaycan naminə milli həmrəylik hərəkatının yaranması ideyası reallaşarsa, bu təminatı da əldə etmək olar. Bizim həmfikirlərimizlə səylərimiz buna yönəlib.

**“Ölkədə bir neçə milyarder şirkət var. Bunlara kimlərin rəhbərlik etdiyi də məlumdur. Müqavimət göstərənləri isə hər mənada təcrid etmək lazımdır. Müqavimət əlbəttə ki, olacaq. Siyasi sahədə islahatlardan biri indiki Nazirlər Kabinetinin buraxılması və ya radikal şəkildə yenidən qurulmasıdır”**

**“Səlahiyyətli bir baş nazir hökumətə gətirilməlidir. Hətta bəzi ölkələrin təcrübəsindən istifadə edərək xarici vətəndaşların da, siyasi postlar istisna edilməklə iqtisadi idarəçiliyə cəlb etmək mümkündür”**

**“Əslində indiki Gömrük Komitəsinə və digər analoji funksiyalı təsisatlara gərək belə yoxdur, bu qədər şişirdilmiş bir qurumu saxlamağa da ehtiyac qalmayacaq”**

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

**AXP sədri Pənah Hüseyn musavat.com-a müsahibəsində hakimiyyətin müxalifətlə ölkədə yaranmış durumla bağlı məsuliyyəti və hakimiyyəti bölüşdürməsini təklif edib.**
**Rəyini öyrəndiyimiz ekspertlər bu təklifin mümkünlüyündən danışıblar. Ekspert Natiq Miri təklifi dəstəkləsə də, hakimiyyətə yaxınlığı ilə tanınan deputat Zahid Oruc bunun mümkünsüzlüyünə işarə edib.**

# "Bu, müxalifətin xoş bir niyyətindən irəli gələn məsələdir"

**Ekspert Natiq Miri məsələ ilə bağlı musavat.com-a bildirib ki, P.Hüseynin təklifi müsbət qiymətləndirilməlidir:** "Əvvəla, onu demək lazımdır ki, bu, müxalifətin xoş bir niyyətindən irəli gələn məsələdir. O mənada ki, bu, müxalifətin öz dövlətinə və xalqına, onun qüsurlu, qüsursuz bütün dəyərlərinə sahib çıxması anlamına gəlir. Bu, çox müsbət dəyərləndirilməlidir. Ancaq çox təəssüf ki, hələlik bu məsələ birtərəfli qaydada irəli sürülür. Çünki hakimiyyətin müxalifətlə məsuliyyəti bölüşmək və yaxud da ki, ölkə iqtisaidyyatını indiki çətin vəziyyətdən çıxarmaq üçün hər hansı bir müzakirə aparmaq niyyəti hiss olunmur. Çünki hələ də hakimiyyət ölkədəki kritik iqtisadi duruma rəğmən öz dik duruşunu saxlamaqda davam edir və hesab edirəm ki, yanlış olan da budur. Çünki manat artıq elə vəziyyətdə dəyərdən düşüb ki, indiki şəraitdə insanların bütün ehtiyacları və problemləri həll olunmadan, eyni zamanda əmək haqqlarında hər hansı bir artım görünmədən və bunun üçün xüsusi bir baza qurulmadan manatı devalvasiyaya bu şəkildə uğratmaq cəmiyyətdə böyük narazılıqlar və sosial etirazlarla qarşılanacaq. Ola bilsin ki, bu, indiki durumda olmasın. Ancaq bir neçə aydan sonra Azərbaycanda çox çətin bir sosial durumun bərqərar olacağını artıq əminliklə demək olar. Burada da artıq hər hansı siyasi partiyanın cəmiyyəti etirazlara çağırmasına ehtiyac olmayacaq. Çünki ac qılınca çapar deyə bir məsəl var".

**Ekspertin sözlərinə görə, hakimiyyət indiki şəraitdə müxalifətlə ən azından bu problemləri müzakirə etməlidir:** "Ancaq parlament seçkiləri göstərdi ki, hakimiyyət müxalifətlə heç bir şeyi bölüşmək fikrində deyil. Hansı ki, 21-ci əsr dünyası bölüşmək və paylaşmaq dünyasıdır. Burada həm hakimiyyəti, həm də siyasi məsuliyyəti bölüşməlidirlər ki, ən stabil cəmiyyət də bu cür cəmiyyətlərdir. Ancaq təəssüf ki, Azərbaycanda bu parlament seçkilərində bir müxalifət nümayəndəsi belə parlamentə salınmadı. Bu, mənə elə gəlir ki, hakimiyyətin apardığı ən böyük yanlış idi və bu yanlışı hakimiyyət nə vaxtsa xatırlayacaq. Müxalifət indiki şəraitdə gücünün olub-olmamasından asılı olmayaraq, bu siyasi qüvvələrlə bir çox məsələləri müzakirə obyektinə çevirməli idi. Çünki regionda həm də qlobal səviyyədə çox böyük gərginliklər baş verir. İndiki şəraitdə Azərbaycan öz təhlükəsizlik sistemini qurmalıdır və hansı təhlükəsizlik sistemində Azərbaycan olacaqsa, bu yöndə seçimini etməlidir. Ona görə də mən düşünürəm ki, bundan ötrü bu cür strateji qərarları verməkdən ötrü mütləq mənada ölkənin digər müxalif siyasi qüvvələri ilə bu yöndə ciddi siyasi müzakirələr aparmalı, anlaşmalı və ortaq bir nöqtəyə vurmalıdırlar. Ancaq çox təəssüf ki, Azərbaycanda bunun üçün heç bir addım atılmır".



**Natiq Miri:** "Ancaq çox təəssüf ki, hələlik bu məsələ birtərəfli qaydada irəli sürülür"



**Zahid Oruc:** "Heç bir hakimiyyət könüllü şəkildə hətta bir nazirliyi belə başqa siyasi təşkilatla bölüşmək istəmir"

**Deputat Zahid Oruc isə təklifə münasibətini bu cür açıqlayıb:** "Əslində Pənah bəy bu təklifi keçmişdə də irəli sürmüşdü. Hətta xatırlayıram ki, konkret hansı hökumət qurumlarının müxalifətlə koalision ortaqlıq, yaxud da ki, bir neçə portfelin bölüşdürülməsi, müxalifətin hakimiyyətdə təmsilçiliyi, ölkədə konsensusun tapılması maraqlarından, prinsiplərindən irəli gələrək ortaya qoymuşdu. Həmin qurumlardan biri Əmlak Komitəsi idi. Deyəsən, İqtisadi İnkişaf Nazirliyi sistemi ilə də bağlı eyni baxışlar irəli sürülmüşdü. Etiraf etmək lazımdır ki, Qərb təcrübəsində qarşılıqlı nəzarət və balans funksiyası, hakimiyyətin birini digər qolları ilə çəkindirmə funksiyasının reallaşması naminə bu, geniş yayılıb. Lakin bunlar seçkilər vasitəsilə baş verir. Heç bir hakimiyyət könüllü şəkildə hətta bir nazirliyi belə başqa siyasi təşkilatla bölüşmək istəmir. Baxın, Türkiyənin 2015-ci ildə yaşadığı bir daha hamımız üçün görkdür. Bu mənada ki, Ərdoğanın partiyası, Davudoğlunun rəhbərlik etdiyi partiyanın seçkilərdə qalib gəlməsi, lakin hökuməti formalaşdıra bilməməsi, bunun üçün yetərli deputat sayını qazanmaması üzündən bütün danışıqları aparmasına baxmayaraq, AKP ilə ortaqlıq olmadı və yeni seçkilər keçirildi. Bundan sonra məsələni qərarlaşdırmaq mümkün oldu. Azərbaycanda həqiqətən də maliyyə sistemində dünyadan gələn bəlli problemlər üzündən gərgin situasiyalar yaşanır. Manatın dollar qarşısında 50 faizə yaxın devalvasiya olunması, ilin əvvəlindəki vəziyyəti də nəzərə alsaq, əslində bunun yüz faizə çatması fonunda gerçəkdən də iqtisadi tsikl dəyişikliyə uğramaq üzrədir. Əvvəlki dövrdə ölkənin ümumdaxili məhsulu təşkil edən amilləri yeni-yeni sistemləşdirilməsi baş verir. Yəni neft qurulmuş bizim əsas lokomotivlər yerini dəyişməlidir. Bu fonda hökumətdə də müəyyən dəyişikliklər qaçılmazdır. Bu, dövlət başçısının özünün verəcəyi qərarlarla olacaq. Bu qərarlar dəyişikliyə səbəb olacaq. Lakin orada müxalifət təmsilçilərinin yer alacağını gözləmirəm. Düşünmürəm ki, onlar hökumətə zərbə vurmaq üçün öz fəaliyyətlərində diversiyalara əl atacaqlar, itaətsizlik göstərəcəklər, müəyyən separatizm olacaq. Yaxud Qərb nəzəriyyəsinə uyğun hərəkət edəcəklər ki, siyasi rəqib düşərgə olduğundan, onların özünün hakimiyyətə gəlməsi naminə verilmiş bir-iki vəzifəni belə iqtidar əleyhinə istifadə edəcəklər kimi hərəkətləri güman etmirəm. Amma bu iki düşərgə arasında fərqlər var, qarşıdurma mövcuddur. Bu fonda hansısa vəzifələrdə müxalifətin təmsilçilərinin olacağını gözləmirəm".

❑ **Röya RƏFİYEVA**

# KXCP və AXP rəhbərliyi arasında mühüm görüş

**Dekabrın 23-də Klassik Xalq Cəbhəsi Partiyasının qərargahında Azərbaycan Xalq Partiyası və KXCP rəhbərlərinin görüşü keçirilib. AXP informasiya mərkəzindən musavat.com-a daxil olan məlumata görə, iki saat davam edən görüşdə partiyalar arasında imzalanması nəzərdə tutulan əməkdaşlıq müqaviləsi müzakirə edilib. Müqavilə layihəsi prinsipial olaraq bəyənilib. Bu ilin sonuna kimi müqavilənin imzalanması nəzərdə tutulur. Layihədə təşkilatların inteqrasiyası da daxil olmaqla "Siyasi partiyalar haqqında" Qanuna zidd olmayan bütün sahələrdə sıx əməkdaşlıq əlaqələrinin yaradılması, o cümlədən əməkdaşlıq mexanizmi kimi partiyalararası siyasi məsləhət şurasının formalaşdırılması əksini tapıb.**

❑ **E.SEYİDAĞA**

# İş başına bu günü 5 il öncədən görənlər gəlməlidir



**Xalid KAZIMLI**

**Bu cür varlı-pullu ölkənin iqtisadi böhrandan çıxmasını istəyirlərsə, dövlət başçısı iqtidar komandasının iqtisadi manqasını dəyişməlidir.**

Bu ölkədə indiyə qədər iqtisadi-maliyyə sferasında çalışan rəhbər işçilər, məsləhət verən müşavirlər, proqnozlarla çıxış edən analitiklər, bir sözlə, dövlətin iqtisadi siyasətini həyata keçirənlərin hamısı işdən kənarlaşdırılmalıdır.

Ona görə ki, onlar son 10-15 ildə ölkəyə gəlmiş yüz milyardlarla dollar həcmində pul-paradan səmərəli istifadə edərək normal iqtisadiyyat qura bilməyiblər, dövləti qüdrətləndirəcək proqramlar tərtib etməyiblər, təşəbbüslər göstərməyiblər, layihələr işləməyiblər.

Hamısı oturub milyardların necə mənimsənilməsinə tamaşa ediblər, boş-boş layihələr fikirləşiblər, talanan milyonlardan öz paylarını götürüblər, ona qane olub oturublar.

Hamısı güman edib ki, neftin qiyməti uzun illər 100 dollardan aşağı düşməyəcək, hətta 150-200 dollara qalxacaq, ölkəyə dollar, avro sel kimi axacaq. Əsas düşüncə belə olub: İqtisadi təşəbbüslərə, plan-proqramlara nə ehtiyac var, Allah başımızdan tökür, beynimizi niyə xarab edək?

Milyardların səmərəsiz xərclənməsinə, mənimsənilməsinə etiraz edən olmayıb. Bu illər ərzində ölkədə yüzlərlə mənasız beynəlxalq simpoziumlar, idman, musiqi yarışları, konfranslar, forumlar və sair və ilaxır tədbirlər keçirilib, hamısına da ətək-ətək pul xərclənib, amma iqtisadi sferanın başbilənləri irəli durub deməyiblər ki, bunlar rentabelli deyil, astarı üzündən baha çıxır, quru ad-san, müsbət reputasiya üçün bu qədər vəsait sərf etməyə dəyməz.

Quru şöhrət üçün Madridin "Atletiko" klubunun oyunçularının formasında "Land of Fire - Azerbaijan" yazılmasına da ehtiyac yox idi. Birdəfəlik bilmək lazım idi ki, bu üsulla Avropada tanınmaq, qoca qitənin sevimlisi olmaq mümkün deyil. İllərdir Qətər və BƏƏ kimi ölkələr bu üsuldan, bu reklamdan istifadə edirlər, hansı biri parlayıb dünya sevimlisi olub?

Ölkəni sevimli etmək üçün idman və musiqi yarışmalarının qalibi olmaq kifayət etmir. Bunu iqtisadçılar deməliydi ki, bir ölkəni sevimli, parlaq etmək üçün onun əhalisinin rifahını və mədəni səviyyəsinin yüksək olmasını təmin etmək, bir də daxili siyasətindəki problemləri (azad seçkilər, insan haqlarına riayət, haqq-ədalətin bərpası və s.) həll etmək kifayətdir.

Əgər bir ölkədə insanları siyasi motivlərlə həbsə atırlarsa, idmançılar 40 dəst olimpiya medalı qazanıb gəlsələr də ölkə sevimli olmayacaqdı. Dünya birliyi hansısa ölkəyə idman və musiqi yarışmalarının qaliblərinin çoxluğuna görə rəğbət bəsləmir, o ölkənin nə dərəcədə azad və demokratik olmasına baxır.

Çox təəssüf ki, dünyanı mat qoyan, region ölkələrini (Rusiya, İran) qıcıqlandıran, bəzi qonşularda (Ermənistan, Gürcüstan) həsəd yaradan total dollarsovurma kampaniyasına dur deyən yox idi.

Hələ də yoxdur. Sabah neftin qiyməti yenidən 100 dollara qalxsa, yenə ölkəmizə xarici valyuta sel kimi gəlsə, yenə də əski yola müraciət ediləcək.

Çünki bu ölkənin iqtisadiyyatını qurmalı olan iqtisadçılar komandası yoxdur, ayrı-ayrı dərin zəkalı iqtisadçılar ola bilər, amma onlar həm təşəbbüskar deyillər, həm də iqtidar komandasının hərbi-siyasi qanadının, oliqarxlar çetesinin basqısı altındadırlar.

Ona görə də dövlət başçısı hələ 5-6 il öncədən ölkənin, iqtisadiyyatımızın, manatın bu günlərini görərək dəqiq proqnozlarla çıxış edən gənc iqtisadçılar liqasını iş başına gətirməlidir, onlara səlahiyyət verməlidir ki, çoxşaxəli iqtisadiyyat qurulması üçün ortalığa proqramlar qoysunlar.

İqtisadiyyat dəqiq elmdir - fəlsəfə, tarix, ədəbiyyat deyil ki, burada fərqli prizmalardan yanaşmalar, arqumentləşdirmələr olsun. İqtisadiyyatda ikinin üstünə iki gələndə mütləq dörd edir, dörddən də iki çıxanda mütləq iki qalır. Ancaq bizimkilər dörddən dörd çıxanda ortada 0 qalacağını bilmirdilər.

Çox şükür ki, ölkəmizdə gənc (əslindəsə artıq ortayaşlı) iqtisadçılar var. Onlar Cənubi Koreyadan, Malayziyadan Çiliyə, Kanadaya qədər onlarla ölkənin iqtisadi inkişafını öyrəniblər, bütün iqtisadi təmayülləri, ölkələrin öz resurslarından, potensiallarından necə istifadə edərək böhrandan çıxmalarını incələyiblər, bilirlər.

Ölkənin iqtisadi sahəsini bu işi bilən adamlara, biləndarlara etibar etmək lazımdır. Başqa yolu yoxdur.

Ancaq məsələnin başqa bir tərəfi də var: mövcud siyasi komanda, oliqarxlar güruhu bu ölkədə hansısa iqtisadi islahatlara imkan verəcəkmi? Bax, burası daha qəliz məsələdir.

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015



# Sür, əmioğlu...

Zamin HACI
zaminhaci@gmail.com

**Dünənki yazımda devalvasiyadan bəzi çıxış yollarını göstərdim, indi mövzunu davam etdirirəm. İlk növbədə biz bahalı idman proyektlərindən imtina eləməliyik, örnək üçün, yaxından gələn Formula-1 və bir qədər uzaqdan tozanağı görünən İslam oyunları yarışlarını rədd edək getsin. Məncə, idmançılar, şəhərimizin nəğməli qonaqları da bizi anlayışla qarşılayarlar. Nə edə bilərik, neftin qiyməti düşdü, daha xarici idmançılara verməyə kürü yaxmacı yoxdur.**

Ancaq yuxarıda yazdıqlarımın patriotizmdən nə qədər uzaq olduğunu anlayıram. Yarışlar olmasa, bəs biz respublikamızı dünyada necə tanıdarıq? Azərbaycan manatının ölən gününü hər bir kəs görməlidir. Yarışları ləğv etmək yox, daha da gücləndirmək lazımdır. Özü də bunu xarici telekanallarda (CNN, "Evronyus" və sairə - təcrübəmiz var) belə reklam etməliyik: "Gəlin Azərbaycana, yeməyə çörək tapmayan xalqın yüksək sürətli avtomobilləri alqışlamasına baxın! Devalvasiyanın növbəti dövrəsində təkər altında neçə müəllim qalacaq - bir azdan!" Vallah, ac adamların necə sevinməsi dünyada böyük maraq oyadacaqdır.

İslam oyunlarına qədər, inşallah, sağ qalarıq, ona da bir uyğun reklam kampaniyası qoşarıq. Vətəni düşünmək borcumuzdur.

Növbəti tədbir olaraq deputatların maaşı artırılmalıdır. Xalq jmıx da yeyə bilər, deputatlar isə acqarına qanun qayıra bilməzlər. İstəyirsiniz biz qanunsuz qalaq, ölkəmiz təzədən anarxiya olsun?

Mətbuat Şurasının sədri, deputat Əflatun müəllimdən də xahiş edirik "Blumberq" agentliyini təcili "reket KİV"lərin qara dəftərinə salsın. Eşitdim srağagün verilişdə Azərbaycan manatını "ilin ən bədbəxt valyutası" adlandırıblar. Bədbəxt özünüzsünüz ki, belə deputatxananız yoxdur. Biz sizi Göygölə buraxmarıq.

"Buraxmaq" demişkən, dünən Milli Məclisə təzə sənəd daxil olub. Bildiyiniz kimi, amerikalılar bizim hakimiyyətə sanksiya qoymağa hazırlaşır, bu sənədi cavab atəşi saymaq olar. Düşmənin Kapitoli yüksəkliyini ələ keçirən - Azərbaycanın ABŞ-a qarşı sanksiyalarını nəzərdə tutan qanun layihəsinin müəllifi deputat Rövşən Rzayevdir *(Deyirlər azı 15 ildir deputatdır, mən indi xəbər tutdum - gör necə kəşfiyyatçı oğullar kol dibində yatır!)*

Dəhşət qanundur. Bundan sonra dollar çezməsə yaxşıdır. Bəlkə də Obama intihar elədi. Ən azı Riçard Gir dəli olacaq, girməyə yer axtaracaq. Misal üçün, Rövşən müəllim sənəddə yazıb ki, Amerikada zəncilərı sıxışdırırlar. Zəncini prezident qoyan ölkə haqda belə yazmaq təxminən Səyavuş Novruzovun deputat olduğu ölkədə "Meşələri qırırlar" iddiası irəli sürmək kimi bir şeydir. Barıtı bir az çox eləyib.

Rövşən müəllim Amerikanın anasını hərtərəfli ağladıb. Seçki saxtakarlığından tutmuş Naqasakiyə atom bombası atılmasına, Əfqanıstanda "şey" əkməkdən Castin Biberin insanlara işgəncə verən səsinə qədər hər şey hərtərəfli əhatə olunub, yankilərin özlərinə və dünyaya vurduqları ziyanlar detallı göstərilib. Axırda isə bunlara əməl olunmayınca, qüsurlar aradan qaldırılmayınca ABŞ hakimiyyəti nümayəndələrinin və ailə üzvlərinin Azərbaycana girməsi qadağan edilir.

Vallah, çox ağıllı qərardır. Doğrudan da ola bilərdi gələn yay Barak Obama özü Nabrana gələ bilməsin, arvadı Mişel xanımı və qızları Maliya ilə Saşanı qayınanası Merian xanıma qoşub göndərsin. Ta bunun nəyi sanksiya oldu? Gərəkdir amerikalılar belə yarıtmaz hakimiyyətin zülmünü çəksinlər. Bir-iki il Zirə pomidoru yeyə bilməsinlər. Göyçay narına həsrət qalsınlar. Nardaran pirinə ziyarətdən qalsınlar.

Hətta mən deyərdim daha kəskin olsun deyə köhnə tarixlə viza qadağası da qoya bilərik. Axı 2000-ci illərin ortalarında Barak Obama hələ konqresmen ikən Bakıya gəlmişdi. İndi biz o vizanı ləğv eləsək, Barak Obamanın ölkəmizə qanunsuz girməsi iddiası ilə məhkəməyə müraciət etmək mümkündür. Vallah. Ta başlamışıq, o qardaş deyən kimi: "Sür, əmioğlu, sür".

# Prezidentdən islahatlar anonsu: növbə gömrüyə çatdı

# İlham Əliyevdən sensasion manat açıqlaması - səbəb Qərb və Rusiya davasıdır




**Dekabrın 21-də manatın 47 faizli devalvasiyası ölkədə ciddi narazılıq və narahat doğurub. Bayram ərəfəsi bütün zəruri ərzaq malları, tütün məmulatları, dərmanların qiyməti 50 faizədək bahalaşıb. Milli Bank rəhbəri Elman Rüstəmov və digər rəsmi şəxslər manatın devalvasiyası ilə bağlı mövqe bildirsələr də, hamının diqqəti dövlət başçısı İlham Əliyevə yönəlmişdi.**

## Dövlət başçısı "Neftin qiymətinin il ərzində birdən-birə 3 dəfə düşməsi düşünülmüş siyasətdir və məqsədi heç kim üçün sirr deyil" dedi; prezident antikrizis tədbirlərinin konturlarını açıqladı: "Bahalaşmaya yol verənlər cəzalanacaq, inhisarçılığa qarşı mübarizə aparılacaq; gömrük və vergi sistemində şəffaflıq təmin ediləcək"

**Prezident dekabrın 23-də Milli Olimpiya Komitəsində 2015-ci ilin yekunlarına həsr edilən mərasimində çıxışında deyib ki, neftin qiymətinin düşməsi Azərbaycanın gəlirlərinin, büdcə xərclərinin azalmasına, milli valyutanın məzənnəsinə də təsir edib:** "Manatın məzənnəsinin dəyişdirilməsinin əsas səbəbi neftin qiymətinin 3 dəfə düşməsidir. Yəni manatın məzənnəsinin dəyişdirilməsi qaçılmaz idi. Biz il ərzində çalışırdıq ki, maksimum dərəcədə bunun qarşısını alaq. Gözləyirik ki, neftin qiyməti sabitləşsin. Neftin qiyməti 50 dollar səviyyəsində sabitləşəndə biz bir qədər rahatlandıq ki, devalvasiyaya ehtiyac qalmayacaq".

**Prezident neftin qiymətinin 36 dollara düşdüyünü xatırladaraq ilk dəfə olaraq bu məsələdə dünyadakı siyasi və geopolitik mübarizənin rolu olduğunu deyib:** "ABŞ-da dollarla bağlı qəbul edilmiş son qərar da neftin qiymətinin düşməsinə xidmət edir. Burada digər geosiyasi amillər də var. Mən şəxsən hesab edirəm ki, neftin qiymətinin kəskin şəkildə düşməsinin iqtisadi əsasları yoxdur. Düzdür, dünya iqtisadiyyatı bir qədər tənəzzülə uğrayıb, templər bir qədər aşağı düşüb. Amma bu dərəcədə yox ki, neftin qiyməti il ərzində birdən-birə 3 dəfə düşsün. Mən şəxsən hesab edirəm ki, bu, düşünülmüş siyasətdir, bu siyasətin də məqsədi heç kim üçün sirr deyil. Sadəcə, Azərbaycan bu vəziyyətdən əziyyət çəkir".

Aydındır ki, prezident "neftin qiymətinin il ərzində birdən-birə 3 dəfə düşməsi düşünülmüş siyasətdir, bu siyasətin də məqsədi heç kim üçün sirr deyil" dedikdə ABŞ və Qərbin Rusiya ilə münasibətlərini nəzərdə tutur. İlham Əliyev konkret ad çəkməsə də, "bu siyasətin məqsədi heç kim üçün sirr deyil" deyərək, Qərbin neft amilindən istifadə edərək Rusiyanı çökdürmək istədiyinə açıq işarə vurub.

Qeyd edək ki, son devalvasiyadan sonra iqtidara əsas tənqidlərdən biri qeyri-neft sektorunun inkişaf etdirməməsi və manatın devalvasiyasının daha yumşaq aparmamasıdır.

İ.Əliyev bu vəziyyətdən Azərbaycanın əziyyət çəkməsi faktını qabardaraq, yaranmış böhranlı vəziyyəti faktiki xarici faktorlarla əlaqələndirib. Dövlət başçısı benzinin və digər yanacaq məhsullarının qiymətinin də artırıla biləcəyi *(və ya əksinə, endirilə biləcəyi)* barədə yayılmış xəbərlərə birbaşa toxunmayıb, amma kifayət qədər aydın şəkildə hökumətin bu məsələdə planını açıqlayıb. İ.Əliyev deyib ki, hökumət qarşısında yanacağın qiymətinin sabit saxlanılması ilə bağlı vəzifələr qoyulub. Bu o deməkdir ki, benzinin qiymətinin qalxacağı ilə bağlı xəbərlər real deyil, o cümlədən bəzi ölkələrdə olduğu kimi qiymətin endiriləcəyi də gözlənilmir.

Dövlət başçısı manatın məzənnəsi ilə bağlı qərarın fəsadlarını azaltmaq üçün mikroiqtisadi sabitliyin təmin edilməsi, inflyasiyanın minimal səviyyədə olması, ölkədə istehsal olunan ərzaq və tikinti materiallarının qiymətinin tənzimlənəcəyini söyləyib.

**Prezident əhalinin əsas narazılıq etdiyi bəzi işbazların qiyməti süni artırılması ilə bağlı problemdən də danışıb. O deyib ki, bahalaşmaya yol verənlər, möhtəkirliklə məşğul olanlara qarşı cəza tədbirləri görüləcək:** "Ölkədə biznes mühitinin daha da yaxşılaşdırılması, lisenziyalarla bağlı ciddi qərarlar qəbul olunub. İqtisadi-maliyyə sektorunda daha ciddi islahatlar aparılacaq. İqtisadi liberallaşma, inhisarçılığa qarşı mübarizə sahəsində tədbirlər görüləcək. Gömrük və vergi sistemində maksimum şəffaflıq təmin ediləcək".

***

Beləliklə, dövlət başçısının çıxışında üç mühüm xətt bunlardır: 1) Manatın devalvasiyasını ABŞ Mərkəzi Bankının (FES) dolların uçot dərəcəsini artırması və neft satışına qoyulan qadağanın aradan qaldırılması qaçılmaz edib; 2) Azərbaycan xarici güclərin, yəni Qərblə Rusiya arasındakı mübarizənin nəticələrindən əziyyət çəkir; 3) Azərbaycan iqtidarı yaranmış vəziyyətdən çıxış yolları arayır.

Məlumdur ki, Mərkəzi Bankın "üzən məzənnə" siyasətinə keçməsindən sonra prezident iqtisadiyyatın liberallaşmasına yönələn bir sıra mühüm fərmanlar imzalayıb. Bura biznes fəaliyyətləri üçün tələb olunan lisenziyaların sayının azaldılması, rüsumların aşağı salınması, habelə lisenziyaların verilməsində tam şəffaflığın təmin edilməsi daxildir. Məlumdur ki, yaranmış vəziyyətin sosial təlatümlər doğurmaması üçün biznesin, sahibkarlıq fəaliyyətinin qarşısında dayanan müxtəlif maneələrin aradan qaldırılması mühüm şərtdir.

İmzalanmış fərmanlar bu siyasətin həyata keçirilməsi istiqamətində atılmış vacib addımlardan biridir. Həmin fərmanlar sayəsində bir sıra mühüm sahələrdə *(tütün məmulatları, alkoqollu içkilər və etil spirtinin istehsalı, idxalı və satışı, neft və qaz məhsullarının satışı, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınması və turizm fəaliyyəti)* artıq müddətli lisenziya anlayışı olmayacaq-bütün lisenziyalar müddətsiz veriləcək. Eyni zamanda indiyədək verilmiş lisenziyalar müddətsiz lisenziyalarla əvəz olunacaq. Habelə lisenziyalaşdırılmış fəaliyyət növlərinin sayı azaldılır.

"Yeni Müsavat"a daxil olan məlumatlara görə, gözlənilir ki, iqtisadi yekunlarla bağlı adətən gələn ilin yanvarının ilk ongünlüyündə keçirilən Nazirlər Kabinetinin iclası bu dəfə ilin sonunda keçirilsin. Hökumətə yaxın mənbə deyib ki, iqtidar yaranmış vəziyyətin əhaliyə törətdiyi çətinliklərin fərqindədir və bir sıra preventiv tədbirlər planı hazırlanır. Prezident son çıxışında bunun bəzi konturlarını açıqlayıb. Söhbət iqtisadi-maliyyə sektorunda daha ciddi islahatlardan, iqtisadi liberallaşma, inhisarçılığa qarşı mübarizə sahəsində tədbirlərdən və ən mühümü, gömrük və vergi sistemində maksimum şəffaflıqdan gedir. Gömrük və vergi sistemində islahatlar sadalanan məsələlər içərisində ən vacibidir. Çünki dolların bahalaşdığı şəraitdə, təbii ki, bütün məhsulların qiymətləri artacaq, eyni zamanda gömrükdə iş adamlarından tələb olunan qeyri-rəsmi ödənişləri də bunun üzərinə gəldikdə, ölkədə qarşısıalınmaz bahalaşma yaranar. Hökumətdəki mənbələrin iddiasına görə, iş adamlarına öz firmaları vasitəsilə ölkəyə istənilən məhsulları, xüsusən ərzaq gətirməkdə sərbəstlik verilməsi planlaşdırılır. Yalnız dövlət rüsumları ödənəcək, Azərbaycana gətirilən məhsulların çeşidi ilə bağlı əvvəlki qadağalar isə birmənalı şəkildə aradan qaldırılacaq. Gömrük sistemində liberallaşdırılma aparılsa, yeni "ASAN xidmət" rejiminə keçilsə, ölkədə iqtisadi sektorda ciddi dəyişikliklər olar. Bu, gömrük sistemində monopoliyanın, büdcəyə əlavə vəsaitlərin daxil olması, idxal sektorunda rəqabət mühitinin artırılması və qiymətlərin minimuma endirilməsi deməkdir. Qeyri-rəsmi mənbələr deyir ki, gömrük mafiyası il ərzində sənədləşdirilməyən mallardan təxminən 5 milyard manat qazanır və bu kimi islahatlara müqavimət göstərə bilərlər. Amma hökumət üçün əvvəlki rahatlıq dövrü bitib və dəyişikliyə müqavimət iqtidara düşmənçilik deməkdir...

**"Yeni Müsavat"**

# Türkiyəyə xain zərbə - Dəmirdaş Moskvada Türkiyəni Rusiyanın ayağına verdi

## PKK yönlü partiyanın lideri təyyarə olayı məsələsində Kremlin yanında olduğunu bəyan elədi; daha bir partiya nümayəndəsini Moskvaya göndərdi; qardaş ölkə əleyhinə daxili düşmənlərlə xarici güclərin çulğalaşması prosesi başlayıb...



**Rusiyanın "Su-24" hərbi təyyarəsinin vurulmasından sonra Türkiyə-Rusiya münasibətlərinin kəskinləşməsi daxili və xarici türk düşmənlərinin hamısının əlinə fürsət verib. Gözlənildiyi kimi, bu fürsətdən ilk növbədə qardaş dövləti daxildən zəiflədib parçalamaq istəyən destruktiv və separatçı qüvvələr, PKK-yanlılar bəhrələnməyə başlayıb.**

Maraq qarşılıqlı olduğundan, təbii ki, Moskvanın da onlara müxtəlif yollarla dəstək verəcəyi və qucaq açacağı təbii idi. Artıq Türkiyə əleyhinə olan iç düşmənlərlə məkrli xarici güclərin çulğalaşması prosesi başlayıb. PKK-nın siyasi qanadlarından biri olan Xalqların Demokratik Partiyasının (HDP) sədri Səlahəddin Dəmirdaşın Moskva səfəri bu xüsusda ilk qaranquş sayıla bilər.

Özü də səfər elə bir vaxta təsadüf edir ki, Türkiyə dövləti bölgədə PKK-ya qarşı antiterror əməliyyatlarını, digər bu qəbildən təhlükəsizlik tədbirlərini şiddətləndirib, terrorçular və separatçılar ciddi itki verməkdədirlər.

**Belə bir fonda Səlahəddin Dəmirdaş dünən Rusiyada bu ölkənin rəsmi şəxsləri ilə görüşlər keçirib. Xarici işlər naziri Sergey Lavrovla görüşdə öncə o, indiki məqamda "Rusiya ilə əlaqələrə böyük önəm verdiklərini" bildirib.** "Hazırda Türkiyə-Rusiya münasibətlərinin kəskinləşdiyi dönəmi yaşayırıq. Həm də paralel surətdə elə bir zamanda ki, Yaxın Şərqdə çox mühüm qərarlar vermək lazımdır" - bildirib Dəmirdaş. "Biz siyasi partiyayıq və öz ölkəmizdə plüralizm uğrunda mübarizə aparırıq" deyən HDP sədrinin sözlərinə görə, partiya üçün Türkiyə-Rusiya münasibətləri mühüm önəm daşıyır. "Biz iki ölkə arasında əlaqələrin pozulmasına səbəb olmuş situasiyadan çox məyus olduq və dərhal bəyan elədik ki, öz qonşularımızla münasibətlərin pozulması mövqeyində deyilik. Biz Rusiya təyyarəsi vurulanda hökumətin hərəkətlərini pislədik".

Göründüyü kimi, HDP başçısı faktiki surətdə Türkiyəni Moskvada pisləməklə, Putinin haqsız mövqeyinə haqq qazandırmaqla qardaş ölkəni Rusiyanın, Putinin ayağına verib. Bununla da Türkiyənin əsas siyasi elitasının və toplumunun məsələdəki məlum mövqeyinə diametral əks mövqe sərgiləyib, lap dəqiqi, Türkiyəyə, türk xalqına arxadan zərbı vurub, xain hərəkət edib.

Putinə də elə bu lazımdır - Türkiyə dövlətinin insidentə görə üzr istəyib kiçilməsinə nail olmaq üçün daxildə siyasi zəmin yaratmaq, bundan ötrü AKP hökuməti əleyhinə radikal-terrorçu, separatçı qüvvələrin hamısından, potensial narazı qüvvələrdən maksimum yararlanmaq.

***

Bu arada bəlli olub ki, Türkiyənin Vətən Partiyasının nümayəndə heyəti sabah Rusiyanın paytaxtı Moskvaya yola düşəcək. Məlumatlara görə, səfər çərçivəsində Türkiyənin PKK ilə mübarizəsi, gərginləşən Türkiyə-Rusiya münasibətləri və bölgədəki olaylar müzakirə olunacaq. 23-26 dekabr tarixlərində Moskvada rəsmilərlə yüksək səviyyəli görüşlər planlaşdırılıb.

Əlbəttə ki, Moskvaya səfərlər eləmək olar. Hələ ki iki ölkə arasında nə diplomatik münasibətlər dondurulub, səfirlər geri çağırılıb, nə də viza rejimi götürülüb - yanvarın 1-nə də hələ var. Ancaq Rusiyaya müstəsna olaraq Türkiyənin köklü maraqlarını gözləməklə, onu Putin Rusiyasının ayağına verməmək şərti ilə getmək olar, iki ölkə münasibətlərinin normal məcraya düşməsi üçün heç bir məkrli məqsəd güdmədən çalışmaq niyyəti ilə səfər etmək olar.

Onsuz da Türkiyə xalqı kimin kim olduğunu yaxşı bilir. Qaradan artıq boya olmadığının da o fərqindədir. Ancaq bütövlükdə indiki situasiyada Rusiyanı özü üçün münsif, müttəfiq qismində seçən hər hansı qüvvənin Türkiyəyə münasibətdə bədniyyətli olduğu, Türkiyə maraqlarına zərrəcə fayda verməndiyi gün kimi aydındır.

Sual da burdan doğur ki, Moskvaya səfər edib orada HDP-nin nümayəndəliyini açmaq ideyası nədən Səlahəddin Dəmirdaşın yadına noyabrın 24-dən öncə - "Su-24" vurulandan qabaq düşməyib?

❑ **Siyasət şöbəsi**

# SOCAR: "Avropa zavodları bizdən neft almır, vəziyyət mürəkkəbdir"

## "Asiya bazarlarına daha çox neft satmağa başlamışıq"

**Azərbaycanın "Azeri Light" markalı nefti hazırda dünya bazarlarında hökm sürən mürəkkəb situasiyaya görə faktiki olaraq premiyasız, yəni daha ucuz neft markaları ilə eyni qiymətə satılır.**

Bu barədə SOCAR-dakı mənbə "Fineko" agentliyinə (abc.az) bildirib.

Mənbənin bildirdiyinə görə, "Azeri Light" neftinin satışı FOB şərti əsasında hazırda əsasən sıfır premiya ilə aparılır. Lakin bəzi partiyaları hər halda diskontla reallaşdırmaq mümkün olub.

FOB şərtinə əsasən satıcı malı limana çatdırmalı və alıcının tankerinə yükləməlidir. Bu zaman yükün limana aparılması və yüklənməsi xərci satıcının üzərinə düşür.

"Son iki ayda bizim premiya barelə görə 3 dollardan sıfır dollara düşüb. Biz minusla işləməməyə çalışırıq və təchizatı diversifikasiya edirik. Konkret olaraq Asiya bazarlarına daha çox neft satmağa başlamışıq"- mənbə deyib.




Situasiya həm də ona görə qəlizdir ki, dünya bazarlarında neftin ucuzlaşmasına görə Avropanın əksər neftayırma zavodları neft emalının maya dəyərini aşağı salır və bu səbəbdən daha ucuz, kükürdlü neft almağa üstünlük verir. "Azeri Light" kimi bahalı və "yüngül" neft növlərini almır.

"Bununla belə, SOCAR-ın "Azeri Light" markalı nefti dünyanın bir sıra şirkətlərinə satmaqla bağlı uzunmüddətli, qarantiya altına alınmış müqavilələri var. Ona görə də indiki situasiya o qədər də narahatlıq doğurmur"- mənbə deyib.

Virtualaz.org saytı xatırladır ki, Avropa bazarlarında Azərbaycan neftinin alıcılarının azalması haqda bir neçə həftə əvvəl "Reuters" agentliyi də xəbər yaymışdı.

Xəbərdə deyilirdi ki, Səudiyyə Ərəbistanı Avropa bazarına ucuz neft çıxarmağa başlayıb. Nəticədə "Brent" və "Azeri Light" kimi nisbətən bahalı neft növlərinin satışı azalıb.

"Azərbaycanın Avropanın neft emalı zavodlarına neft satışı ilə bağlı heç bir problemi yoxdur". Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

"Azeri Light" markalı neftin satışı ilə bağlı heç bir problemimiz yoxdur. SOCAR neft satışını bazar konyunkturasına uyğun formalaşan qiymətlər əsasında həyata keçirir.

Ötən illər ərzində SOCAR "Azeri Light" neftinin satış bazarını kifayət qədər yaxşı inkişaf etdirə bilib.

Müxtəlif regionlardan olan istehlakçılar daimi əsaslarla Azərbaycan neftini almağa üstünlük verirlər", - deyə SOCAR-dan bildirilib.

# Hökumətin Yeni il hədiyyəsi...



**Hüseynbala SƏLİMOV**

**İndi elə bir məsələ tapmaq mümkün deyil ki, manatın kursunun aşağı düşməsi qədər müzakirə və maraq doğursun... İnsanlar indi yalnız bunu müzakirə edir, bu haqda danışırlar. Bəziləri isə müzakirələrə, mübahisələrə vaxt sərf etməyi lüzumsuz sayır, az qala mağazaları evlərinə daşımağa cəhd edirlər...**

Güman ki, bunun nə qədər məntiqsiz olduğunu deməyə elə də ehtiyac yoxdur - tutaq ki, bir ay heç nə almadıq və bir gün aldığımızı bir ay istehlak etdik. Sonra nə olacaq? Bir aydan sonra nə baş verəcək? Təəssüf ki, panika insanları məntiqsiz qərarlar qəbul etməyə sövq edir...

Bəli, hökumət yenə də qəfil qərar qəbul etdi. Əvvəlcə, özü də dəfələrlə insanları arxayın etdilər ki, manatın kursunun aşağı düşməsi gözlənilmir. Gəl, bir günün içində əsl panika yaratdılar...

Yox, demirik ki, hökumət bu haqda əvvəlcədən xəbər verməli idi. Yox, belə olmur - bu cür maliyyə qərarları elə qəfil qəbul edilir. İrəlicədən deyilsə, daha böyük panika və çaşqınlıq yaranar...

Amma bir məsələ var - hökumət bunu tədricən də edə bilərdi. Fəqət, nə etmək olar? İndi bu haqda danışmaq yersizdir - bazar özü manatın kursunu müəyyən etməlidir. Güman ki, müəyyən də edəcək. Ümid edək ki, bazar bizi hökumətdən daha az təəccübləndirəcək...

İnsanları indi ən çox narahat edən odur ki, 90-cı illərin əvvəlindəki vəziyyət qayıda bilərmi? Görünür, o vaxtın ağrı və acıları hələ insanların canından çıxmayıb. Güman və ən başlıcası isə ümid edirik ki, vəziyyət o vaxtlardakı tək dramatik olmayacaq...

Bəli, o vaxt bazar iqtisadiyyatı yenicə oturuşurdu. İndi isə nəsə var, bazar əsasən tələb və təkliflə tənzimlənir. Təəssüf doğuran odur ki, neft dollarlarının ölkəyə axını dövləti iqtisadiyyata daha çox müdaxilə etməyə sövq etdi...

Bu müdaxilələr isə çox vaxt yaxşı nəticə yaratmır, bir növ akvarium effekti yaradır - insanlar bazar münasibətlərindən yadırğayırlar. Ona görə də bir az şok olacağı istisna deyil...

Ən pisi isə odur ki, neftin qiyməti düşməkdə davam edir. Onun yaxın dövrlərdə qalxacağına elə bir ümid yoxdur - OPEK hasilatı azaltmaq fikrində deyil, İran və ABŞ da bu tərəfdən bazara girməyə hazırlaşırlar...

Elə bu səbəbdən də kəmərləri bir az çəkmək lazım gələcək. Başqa yol yoxdur...

Həm də indi müəyyən həcmdə qeyri-neft sektoru var. Burada bir məsələni də qeyd etmək istərdik. Hökumət sanki qeyri-neft gəlirlərinin artırılmasının optimal yolunu tapıb - elə bir gün olmur ki, cərimələrin artırılması haqqında xəbərlər eşidilməsin...

Qərəz, görək, nə olur? Əsas odur ki, ölkədə siyasi sabitlik var. Çətin iqtisadi durum dövründə bu, heç də əhəmiyyətsiz məsələ deyil. Başqa ölkələrdə belə dövrlərdə müxalifət və parlament hökumət üçün çox problem yaradır. Bizdə isə faktiki olaraq nə güclü müxalifət, nə də plüralist parlament var. Ona görə də hökumət qollarını çırmalayıb işə başlaya bilər...

Amma başlayacaqlarmı? Güman edirik ki, başlayarlar... Hər halda, ölkənin böhrana yuvarlanması onların da maraqlarına cavab vermir...

Bəli, 2016-cı il bir qədər çətin görünür. Amma gələn il ölkədə heç bir seçki-filan olmayacaq. Hətta olsaydı belə, bu, heç nəyi dəyişməyəcəkdi - biz seçki keçirməyi elə "öyrənmişik" ki, bundan bizə hər hansı xəta gəlməz...

Bəli, əsas odur ki, növbəti ildə siyasi sürprizlər olmasın. Dedik ki, daxildə bu tamam istisna olur. Amma xaricdən nəyinsə gəlməsi istisna deyil...

Bizi narahat edən ABŞ-da Azərbaycanla bağlı sanksiyaların qəbul edilə bilməsidir. Hələlik bununla bağlı bir sükut duyulur. Bəlkə heç nə baş verməyəcək? Nə demək olar, kaş belə olsun, çünki indiki məqamda, necə deyərlər, elə bir sanksiyamız çatışmırdı!..

Amma arxayınlaşmaq da ən doğru yol deyil. İndi bizi bu vaxta qədər arxayınlaşdıran əsas amil - neft dollarları azalmaq üzrədir. Böhran zamanı siyasi hakimiyyətin reytinqi aşağı düşür, onun mövqeləri laxlayır. Belə bir vaxtda siyasi islahatlara ehtiyac duyulur, çünki cəmiyyətdəki gərginlik özü üçün bir çıxış tapmalıdır...

Fəqət, indi qarşımızda daha çox iqtisadi problemlər dayanıb. Onların siyasi problemlərə transformasiya edib-etməməsi başqa söhbətin mövzusudur. Bir az əvvəldə dedik ki, indilik ölkədə ciddi siyasi sabitlik var. Deməli, hökumət rahat işləyə bilər. Hər halda, buna ümid edirik...

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015



# "Gələn ilin büdcəsi devalvasiya və inflyasiya büdcəsidir"

## İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi büdcə ilə bağlı rəyini açıqlayıb, 2016-cı il üçün gəlirlərin neftdən asılılığı böyükdür...

**İqtisadi Təşəbbüslərə Yardım İctimai Birliyi 2016-cı il dövlət büdcəsi proqnozu ilə bağlı rəyini açıqlayıb. Rəydə bildirilir ki, Azərbaycan iqtisadiyyatı artım perspektivləri baxımından çox mürəkkəb bir mərhələyə daxil olub: "Maliyyə və bank sferalarında, habelə valyuta bazarında gərginlik yüksəlib, ölkənin strateji valyuta ehtiyatları sürətlə azalmaqda davam edir".**

2006-cı ildən bəri ölkənin dövlət büdcəsinin gəlirlərinin yarıdan çoxu məhz birbaşa neft sektoru və neft gəlirləri hesabına formalaşdığından neft gəlirlərinin azalmasının dövlət büdcəsinin icrasına mənfi təsiri özünü dərhal elə carı (2015-ci) ilin dövlət büdcəsinə münasibətdə- göstərib: qanunla təsdiq edilmiş məbləğlə müqayisədə bu ilin sonuna büdcə gəlirlərinin 12,1 faiz (yaxud 2358,0 milyon manat), xərclərinin isə 16,0 faiz (yaxud 3370,0 milyon manat) az olması gözlənilir. Neft gəlirlərinin, deməli, həm də büdcə gəlirlərinin, kəskin azalması dövlətin maliyyə imkanlarını məhdudlaşdırmaqla hökumətin üzərinə düşən sosial-iqtisadi öhdəliklərin yerinə yetirilməsinə problemlər yaradır.

**Rəydə bildirilir ki, 2014-cü il ərzində Azərbaycan manatı 2 dəfə devalvasiyaya məruz qalıb və il ərzində ABŞ dollarına münasibətdə demək olar 2 dəfə dəyərini itirib:** "2016-cı ilin büdcə proqnozu ilə bağlı apadığımız təhlil və qiymətləndirmə göstərir ki, hələ bu da milli valyutanın dəyər itirməsinin son həddi deyil: ölkədə iqtisadi böhran və manatın dəyərsizləşməsi prosesi davam edəcək".

**Ekspertlər büdcə gəlirləri siyasəti üzrə müşahidə olunan əsas meylləri açıqlayıblar:** "2016-cı il üzrə hökumətin bəyan etdiyi büdcə-vergi siyasətində qeyri-neft gəlirlərinin büdcə gəlirlərində xüsusi çəkisinin artırılması, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin tədricən azaldılması, sadələşdirilmiş vergi sisteminin təkmilləşdirilməsi, vergi güzəştlərinin məhdudlaşdırılması yaxud ləğv edilməsi, nizamnamə fondunda və səhmlərində dövlətin payı olan müəssisələrdən dövlət büdcəsinə dividentlərin alınması, vergilər üzrə yığım faizinin artırılması, dövlət əmlakının özəlləşdirilməsindən dövlət büdcəsinə daxilolmaların artırılması, dövlət torpaqlarının icarəyə verilməsindən əldə olunan gəlirlərin büdcəyə daxilolma əmsalının artırılması kimi siyasət istiqamətləri nəzərdə tutulub. Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlərin məbləği əvvəlki illərlə müqayisədə ciddi ixtisar olunur. Amma transferin belə azaldılması heç də fonda yığımın artırılmasını təmin etmək üçün deyil, sadəcə, onun gəlirlərinin kəskin azalması ilə bağlıdır. Ölkənin neft gəlirlərinin azalmasının dövlət büdcəsinin qeyri-neft gəlirlərinin formalaşmasına təsiri 2016-cı ilin büdcə proqnozunda yetərincə nəzərə alınmayıb. Neft gəlirlərinin azalması həm dövlət sifarişlərinin (büdcə xərcləri vasitəsilə olan), həm də neft şirkətlərinin sifarişlərinin kəskin ixtisarı ilə nəticələnir ki, bu da belə sifarişlərlə işləyən təşkilatların gəlirlərinə, uyğun olaraq həm də onların dövlət büdcəsinə ödənişlərinə birbaşa təsir göstərir. Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar proqnozlaşdırılandan az ola bilər. Dövlət büdcəsinin tərkib hissəsi olan yerli gəlirlərin azalması proqnozlaşdırılır, lakin hökumətin büdcə izahatında bu azalmanın səbəbləri göstərilmir. Büdcə gəlirləri üzrə proqnozların büdcə layihəsi zərfində daha detallı təqdim edilməsi məqsədəuyğundur. Ölkənin neft gəlirləri belə kəskin azaldığı şəraitdə ölkənin büdcə gəlirlərinin formalaşmasında özəl və dövlət sektorunun, xüsusilə iri dövlət müəssisələrinin rolunu tam aydınlaşdırmaq vacibdir. Beləliklə, araşdırma göstərir ki, 2016-cı il üçün dövlət büdcəsinin proqnozlaşdırılan gəlirlərinin ölkənin neft gəlirlərindən asılılığı əhəmiyyətli dərəcədə böyükdür. Dünya neft bazarında baş verən proseslər və neftin qiyməti ilə bağlı söylənilən proqnozların əksəriyyəti gələn il neftin qiymətinin 30-35 ABŞ dolları altında olacağı yönündədir. Belə bir vəziyyətdə gələn il dövlət büdcəsinin cari öhdəliklərinin vaxtında və zəruri həcmlərdə yerinə yetirilməsini təmin edə biləcək qədər büdcəyə vəsait toplanması üçün ölkədə sahibkarlıq mühitinin yaxşılaşdırılması, məmur sahibkarlığının və inhisarçılığın aradan qaldırılması, rəqabətin və təşəbbüskarlığın stimullaşdırılması üçün ciddi tədbirlər görülməli, ölkəyə mal idxalına və ölkədən mal ixracına olan hər cür maneələr, xüsusilə bu sahədə olan inhisarçılıq və qanunsuz qadağalar təxirə salınmadan aradan qaldırılmalıdır".

Həmçinin bildirilir ki, hökumət prioritet elan etdiyi bəzi sahələr üzrə xərclərin ixtisarına getməyib. Belə ki, kənd təsərrüfatı istiqaməti üzrə xərclər demək olar ki, ötən ilin səviyyəsində saxlanılıb. Müdafiə bölməsi üzrə xərclərin isə 59,3 mln. manat və ya 3,3 % artırılması nəzərdə tutulur. Elm və təhsilin inkişafı xərcləri azaldılıb. Hökumətin qarşıdakı dövr üzrə büdcə investisiyaları ilə bağlı prioritetlərində sosial infrastrukturun qurulması əsas istiqamətlərdən biri kimi göstərilsə də, gələn il üçün büdcə investisiya planında ən kəskin ixtisar sosial sahələr üçün tətbiq edilib. İqtisadi inkişafın stimullaşdırılmasının hökumətin prioritetləri sırasında olduğu bəyan edilsə də, bu istiqamətdə xərclər azaldılıb. Belə ki, 2016-cı ildə iqtisadi fəaliyyət funksional bölməsi üzrə xərclər 91,3 mln. manat və ya 26,4% azaldılaraq 254 mln. manat səviyyəsində proqnozlaşdırılıb. Bu azalma bilavasitə İqtisadi İnkişaf Nazirliyi vasitəsilə hər il Sahibkarlığa Kömək Milli Fonduna güzəştli kreditlərin ayrılması üçün verilən vəsaitin dayandırılması ilə bağlıdır.

**Ekspert rəyində göstərilir ki, 2016-cı ilin dövlət büdcəsi proqnozunun təhlili və qiymətləndirilməsi əsasında qənaətlər var:** "Gələn ilin dövlət büdcəsi devalvasiya və inflyasiya büdcəsidir. 2015-ci il ərzində milli valyutanın ikinci devalvasiyası da 2016-cı il üçün proqnozlaşdırılan dövlət büdcəsinin icrasında gözlənilən problemləri aradan qaldıra bilməyəcək. Manatın bu və bundan sonrakı dəyərsizləşməsi ölkəyə daxil olan neft gəlirlərinin manat ifadəsində artımını təmin etsə də, ölkə iqtisadiyyatında böhran dərinləşməkdə davam edəcək, əhalinin sosial vəziyyəti, biznesin və bank sektorunun durumu daha da ağırlaşacaq".

**Rəydə həmçinin təkliflər də var:** "ARDNF-dən dövlət büdcəsinə transferlər üzrə limit tətbiqinə başlanılsın, həmçinin neft və qaz gəlirlərinin uzunmüddətli istifadə prinsipinə (gəlirlərin azı 25 faizinin yığıma yönəldilməsi) əməl olunsun. Dövlət Neft Şirkəti və digər iri dövlət şirkətləri üzrə vergi proqnozları tədiyə növləri üzrə açıqlanması təmin edilsin. Özəl və dövlət sektoru üzrə büdcə daxilolmalarının proqnozu tədiyyə növləri üzrə açıqlansın. Dövlət xarici borcunun sürətli artımının qarşısı alınsın, xüsusilə dövlət şirkətlərinin dövlət zəmanəti ilə xarici kreditlər cəlb etmələrinə sərt məhdudiyyətlər müəyyən edilsin və sair".

❑ RÖYA

# Bankların yarısı bağlanacaq...

## Ekspertlər bildirirlər ki, ikinci devalvasiya bank sisteminə ağır başa gələcək...

**Ölkədə baş verən ikinci devalvasiya "şoku" bankların acınacaqlı durumunu və bağlanma təhlükəsini bir daha ortaya çıxardı. İlin əvvəlində baş verən birinci devalvasiyanın təsirindən özünə gələ bilməyən bankların ikinci devalvasiyadan sağ çıxma ehtimalı azdır. Ekspertlər bildirirlər ki, bankların böyük əksəriyyəti 2016-cı ildən "sağ çıxmayacaq".**

**Ekspert Natiq Cəfərli** musavat.com-a açıqlamasında bildirib ki, devalvasiyadan ən böyük zərbə bank sisteminə dəyib: "Hətta birinci devalvasiyanı bank sistemi hələ həll edib problemlərdən qurtara bilməmişdi. İkinci, növbəti, daha kəskin, daha ağır devalvasiya bank sistemini çökdürəcək. Azərbaycanda fəaliyyət göstərən 40-dan yuxarı bankın ən azından yarısında ciddi problemlər yaşanacaq. İyirmidən artıq bankın ya bağlanması, ya birləşməsi gündəmə gələcək. Gələn ilin əvvəlində artıq biz bunu müşahidə edəcəyik. Bu problemlər ilk növbədə problemli kreditlərin artması ilə bağlı olacaq. Problemli kreditlər həddindən artıq çoxalacaq. Bu geri dönməyən kreditlərin artması bank portfelinin vəziyyətinə ciddi təsir göstərəcək. Onu da nəzərə almaq lazımdır ki, bankların xarici kreditorlar qarşısında valyuta ilə böyük öhdəlikləri, borcları var. Onların da qaytarılmasında ciddi problem yaşanacaq. Bankların aldıqları kreditin üzərinə bir il ərzində təqribən özü qədər faiz gəldi. Ona görə də bank sistemində vəziyyət çox ağır olacaq. Gələn ildən kəskin vəziyyətin məhz bank sektorunda olması, ciddi ixtisarların olması, bankların bağlanması, defolt elan olunması və yaxud da böyük banklar tərəfindən kiçik bankların ən yaxşı halda udulması prosesinin şahidi olacağıq. Bank sektorunda işləyənlərin böyük əksəriyyəti iş yerini itirəcək".

Qeyd edək ki, ölkədə fəaliyyət göstərən bəzi kommersiya bankları həm manat, həm də dollar kreditləşməsini müvəqqəti dayandırıb. Kredit verilişinin dayandırılması əsasən istehlak kreditlərinə aiddir və müvəqqəti xarakter daşıyır. Həmin banklar kreditləşmənin qısa müddətdə, maksimum bu həftə ərzində bərpa olunacağını bildirib. İstehlak kreditləşməsində fəal olan banklar "Bank of Baku" ASC, "Unibank" ASC, "Bank Respublika" ASC kreditləşməni müvəqqəti olaraq dayandıranlar siyahısındadır. Banklardan bildirilib ki, kredit məhsullarının satışı cari vəziyyətlə əlaqədar olaraq müvafiq təhlil işlərinin aparılması məqsədilə müvəqqəti olaraq dayandırılıb. Təhlil prosesinin bir neçə gün davam edəcəyi gözlənilir. "Expressbank" ASC-dən isə kreditlərin taleyi ilə bağlı bu gün keçirilən iclasdan sonra qərarın açıqlanacağı bildirilib. Bununla yanaşı, "Dəmirbank" ASC, "Bank VTB (Azerbaijan)" ASC, "Kapital Bank" ASC, "Azər-Türk Bank" ASC kreditləşməni davam etdirir. "Kapital Bank" kreditləri yalnız manatla, "Azər-Türk Bank" dollarla, digərləri isə həm manat, həm də dollarla ayırır. Buna baxmayaraq, kreditləşməni davam etdirən banklarda proses məhdudlaşdırılıb.

**Ekspert Vüqar Bayramov isə bildirib ki, bu dəfə də devalvasiyadan ən çox zərər çəkən sahə bank sahəsi oldu:** "Mərkəzi Bank manatın məzənnəsinin aşağı düşməsinin bank sisteminə təsirlərinin minimuma düşməsi üçün addımlar atmalıdır. Manatın ucuzlaşması daha çox dollarla kredit götürən vətəndaşların ödəmə qabiliyyətinə təsir göstərəcək. Bu da problemli kreditlərin daha da artmasına səbəb olacaq. Biz nəzərə alsaq ki, 21 fevraldan öncə dollarla kredit götürən vətəndaşların ödəyəcəyi məbləğin manatla ifadəsində təqribən iki dəfəyə yaxın, 21 fevraldan sonra kredit götürən vətəndaşların manat ifadəsində xərci isə 50 faizə yaxın artıb. Bu, o deməkdir ki, xarici valyuta ilə, xüsusilə də dollarla kredit götürən vətəndaşların ödəmə qabiliyyəti minimuma düşüb. Onlar öz kreditlərini ödəməkdə çətinlik çəkəcəklər. Bu baxımdan, Mərkəzi Bankın konkret addımlar artmasına ehtiyac var".

**Ekspertin sözlərinə görə, indiki halda, Mərkəzi Bank ya dollarla verilən kreditlər üzrə yaranan xərcin bir hissəsini kompensasiya etməlidir, ya da Rusiyada olduğu kimi güzəşt müddəti tətbiq etməlidir ki, vətəndaşlar dollarla götürdükləri kreditləri ödəyə bilsinlər:** "Xərclərin kompensasiyası zamanı Mərkəzi Bank xərclərin bir hissəsini öz üzərinə götürməlidir ki, vətəndaş üçün ağırlıq yaratmasın. Digər məqam güzəşt müddətinin müəyyənləşdirilməsi və bu müddət ərzində vətəndaşlara öz öhdəliklərinin yerinə yetirilməsi imkanının tanınmasıdır".

❑ Röya RƏFİYEVA





# Mağazalarda bahalaşma tüğyan edir; bəzi ərzaq malları yoxa çıxıb

## Siqaret azı 70 faiz bahalaşıb, yumurta tapılmır, çörəyin də qiyməti artırıldı

**Mərkəzi Bankın qərarı ilə dekabrın 21-də manatın devalvasiyaya uğramasından sonra marketlərdə qiymətlərin bahalaşması bütün məhsullarda müşahidə olunur. Bahalaşma yerli məhsullarda 20-30, idxal olunan mallarda isə 40-50 faiz arasında müşahidə olunur.**

Musavat.com-un əməkdaşının dekabrın 23-də paytaxt Bakıda bir neçə mağazada apardığı müşahidələr zamanı məlum olub ki, hazırda əksər mağazalarda ərzaq mallarının qıtlığı müşahidə olunmur. Yalnız siqaret və yumurtadan başqa.

Yumurta qıtlığı böyük mağazalar şəbəkəsində belə yaşanır. Satışda olan yumurtanın hazırkı qiyməti 16-19 qəpik arasında dəyişir. Yumurtanın qiymətində 25-30 faiz bahalaşma var.

Azərbaycan Quşçular Cəmiyyətinin sədri Aydın Vəliyev qiymət artımını quşçuluq müəssisələrində istehsal üçün lazım olan bütün xammalın, avadanlığın xaricdən gətirilməsi ilə əlaqələndirib. A.Vəliyev quşçuluq müəssəsələrində istifadə olunan yemin 80-85 faizinin xaricdən gətirildiyini və bu səbəbdən də qiymət artımının qaçılmaz olduğunu qeyd edib.

Bazarda ən çox satılan mallardan olan siqaret və tütün məmulatlarının qiymətində isə 50 faizdən çox artım müşahidə olunur. 1,30 manata satılan "West"in indiki qiyməti 2 manatdır. 2,30 manat olan "Kent 4"ün indiki satış qiyməti 3,30 manatdır. Və digər siqaretlərin qiyməti də 50-70 faiz cavarında bahalaşıb.

Un məmulatlarının da satışında qiymətlər dəyişib. Əvvəlcə onu qeyd edək ki, unun bir kisəsinin qiyməti devalvasiyadan əvvəl 18-19 manat arasında dəyişirdi. İndiki qiymət isə 25-27 manatdır. Artıq bu gündən marketlərdə çörəyin qiyməti və çəkisi dəyişib. Qiyməti dəyişməyən çörəyin çəkisi azalıb. Çəkisi dəyişməyən çörəyin isə qiymətində artım müşahidə olunur.

Marketlərdə 500 qramlıq çörəyin çəkisi 50 qəpikdir. Bu, qiymət bahalaşmasından sonrakı qiymətdir. 33-35 qəpiyə olan çörəyin çəkisi isə 400-420 qramdır.

Ölkə bazarında böyük pay sahibi olan "Azərsun" Holdinq də artıq qiymət artımının 20-30 faiz olması haqda qərar qəbul edib. Dekabrın 22-dən etibarən "Azərsun" mallarını yeni qiymətlərlə alıcılara təqdim edir. "Bazar Store" mağazalar şəbəkəsində olarkən bunun şahidi olduq. Holdinqin istehsalı olan bütün ərzaq mallarının qiyməti bahalaşıb. Onu da qeyd etmək lazımdır ki, hazırda bazarda ən az bahalaşma müşahidə olunan mallar "Azərsun"undur.

Marketlərdə devalvasiyanın ilk günündən fərqli olaraq, heç bir izdiham, alıcı sıxlığı müşahidə olunmur. Marketlərin vitrinlərində yeni qiymətlərlə istənilən maldan tapmaq mümkündür.

Devalvasiyadan sonra meyvə və tərəvəz məhsullarının da qiymətində artım az da olsa, nəzərə çarpır. Hələ ki yerli ət və ət məhsullarının qiyməti bahalaşmayıb. Mal ətinin 1 kiloqramının qiyməti hazırda 6,50 manat - 7 manat arasında dəyişir.

Ən yüksək qiymət artımı isə məişət malları bazarında qeydə alınır. Elektron malların əsas hissəsinin xaricdən gətirilməsi bahalaşmanı da qaçılmaz edib. Elektron malların qiymətindəki bahalaşma 50 faizə qədərdir.

Ən çox satışı həyata keçirilən telefonlardan bir neçəsinin qiymətinə nəzər yetirdikdə, bu bahalaşmaının şahidi oluruq. Məsələn, dekabrın 20-də 900 manata satılan "Samsung Note 5" smartfonunun indiki satış qiyməti 1 350 manatdır. Dekabrın 20-də 800 manata satılan "İphone 6" telefonu hazırda 1250 manata alıcılara təklif olunur.

**Qeyd edək ki, prezident İlham Əliyev də dekabrın 23-də manatın devalvasiyası ilə bağlı çıxış edib. Prezident bildirib ki, neft gəlirlərinin aşağı düşməsi milli valyutaya mənfi təsir edib: "Manatın məzənnəsinin dəyişdirilməsinin əsas səbəbi neftin qiymətinin üç dəfə aşağı düşməsidir. Yəni manatın məzənnəsinin dəyişdirilməsi qaçılmaz idi".**

**Prezident süni bahalaşmaya yol verənlərə, möhtəkirliklə məşğul olanlara qarşı cəza tədbirləri görüləcəyini bildirib.**

**❑ İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Bakı İstintaq Təcridxanasında daha bir müəmmalı intihar

## MTN polkovniki İlqar Əliyevin özünə qəsdi ilə Manaf Paşayevin ölümü arasında əlaqə var?

**Dekabrın 22-də Bakı İstintaq Təcridxanasında daha bir təqsirləndirilən şəxs - Manaf Paşayev saxlanıldığı kamerada özünü asıb. Baş vermiş növbəti intiharla bağlı redaksiyamızı ilginc məlumat daxil olub. Verilən məlumatda iddia olunur ki, M.Paşayev 2 gün əvvəl elə həmin təcridxanada intihar etmiş İlqar Əliyevin kamera yoldaşı olub.**




Bir qədər əvvəl ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin Antiterror Mərkəzinin rəis müavini olmuş İlqar Əliyevin dekabrın 20-də kamerada asılmış meyiti aşkar olunub. Baş Prokurorluğun yaydığı rəsmi məlumatda isə bildirilir ki, İ.Əliyevin kamera yoldaşı telefon danışığı hüququndan istifadə etmək üçün kameranı tərk etdiyi qısa müddət ərzində orada tək qalıb və mələfəni ip formasına salaraq pəncərədəki dəmir barmaqlığa bağlayaraq özünü asıb. Kamera yoldaşı qayıtdıqdan sonra hadisə ilə bağlı dərhal müəssisənin əməkdaşlarına məlumat verib və tibb heyətinin iştirakı ilə təxirəsalınmadan İ.Əliyevin həyatının xilas edilməsinə yönələn tədbirlər görülməsinə baxmayaraq, həmin anda ölüm halı artıq baş verdiyindən ona göstərilən tibbi yardım nəticəsiz qalıb. Rəsmi məlumatda İ.Əliyevin kamera yoldaşının kimliyi haqda hər hansı bir məlumat verilməyib. Belə iddia var ki, həmin şəxs Manaf Paşayev olub.

M.Paşayev haqda məlum olan odur ki, əvvəllər dəfələrlə məhkum olunub. Sonuncu dəfə o, bu ilin avqustunda Qaradağ Rayon Polis İdarəsi 10-cu Polis Bölməsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Lökbatan qəsəbəsində yerləşən ticarət mərkəzində Bakı şəhər sakini Gündüz Quliyevə məxsus mağazadan 2 ədəd mobil telefon oğurlamaqda şübhəli bilindiyinə görə tutulub. Paytaxt sakini Manaf Məmməd oğlu Paşayevə oğurluq maddəsi ilə ittiham elan edilərək barəsində həbs-qətimkan tədbiri seçilib və onu Bakı İstintaq Təcridxanasına köçürüblər.

Gələn məlumatlar belə ehtimal yaradır ki, M.Paşayev İ.Əliyevin ölümü ilə bağlı hər hansı bir məlumata malik ola bilərdi. Və ya İ.Əliyev ona hansısa sirlərini deyə, onun vasitəsilə çölə çıxarmağa nail ola bilərdi. Bu ehtimalı gücləndirən başqa bir məlumat da var. M.Paşayevin məhkəməsi gedirmiş. Onun Bakı İstintaq Təcridxanasından məhkəməyə aparıb gətirirmişlər.

Məlumdur ki, məhkəmələrdə ən müxtəlif saxlama yerlərindən gətirilən təqsirləndirilən şəxslər eyni saxlama yerində saxlanırlar. Beləliklə də zəngin kriminal keçmişi olan M.Paşayevin digər təqsirləndirilən şəxslərlə ünsiyyət imkanı yarana bilirdi. Əlbəttə ki, bu bir ehtimaldır və yoxlanılması hüquq-mühafizə orqanlarının üzərinə düşür.

**M.Paşayevin ölümü ilə bağlı cinayət işinin başlanıb-başlanmaması, MTN polkovniki İlqar Əliyevlə kamera yoldaşı olub-olmamasına aydınlıq gətirmək üçün Baş Prokurluğun mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmət rəhbəri Eldar Sultanov bildirib ki, M.Paşayevin İlqar Əliyevlə eyni kamerada saxlanması haqda məlumat həqiqəti əks etdirmir:** "Mahir Paşayevin intihar etməsi bağlı Sabunçu Rayon Prokurorluğunda CM-in 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb. Onun intihar etmə səbəblərinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq tədbirləri həyata keçirilir. Hər iki cinayət işi üzrə Cinayət Prosessual qanunvericiliyin tələblərinə uyğun olaraq tam, hərtərəfli və obyektiv istintaq aparılmaqla qanunamüvafiq qərar qəbul ediləcək".

E.Sultanov "Mahir Paşayevin ölümü ilə bağlı başlanmış cinayət işi İlqar Əliyevin ölüm işi Bakı Şəhər Prokurorluğunda istintaq edilən cinayət işinə birləşdirilərək eyni icraatda araşdırıla bilərmi" sualına münasibət bildirmədi.

İlqar Əliyevin vəkil olmuş Rəşad Mirmehdizadə Bakı İstintaq Təcridxanasında daha bir məhkumun ölməsi haqda mətbuat vasitəsilə məlumat aldığını deyib. Vəkil Mahir Paşayevin İ.Əliyevlə eyni kamerada saxlanılması, kamera yoldaşı olması haqda məlumatsız olduğunu bildirib.

Qeyd edək ki, Bakı İstintaq Təcridxanasından meyiti çıxan İ.Əliyevin də ölümü ilə bağlı CM-in 125-ci - özünü öldürmə həddinə çatdırma maddəsi ilə cinayət işi başlanıb. Lakin həmin cinayət işi Sabunçu Rayon Prokurorluğunda deyil, Bakı Şəhər Prokurorluğunda istintaq olunur. İ.Əliyevi oktyabrın 17-də Eldar Mahmudov vəzifədən qovulandan sonra saxlayıb Cinayət Məcəlləsinin 302.2; 308.2 və 309.1-ci maddələri ilə ittiham elan etmişdilər. Sonradan Səbayel Rayon Məhkəməsinə aparılan İ.Əliyev barəsində 4 aylıq həbs-qətimkan tədbiri seçilmiş və BİT-ə göndərilmişdi. O və hazırda BİT-də saxlanılan MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi sabiq naziri E.Mahmudovun qanunsuz göstərişlərini icra edən fiqurlar hesab olunurlar.

**❑ E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

**Xalq artisti Ağadadaş Ağayevin devalvasiya ilə bağlı saytlardan birinə verdiyi açıqlama hələ də müzakirə olunur. "Əcəb olub, dollar qalxıb" başlıqlı xəbər insanlar tərəfindən birmənalı qarşılanmayıb və xalq artisti sosial şəbəkələrdə tənqidlərə məruz qalıb. İnsanlar Ağadadaş Ağayevi xalqın halına yanmamaqda ittiham ediblər.**

# "Son devalvasyadan 50 min manat ziyana düşmüşəm"

*Musavat.com Ağadadaş Ağayevlə əlaqə saxlayıb. İttihamlara cavab verən sənətçi bildirib ki, onun sözləri yanlış təqdim olunub:*

**- Ağadadaş bəy, sizlə bağlı baş verən son məsələ haqda nə deyə bilərsiz?**

- Teleaparıcı Saleh Bağırovun toyunda idik. Jurnalist dedi ki, "bu gün dollar bahalaşıb, siz isə gülürsünüz, oynayırsınız". Mənim bahalaşma barədə subyektiv fikirlərim var. Jurnalistə dedim ki, Allah nə verirsə, məmləkətimizin xeyrinə versin. 2013-cü ilin büdcəsində neftdən 34 milyard dollar ixracatımız olub. Daxili idxalımız 11 milyard. O pullar manata çevriləndə 51 milyard olur.

"Sevinirik" sözünü istehza ilə demişəm. Balaca uşaq deyiləm. Bəziləri elə başa düşür ki, dollarım çox olduğu üçün bahalaşmaya sevinirəm. İnsanları müğənniyə qarşı qaldırırlar. İndi mən neynim ki, o gənc jurnalist xanım mənim istehzamı başa düşməyib?

Mənim əvvəldən dollara etibarım olmayıb. İnsanlarımız da başa düşsün ki, dollar güvənili valyuta deyil. Ölkəmizdə başqa sektorlar inkişaf etsin, başqasının dollarına möhtac qalmayaq. Mən belə başa düşürəm, bunu da demişəm.

**- İstəyirsiniz ki, milli valyutamız olan manat güclənsin?**

- Manat güclənsin. Manatın güclənməsi üçün bundan sonra ölkədə canlanma olacaq, ayrı-ayrı sektorlar daha çox çalışacaq, insanlar aktivləşəcək. İstəyirəm ki, biz istehsal edib başqa ölkələrə sataq və mütəmadi olaraq, oradan büdcəmizə pul daxil olsun. İstəyirəm ölkə daxilində hər şeyimiz olsun. Coraba kimi özümüz istehsal edək. Keyfiyyətsiz məhsullar dollarla gəlib mağazalara dolmasın. Çindən gələn uşaq oyuncaqları övladlarımızın səhhətinə ziyandır. Dünyanın ən keyfiyyətsiz mallarını gətirib ölkəmizə doldururlar. Allaha şükür, bizim dövlətimizə, millətimizə nə olub? İstehsal etmək çox çətindir? Biz istehsal edib başqa ölkələrə göndərək və gəlir əldə edək. Mənim dərdim budur. Dolların dünyanın başına nə oyun gətirdiyini görürəm.



**Ağadadaş Ağayev: "İndi mən neynim ki, jurnalist istehzamı başa düşməyib"**

**- Siz dolayısı ilə Amerikanı suçlayırsız?**

- Bəli, elə deyirəm. Bütün bunların arxasında ABŞ dayanır. Amerika bütün dünyanın başına oyun gətirir. Rusiyanı pis vəziyyətdə saxlayıb, dünən Suriyada 200 adamı güllələyib. Rusiya ilə Amerika arasında olan problemlərdən digər ölkələr zərər çəkir. Yaxşı ki, son devalvasiyada dollara olan sevgimiz yoxa çıxdı. Sevinirəm ki, millətimiz gördü ki, dollara güvənmək olmaz. Özümüz hərəkətlənməliyik, daxilimizdə dinamika olmalıdır. İnsanlar tənbəlliyin daşını atmalıdır. Hər kəs öz sahəsi ilə məşğul olmalıdır. İnşallah, ölkəmiz bundan sonra daha gözəl olar. Vaxtilə Amerika nefti 130-140 dollara alanda yaxşı fikirdə idim. İndi 36 dollara alır. Mən bunları görəndə əzab çəkirəm. Çünki ölkəm, xalqım Amerikanın siyasətinin güdazına gedir. Amma bir şey var, dövlətimiz qüdrətlidir, inşallah, bunun da öhdəsindən gələrik.

## "Bütün bu işlərin arxasında dayanan Amerikadır"

**- Hamı deyir ki, neftdən asılı olmayaq, sahibkarlıq, istehsal inkişaf etsin. Bu vəziyyətdən çıxış yolunu nədə görürsünüz?**

- Bütün sahələr inkişaf etməlidir. Bizim çətin dönəmimizdə, ölkənin ağır vəziyyətində 90-cı illərdə Azərbaycanda ən gözəl yaşayan İvanovka kəndinin sakinləri idi. Onlar dünyanın ən sivil ölkələrindəki kimi yaşayırdılar. Özləri hər şeyi istehsal edirdilər. Məhsullarını satıb bəy balası kimi yaşayırdılar. Vətəndaş kimi narahat olduğum məsələlər var. Kəndli kənd təsərrüfatı ilə məşğul olmaqdansa, Bakıya axışır. İstəyirəm ki, tam neftə bağlı olmayaq. Demirəm ki, insanların problemi yoxdur, mənim də problemlərim var. Xaricdən iki "TİR" mal gətirmişəm, məktəbin həyətində stadion tikirəm. 100 min dollar əvəzinə 150 min verəcəyəm. 50 min manat ziyana düşürəm. Vətən, məmləkət olan yerdə ziyana düşmək önəm daşımır. Bu cür zamanlarda insanlar yumruq kimi birləşməlidir. Mağazaları bağlayıb malların qiymətini yeniləyirlər. Hər kəsin problemi ola bilər. Əsas odur ki, vətənimizə zərbə dəyməsin. Allahdan gələn bizim üçün xeyirli olsun.

**- Bu bahalaşma toy qiymətinizə təsir edəcəkmi?**

- Mən toy qiymətimi qaldırmağı düşünmürəm. Vaxtaşırı fiziki şəxs kimi dövlətə vergi ödəyirəm. Bu gün də ödəmişəm.

**Könül İBRAHİM**

# "Üsyankar" müstəntiqin səhhəti kritikləşib

## Rüfət Səfərovun həyat yoldaşı hüquq müdafiəçilərinin Zərdaba gəlişini tələb edir; atası isə onun həbsini istisna etmir

**Müdafiə Nazirliyi mətbuat xidmətinin keçmiş rəhbəri, eks millət vəkili Eldar Sabiroğlunun prokurorluq orqanlarından istefa verən oğlu Rüfət Səfərovun səhhəti kritikləşib. Bu barədə müsavat.com-a onun həyat yoldaşı Nuray Səfərova məlumat verdi. 2 gündür aclıq aksiyası keçirən R.Səfərovun təzyiqi aşağı düşüb, halı pisləşib. O, artıq danışa və yeriyə bilmir.**



Rüfət Səfərov



Eldar Sabiroğlu

Müsahibimiz R.Səfərovla bağlı aparılan yoxlama barədə də hər hansı məlumatı olmadığını dedi: "Hələ ki bizə bu barədə heç bir məlumat verilməyib".

Nuray Səfərova qəzetimiz vasitəsilə hüquq müdafiəçilərinə də müraciət etdi. O, iki gündür aclıq aksiyasına qoşulan, üstəlik, vəzifəsindən istefa verib, sonra da yoxlamalara məruz qalan keçmiş müstəntiqin hüquq müdafiəçiləri tərəfindən diqqətsiz münasibət gördüyünü dedi: "Onlar niyə bura gəlib, Rüfət Səfərovun səhhəti, durumu ilə maraqlanmırlar?"

**E.Sabiroğlu isə müsavat.com-a açıqlamasında bildirdi ki, oğlunun səhhətinə görə narahatdır. Dediyinə görə, aclığı dayandırması üçün ona müraciət olunsa da, qulaq asmır:** "Sizin saytınız, qəzetiniz vasitəsilə burdan oğluma bir daha müraciət edirəm ki, oğul, aclığı dayandır. Bu, sənin sağlamlığına ziyandır. Mən ata kimi səndən xahiş edirəm, çəkil bu yoldan".

**Müsahibimiz oğlunun işi ilə bağlı aparılan yoxlamalardan və bunun həbslə yekunlaşacağı ehtimalından da danışdı:** "Hər şey ola bilər. Bu həyatdır. Dözümlü yanaşıram bu işə. Ancaq heç bir sənəd təqdim etmədən, əmlakını müsadirə etmək, evində axtarış aparmaq nələrdənsə xəbər verir. Deyə bilmərəm həbs edəcəklər, ya etməyəcəklər. O, həbsə layiq olacaq bir hərəkət etməyib. Sadəcə, söz deyib, dövlətin əleyhinə çağırış etməyib, pis işlərlə məşğul olmayıb. Ona görə də söz tapıb deyə bilmirəm. Niyə belə edirlər, anlamaq çətindir. Ailəni hazırda düşündürən məsələ oğlumun səhhətidir".

**E.Sabiroğlu bugünlərdə oğluna görə hakimiyyətin yüksək eşelonunda təmsil olunan hər hansı şəxslə danışıq aparmadığını dedi:** "Oğlum bu yanlış addımı atandan sonra mənə heç kim zəng də etmir, mən də heç kimə zəng etmirəm. Onları da başa düşürəm. Mən dözürəm".

**Müsahibimiz oğlunun Bakıya gəlməsini istəsə də, onun ordan buraxılmadığını dedi. E.Sabiroğlunun sözlərinə görə, ona bunun aparılan yoxlama ilə bağlı olduğu bildirilib:** "Ailə üzvlərim gediblər. Mənsə burdayam. Mənim ora getməyimin o qədər də böyük mənası yoxdur. Əksinə, getsəm söz edə bilərlər ki, atası gedib, orda nələrləsə məşğuldur. İndi oğlumun aclıq keçirməsindən narahatam. Mənə dediblər ki, taqətdən düşüb, yeriyə bilmir. Ata kimi narahatam. Qaldı ki həbsə, qoy etsinlər. Nə var ki bunda? Amma oğlum həbsə hazır olmaq üçün fiziki sağlam olmalıdır. O da bunu etmir, təkrar səhvə yol verir. Mənə pis təsir edir bütün bunlar. Onun addımı ilə bağlı müraciətim olub. Mən onu yolundan döndərə bilmədim. Yanlışı seçsə də, öz yoludur. Dəfələrlə onu bu yoldan döndərmək istəsəm də, dedi ki, xahiş edirəm, müdaxilə etməyəsən".

**Sevinc TELMANQIZI**

# Manat öldü, turizm də onunla birlikdə...

## Turpaket satışı dayandırılıb, qiymətlər 35-40 faiz artıb

**Manatın devalvasiyası ilə turizm sektorunda da ciddi problemlər yaranıb. Yeni il qabağı xüsusi bayram turpaketlərinin satışı dayandırılıb. Bu barədə bizə açıqlamasında "Fly Travel" şirkətinin sahibi Məmməd Əliyev bildirdi. Dedi ki, manatın qəfil düşməsi ilə Yeni il turpaket satışının dayandırılması barədə əməkdaşlıq etdiyi şirkətlərdən qərar gəlib. Amma arzu edən turistlər bilet və hotelləri ayrı-ayrılıqda bron edə bilirlər.**



Müsahibimizin sözlərinə görə, son iki gündə bilet və hotel qiymətlərində kəskin artım var. Belə ki, bu zamana qədər azərbaycanlılar daha çox İstanbul səfərinə üstünlük verirdi. Bu halda İstanbul hotellərinin bir sutkalıq qiyməti 50 dollardan, 52 AZN olaraq hesablanırdı. Devalvasiyadan sonra isə İstanbulda bir gecəlik qonaqlama 77 AZN-dən hesablanır.

Avropa turlarını seçən azərbaycanlılar üçün də qiymətlər bir günün içində astronomik həddə çatıb. Məsələn, Praqaya bilet əvvəl 600 AZN idisə, devalvasiyadan sonra 850 AZN olub. Hotellərin bir gecəlik qiyməti isə 175 AZN-dən hesablanır. M.Əliyev dedi ki, əvvəl iki nəfərlik, 5 gecəlik Praqa səyahət paketi 1500 AZN-ə başa gəlirdisə, indi bu məbləğ 2500 AZN olub.

Devalvasiyadan öncə turpaketlərini alanlar ondan istifadə edə biləcək və əlavə heç bir ödəmə etməyəcəklər. Amma turpaketin 50 faizini ödəyənlər geridə qalan məbləği yeni kurs üzrə ödəyəcəklər.

"NZ Travel"dən isə bildirdilər ki, turpaketlərin qiymətində 35-40 faizlik artım müşahidə olunur. Daha çox Dubay, Türkiyə turlarına üstünlük verən həmvətənlərimiz eyni zamanda Avropa şəhərləri arasında Praqa və Parisi daha çox tərcih edirlər.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

**Son günlərdə təmas xəttində gərginliyi süni şəkildə artıran, hətta prezidentlərin Bern görüşünün keçirildiyi saatlarda da atəşi dayandırmayan işğalçı Ermənistan artıq açıq şəkildə Azərbaycanı müharibə ilə hədələməyə başlayıb. Düşmən ölkənin Müdafiə Nazirliyinin sözçüsü Artsrun Hovhannisyanın "artıq atəşkəs sazişi qüvvədən düşüb" bəyanatı da İrəvanın öz havadarlarına arxalanaraq Azərbaycanı böyük savaşa cəlb etmək niyyətindən xəbər verir.**



# Ermənistanın "atəşkəs bitdi, müharibə başlayır" hədəsinə Bakıdan cavab gəldi

## XİN: "İşğalçı tərəf torpaqları azad edənə qədər sülhdən danışmaq mümkün deyil, müharibə 20 ildir davam edir"

## Zahid Oruc: "Atəşkəsi biz pozuruq və düz də edirik"

Düzdür, Azərbaycan vaxtaşırı bəyan edib ki, düşmən işğal olunmuş ərazilərimizdən çəkilməyincə müharibənin başa çatdığını demək olmaz. Lakin əraziləri on illərdir işğal altında olan Azərbaycan üçün bu, nə qədər haqlı mövqedirsə, işğalçı ölkənin müharibə təhdidi ilə danışması artıq düşmənin həyasızlığının bariz nümunəsidir. Hovhannisyanın "Azərbaycanla atəşkəs sazişinin pozulduğu"na dair bəyanatında daha sonra deyilir: "Bu gün bir döyüşün içindəyik. Çünki atəşkəs sazişi qüvvədən düşüb. Azərbaycan tank, top, zenit kimi mövcud olan bütün silahlardan istifadə edir".

Erməni tərəf işğalçı mahiyyətini arxa plana keçirməkdən ötrü Azərbaycanın özünü belə günahkar çıxartmağa cəhdlər edir. Əslində bu cür aqressiv davranış gözlənilən idi. Azərbaycan və Ermənistan prezidentlərinin İsveçrə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı heç bir nəticə əldə olunmamasından sonra Ermənistanın müdafiə naziri Seyran Ohanyanın Dağlıq Qarabağa, prezident Serj Sərkisyanın isə Moskvaya yollanması da hansısa planlardan xəbər verirdi. Görünür, düşmən ölkə havadarlarından aldığı təlimat əsasında hərəkətə keçib.

**Moskvada KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının) iclasında quruma sədrliyi alan Ermənistan prezidentinin son sayıqlamaları da vəziyyəti gərginləşdirməyə xidmət edir. Hətta Sarkisyan KTMT üzv olan ölkələri Azərbaycanı açıq və gizli şəkildə dəstəklədikləri üçün tənqid edib.** "Sözsüz ki, hər bir ölkənin öz maraqları, öz prioritetləri var, amma bu təşkilatın üzv ölkələrinin ümumi maraqlarına və ümumi vəzifələrinə qarşı qoyulmamalıdır. Azərbaycan Silahlı Qüvvələri hər dəfə bütün kalibrli silahlardan, minaatanlardan və artilleriya qurğularından Ermənistana qarşı atəş açanda, onlar Astana, Düşənbə və Bişkekə, Moskva və Minskə atəş açırlar", - Sərkisyan deyib.

**Erməni prezident hətta KTMT-ni də şantaj edib.** "Xatırladım ki, bizim nizamnamədə müvafiq maddə var. Əgər biz bu maddəni tətbiq etmiriksə, yaranan vəziyyəti müzakirə etmiriksə, telefonun dəstəyini götürüb müttəfiq Ermənistanda nə baş verdiyi ilə maraqlanmırıqsa, bununla yanaşı, hələ beynəlxalq təşkilatlarda müttəfiqə qarşı səs veririksə, üçüncü ölkə ilə mətni KTMT üzrə müttəfiqinə qarşı olan iki tərəfli deklarasiyalar qəbul ediriksə, biz bütün təşkilatımızı, onun nüfuzunu, onun mahiyyətini bu atəşlərə məruz qoyuruq" - deyib.

Hansı ki, sözügedən maddələr yalnız Ermənistana təhdid və təhlükə ola biləcəyi halında tətbiq oluna bilər. Lakin Azərbaycan indiki halda Ermənistanın işğal etdiyi əraziləri azad etmək istəyir və Ermənistanın sərhədlərinə təcavüz etmək niyyətində deyil. Ancaq bəzi müşahidəçilər hesab edir ki, vəziyyət belə davam edərsə, Ermənistan özünün mövcudluğunu da sual altında qoymuş olacaq.

**Azərbaycanın Müdafiə Nazirliyi düşmənin müharibə ilə bağlı hədələrini cavablandırıb. Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı "Yeni Müsavat"a bildirdi ki, Azərbaycan ordusunun sərəncamındakı silahlardan istifadə olunsa, ermənilərin itkisi onların ağlına gələ bilməyəcəyi qədər çox olacaq:** "Azərbaycan Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, Ermənistan Ordusu nə qədər atəşkəsi pozmağa davam edəcəksə, nə qədər yaşayış məntəqələrimizi, dinc sakinləri atəşə tutacaqsa ona daha çox və daha iriçaplı üstün silahlarla cavab zərbələri endiriləcək. Silahlı Qüvvələrimizin sərəncamındakı silahların dağıdıcı gücü, tətbiq dərinliyi, dəqiqliyi bundan dəfələrlə artıqdır. Erməni tərəfi də bunu yaxşı bilir. Müdafiə Nazirliyi dəfələrlə bəyan edib ki, ehtiyac yaranarsa, Silahlı Qüvvələrimizin sərəncamındakı digər silahlar da düşmənə qarşı tətbiq olunacaq. O silahlar istifadə olunduğu zaman ermənilərin itkisi onların bu gün ağlına gələ bilməyəcəyi qədər, düşündüklərindən də artıq olacaq. Bunu onlar anlamalıdırlar".

**V.Dərgahlı düşmənə növbəti dəfə xəbərdarlıq etdi:** "Ermənilər gənclərini, erməni millətinin gələcəyini qorumaq istəyirlərsə, işğal altında saxladıqları Azərbaycan ərazilərini birdəfəlik tərk etməlidirlər".

**Nazirlik sözçüsü erməni tərəfinin heç də yeni bir söz deməmdiyini vurğuladı:** "Onsuz da biz heç vaxt deməmişdik ki, müharibə qurtarıb. Nə qədər ki, ərazilərimiz işğal altındadır, müharibə davam edəcək".



## Müdafiə Nazirliyi: "Onsuz biz heç vaxt deməmişdik ki, müharibə qurtarıb"

Politoloq Qabil Hüseynli əmindir ki, İrəvan həm Rusiyanın, həm də Kollektiv Təhlükəsizlik Şurasının təminatını alıb. O, vəziyyətin xoşagəlməz olduğunu söyləyərək "Azərbaycan tərəfi atəşkəs rejiminə ciddi riayət olunması üçün beynəlxalq təşkilatlara məruzə etməlidir" deyib.

Dekabrın 22-də isə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov Müstəqil Dövlətlər Birliyinin Müdafiə Nazirləri Şurasının dekabrın 23-də keçiriləcək növbəti iclasında iştirak etmək üçün Moskva şəhərinə yola düşüb. Ancaq V.Dərgahlı qəzetimizə dedi ki, bu səfərin son gərginliklə heç bir əlaqəsi yoxdur, sadəcə, nazir tədbirdə iştirak üçün Rusiya paytaxtına gedib.

**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Zahid Oruc "Yeni Müsavat"a açıqlamasında düşmənin hədəsini mənasız saydı. "Hərbi əməliyyatları Ermənistan yox, biz keçiririk, atəşkəsi biz pozuruq və düz də edirik" - deyən deputat danışıqların son raundunun uğursuzluqla başa çatmasını da təbii saydı:** "Bir illik fasilədən sonra prezidentlərin görüşü məhz ATƏT-ə öz missiyasını davam etdirdiyini göstərmək üçün lazım idi. Ötən ilin sentyabrında Con Kerrinin sirası ilə Ulesdə bir araya gələn dövlət başçıları sonra oktyabrın 27-də Parisdə rəsmi olaraq danışıqlar masasına əyləşmişdilər və ona qədər Rusiyanın tam nəzarəti altında olan sülh prosesi tədricən Qərb dəhlizlərinə daşınmağa başlayırdı. Bunu görən Kreml Türkiyə ilə birgə yeni diplomatik sürəcə daxil olaraq Azərbaycanın bir neçə rayonunun qaytarılması adı altında prosesdən Fransa və Amerikanı kənarlaşdırmaq üçün fəaliyyətə keçdi. Nəticədə danışıqların formatı ATƏT çərçivəsindən çıxdı. Ona görə Bern faktiki olaraq Minsk Qrupunun münaqişə üzərində monopoliyaya sahiblənməsi mərasimi idi. Bir sözlə, həmsədrlər orada yalnız müharibənin qarşısını almağa toplaşmışdılar. İsveçrədə hər hansı sənəd müzakirəyə çıxarılmayıb. Təmas xəttinə toplanan yeni silahların və ağır texnikanın tam xəritəsini dislokasiyalar üzrə ortaya qoyan hərbi kəşfiyyatçı Anjiy Kasprşik müharibə başlayacağı təqdirdə beynəlxalq missiyalara ehtiyac qalmayacağını, onun fəaliyyətinin sona çatacağını diqqətə çatdırıb".

**Z.Orucun fikrincə, danışıqların aparıldığı gün Ohanyanın Qarabağa - ön cəbhəyə gəlməsi də sübut edir ki, Sərkisyan cəbhədəki vəziyyətdən çox narahatdır:** "İlham Əliyevin düşmənlə hər bildə danışması və diplomatik tövsiyələrə və ATƏT-in qərarına əsaslanıb ön xətdəki qüvvələrini geri çıxarmaqdan imtina etməməsi gerçəkdən də Minsk Qrupunu çıxılmaz vəziyyətdə qoyur. Faktiki olaraq, hər üç ölkənin təmsilçiləri yeni silahlı toqquşmaların tamamilə real olduğunu bilirlər. Sərkisyanın Berndən sonra Moskvada Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının toplantısında Azərbaycana qarşı siyasi hücuma keçməsi onun İsveçrə danışıqların diplomatik basqıya cavab reaksiyası sayıla bilər. Faktiki olaraq, bu mövqe erməni prezidentinin Rusiyadan başqa həmin qurum tərəfindən müdafiə olunmadığını sübuta yetirir. Əksinə, həmin təşkilatın üzvləri Azərbaycanın mövqeyinə ayrı-ayrılıqda dəfələrlə dəstək veriblər. Ermənistandan atılan güllələr Belarusun, yaxud Qazaxıstanın təhlükəsizliyinə heç bir təsir etmir. İrəvan sabitlikdə yaşamaq üçün qazağı, qırğızı, yaxud belarusu bizimlə toqquşdurmaq istəyirsə, ona heç vaxt nail ola bilməyəcək. "Rusiya NATO-su"nu parçalayan elə ermənilərin təcavüzkarlıq siyasəti olacaq. Azərbaycan cəmiyyətində Qarabağ məsələsinə dair vahid mövqe var, lakin ermənilərin 90-cı illərdəki birliyindən danışmaq mümkün deyil. İndi Qarabağ yalnız dağlıq hissədə yaşayan əhali üçün böyük vətən məsələsidir. Bununla bərabər, Azərbaycan parlamentində Qarabağ müzakirələri yeni siyasi yanaşmaların, təşəbbüs və planların meydana gəlməsinə, siyasi qüvvələrin torpaqlarımız uğrunda səfərbər olunmasına yalnız fayda verərdi. 2016-cı ildə regionda gərginlik yüksək fazada davam edəcək. Çünki Yaxın Şərq ətrafında gedən qlobal müharibənin Cənubi Qafqaza böyük təsiri var. Digər tərəfdən, Türkiyənin maraqları əleyhinə fəallaşan qruplar onu Rusiya ilə toqquşdurmaqla həm də bu bölgədə geopolitik dəyişikliklər etməyə çalışacaqlar. Etiraf edək ki, regionda qüvvələr nisbəti dəyişir və balanslı siyasəti qoruyub saxlamaq getdikcə daha çox itkilərə səbəb olur. Ona görə gələn il müharibədən daha çox Qafqazda kimlik məsələsi üçün həlledici savaşların genişlənəcəyi şübhə doğurmur".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev qəzetimizə bunları bildirdi:** "Adətən təcrübə göstərir ki, prezidentlər və ya digər səviyyələrdə görüşlər keçirilən zaman, yaxud görüşlərin keçirildiyi dövrdə, ondan sonra Ermənistan tərəf vəziyyətin gərginləşdirilməsinə yönəlmiş təxribatçı addımlar atır. 19 dekabr prezidentlərin Bern görüşündən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri verdikləri bəyanatda 2014-ci ilin Soçi, Nyu-Port və Paris görüşlərində əldə edilmiş razılaşmalara uyğun olaraq mövcud təkliflər əsasında danışıqları intensivləşdirmək üçün Ermənistana və Azərbaycana müraciət etdikləri halda, Ermənistan hədəfdən yayınmaq və münaqişənin həllinə imkan verməmək üçün qəsdən vəziyyəti gərginləşdirmək yolunu tutur".

**H.Hacıyev düşmənin hədəsini ciddi saymadığını bəyan etdi:** "Azərbaycan həmişə deyib ki, işğalçı tərəf torpaqları azad edənə qədər sülhdən danışmaq mümkün deyil. Müharibə 20 ildir davam edir, sadəcə olaraq, nisbi atəşkəs rejimi var idi. Atəşkəs rejiminin pozulması və gərginliyin yaranmasının məsuliyyəti bilavasitə təcavüzkar dövlət kimi Ermənistanın üzərinə düşür". **Erməni tərəfin hədəsi ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət olunacaqmı? H.Hacıyev:** "Ermənistanın təcavüzkar siyasəti və cəbhədəki təxribat-diversiya əməlləri barədə mütəmadi şəkildə ATƏT-in Minsk Qrupunun həmsədrlərinə müraciətlər edirik. Müraciətin əsasını da o təşkil edir ki, Ermənistan ordusu işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY



# Məmur oğlu ilə birgə restoranda 6 nəfəri güllələyən şəxs tutuldu

**Bakıda restoranda silahlı insident törədən digər şəxs də tutulub. Qaradağ Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, Zaqatala rayon sakini Samir Epdiyev tutularaq istintaqa təhvil verilib.**

Qeyd edək ki, dekabrın 21-də saat 23.00 radələrində Qaradağ rayonunun Lökbatan qəsəbəsində yerləşən "Zeytə" restoranında Bakı şəhər sakini Məhərrəm Əliyev və Samir adlı şəxs qəsəbə sakinləri Ədalət Həsənov, oğlu Orxan, Mehrab Əliyev, Cəmil Həmidov, Nazim Kərimov və Rafiq Kərimovla mübahisə etdikdən sonra M.Əliyev "Vinçestr" markalı tüfəngdən atəş açaraq onlara müxtəlif dərəcəli bədən xəsarəti yetirib hadisə yerini tərk ediblər.

Bakı Şəhər Prokurorluğundan APA-ya verilən məlumata görə, faktla bağlı Qaradağ Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) və 221.1 (xuliqanlıq) maddələri ilə cinayət işi başlanıb.

Həyata keçirilən tədbirlər nəticəsində hadisənin əsas iştirakçısı Məhərrəm Əliyev tutulub.

Məhərrəm Əliyev Vergilər Nazirliyinin 14 saylı Ərazi Vergilər İdarəsinin rəisi Fəxrəddin Əliyevin oğludur. F. Əliyev məlum hadisə ilə bağlı tutduğu vəzifədən azad edilib.



# Zorlamada ittiham olunan məktəblilərə bəraət verildi

## Vəkil: "Yeniyetmələri həyatlarındakı bu ağır ləkədən xilas edə bildik"

**Sumqayıt Apelyasiya Məhkəməsində hakim İlham Həsənovun sədrliyi ilə 5-6 il müddətinə azadlıqdan məhrum edilmiş məktəblilərə bəraət verilib. Bu haqda "Yeni Müsavat"a açıqlama verən məktəblilərdən birinin vəkili Ceyhun Yusifov ittihamın əsassız olduğuna ilk gündən əmin olduqlarını deyib:**

"Hakim İlham Həsənova bizə ədalətin təntənəsini yaşatdığına görə təşəkkür edirik. O, 4 məktəblinin həyatını xilas etdi. 2 ilə yaxın müddət ərzində gərgin və ağır zəhmət bahasına da olsa vəkil həmkarlarım olan Gülşən Salmanova, Əbil Həsənov, Gunay Sultanova və Əziz Qənbərovla çiyin-çiyinə işləyərək təqsirsiz 4 yeniyetməni həyatlarında böyük iz buraxacaq ləkədən xilas edə bildik. Onların irəli sürülmüş ittihamda təqsirsiz olmalarını sübuta yetirib bəraət verilməsinə nail olduq. 9-cu sinif şagirdləri olan yeniyetmələr 2 ilə yaxın müddətdə ki, öz təhsillərindən uzaq qaldılar. Amma zəhmətimiz hədər getmədi və yeniyetmələri həyatlarındakı bu ağır ləkədən xilas edə bildik. Bu ağır fəaliyyətdə öz əməklərini əsirgəməyən vəkil həmkarlarıma, başda Gülşən Salmanova olmaqla təşəkkür edir və onların timsalında vəkillik fəaliyyəti ilə qürur duyuram".

Qeyd edək ki, 9-cu sinif şagirdi olan qıza qarşı seksual xarakterli hərəkətlər etməkdə ittiham olunan məktəblilərə Bakı Ağır Cinayətlər Məhkəməsində ittihamedci hökm oxunub. Hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən məktəblilər E.Q 6 il 6 ay, N.A, E.N və M.Ş isə hər biri 5 il 6 ay müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdilər. Məktəblilər barəsində başqa yerə getməmək barədə verilmiş qətimkan tədbiri ləğv edilib və onlar məhkəmə zalındaca həbs edilmişdilər.

❑ **E.HÜSEYNOV**




# "Nəbatat bağında xoşagəlməz hadisələr baş verir"

**"Akademiyanın institutlarının direktorları cavanlar, gənclər olmalıdır. Gec, yaxud tez akademiyanın institutlarının rəhbərliyində gənc alimlər olmalıdır". APA-nın xəbərinə görə, bunu Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti, akademik Akif Əlizadə AMEA Rəyasət Heyətinin bu gün keçirilən iclasında deyib.**

O bildirib ki, AMEA-nın Nəbatat bağında xoşagəlməz hadisələr baş verir: "Nəbatat bağında elmi işlərə aid olmayan kənar məsələlər tamamilə yığışdırılmalıdır".



# Vergilər Nazirliyi müğənni Rəqsanəni 104 min manat cərimələdi

**Vergilər Nazirliyi müğənni Rəqsanə İsmayılovaya 104 min manat borc yazıb. Bu barədə lent.az-a müğənnin özü məlumat verib. O bildirib ki, bu cərimə 3 ay ərzində yazılıb: "Hazırda Moskvadayam. Vergilər Nazirliyi tərəfindən 3 aya 104 min cərimə olunmuşam. Bütün məsələlərlə vəkilim məşğul olur. Vəkilimin araşdırması yekunlaşandan sonra mətbuata açıqlama verəcəyəm".**

Qeyd edək ki, ötən gün Vergilər Nazirliyi şou-biznesin bir çox tanınmış nümayəndəsinin vergi borcu ilə bağlı məlumat yayıb.

# Qəzaya düşən 3 bacıdan biri öldü



**Ağcabədidə 1 nəfərin ölümü, 4 nəfərin xəsarət alması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. APA-nın Qarabağ müxbiri xəbər verir ki, rayonun Hüsülü kəndində 1942-ci il təvəllüdlü Kərimov Sədrəddin Ağakişi oğlunun idarə etdiyi avtomobillə 1966-cı il təvəllüdlü Həziyev Əzim Əkbər oğlunun idarə etdiyi maşın toqquşub. Hər iki sürücü və avtomobillərdə olan 3 sərnişin Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb.**

Xəstəxanadan APA-ya verilən məlumata görə, sərnişinlərdən Muğanlı kənd sakini, 1964-cü il təvəllüdlü Süleymanova Sevil Muxtar qızının həyatını xilas etmək mümkün olmayıb. Onun bacıları 60 yaşlı Kərimova Məlahət Muxtar qızı və 1958-ci il təvəllüdlü Məmişova Sona Muxtar qızının vəziyyəti isə orta-ağırdır.

Faktla bağlı araşdırma aparılır.

# Dağlıq rayonlarda qar yağacaq



**Dekabrın 24-də Bakı və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənən cənub-qərb küləyi ilə əvəz olunacaq.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən xəbərə görə, havanın temperaturu gecə Abşeron yarımadasında 4-6, gündüz 9-12, Bakıda 4-6, gündüz 10-12 dərəcə isti olacaq.

Dekabrın 24-də Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə və səhər bəzi yerlərdə yağıntılı olacaq, dağlıq və dağətəyi rayonlarda sulu qar, qar yağacağı gözlənilir. Arabir duman olacaq, qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu Aran rayonlarında gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 9-14, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacaq.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarn dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

Əlaqə nömrəsi (050) 264 49 99

YENİ MÜSAVAT
N 287 (6315) 24 dekabr 2015

# "Meymun ili ən dəhşətli terror və sensasiyalı sui-qəsdlərlə yadda qalacaq"

## Səbuhi Rəhimli: "2016-cı ildə "yerindən qopmaz" sayılan iki böyük vəzifəli şəxs kabinetinə vida deyəcək..."

**Yeni ilə sayılı günlər qalıb. 2015-ci ilin sonunu ağır yaşasaq da, çoxumuz ümidimizi qarşıdan gələn 2016-ya bağlamışıq. Ümidimiz astroloqlara qalıb. Meymun ili bizə, dünyaya, ölkəmizə nə vəd edir? Nələr olacaq, nələr gözlənilir? Astroloq Səbuhi Rəhimli "Yeni Müsavat"a müsahibəsində gələn illə bağlı proqnozlarını açıqladı.**

***- Səbuhi bəy, klassik sualla başlayaq. Nə zamandan başlanır Meymun ili? Konkret gün, saat?***

- Od ünsürlü Qırmızı Meymun ili fevralın 8-də Bakı vaxtilə saat 18:40-da start götürəcək. O vaxta qədər Keçi ilinin tərsliyinə, yolunda getməyən işlərinə dözməli olacağıq. İlin ən gərgin ərəfəsi də məhz həmin 40 günlük vaxta düşəcək. Planetar quruluşun neqativ təsirləri hər bir fərdə və fərdlərdən ibarət olan kütləyə sirayət edəcək. Ötən il başlayan xaos, münaqişələr və müxtəlif ölkələrin idarəetməsində iştirak edənlərin cəzalandırılması prosesi marta qədər daha kəskin xarakter alacaq.

***- Keçi ili ilə Meymun ilini müqayisə edək mümkünsə. Adətən Keçi ilində baş verən hadisələrin hansı Meymun ilində özünü göstərmir və ya əksinə?***

- Yola saldığımız Keçi ili kimi yeni Meymun ili də oyunu, oyunbazlığı sevir. Düzdür, Keçinin ümumi hədəfi sağlam olsa da, ora aparan yolu ədalətsiz, gərgin, hiyləgərliklərlə dolu olur, güclü olan qalib gəlir - nə yolla olursa-olsun. Üstəlik, Keçi yaradıcılığı sevir, sevənlərə kömək edir, qorxaq və tərəddüd içində olan, riskdən qorxan adamları cəzalandırır. Meymunda isə hədəflər məlum deyil, hətta məlum olsa da, gizli saxlanılır. Onun oyun qaydaları üzdən mülayim, sadə görünsə də, əslində təhlükəli və amansızdır. Meymun xəyanətə meyllidir, münaqişə yaratmaq, yalanlarla idarə etmək, gözləmədiyin yerdən vurmaq onun peşəsidir. Təcrübə göstərir ki, bu illərdə Şər Xeyri üstələyir, maddi resurslar mənəvi dəyərləri arxa plana keçirir, günahsız insanlar əziyyət çəkir, hətta ölür.

***- Meymun təbiəti etibarilə oynamağı, əyləndirməyi sevir... Bu, 2016-da özünü necə göstərəcək?***

- Hazırkı durumda olan vəziyyət fırtınaqabağı sakitlikdən də qorxuludur. Çünki dünyanın az qala bütün qitələrində ümumi vəziyyətin gərginliyi yüksələn xətt üzrə inkişaf edir. İlk öncə bildirim ki, qarşılamaqda olduğumuz Meymun ilində Böyük Yalan az qala bütün sahələrdə hakimlik etməyə çalışacaq. Belə məqamlarda isə insanların sadəlövhlük göstərməsi hansısa kələyin, amansızlığın, neqativ halların qarşısını alan deyil. Meymun bizlərin əvəzinə hansısa işi görməyəcək. O yalnız risk edənlərə kömək edəcək. Bu il passiv, dünyagörüşü dar olan, mübarizə əzmi olmayan, məddah və yaltaq adamlar üçün cəhənnəm əzabına bərabər olacaq. Problemlərinin həlli naminə gecə-gündüz çalışanlarsa yanılacaqlar. Ona görə ki, mövcud çətinliklər heç də fəaliyyəti aktivləşdirmək hesabına aradan qalxmayacaq. Bunun üçün hər kəs zamanla ayaqlaşmalı, şəraitə uyğun taktiki gedişlər etməli, yuxarıda dediyim kimi risk etməli və düşüncəsində dönüş yaratmalıdır. Yeni ildə situasiyalara baxışlar da dəyişəcək. Məsələn, kiminsə bol-bol vədinə heç kəs inanmayacaq, əvəzində "Soğan olsun, nəğd olsun" prinsipinə əməl olunacaq. Bir amili də unutmamalıyıq ki, çaxnaşma və üsyanlar, qarşıdurma və müharibələr olmasa, Meymun özünü rahat hiss etmir. Dini kitablardan da bildiyiniz kimi, bu istəkdə yalnız İblis olur. Deməli, 2016-cı ildə İblis ötən illərlə müqayisədə daha da aktivləşəcək. Bu isə daha çox insanların günahları çoxluğundan irəli gələcək. Çünki milli-mənəvi dəyərlər, əxlaq prinsipləri, dini meyarlar tapdananda həmişə İblisə meydan açılır. Nəinki Azərbaycanda, ümumiyyətlə, astrologiya elmi ilə ciddi məşğul olan bütün ölkələrdə hətta adlı-sanlı astroloqlar da Meymun ili ilə bağlı proqnoz verməkdə çətinlik çəkirlər. Bununsa bir neçə səbəbi var. Əvvəla, ona görə ki, gələcəyin mənzərəsini yaratmaq üçün yeni ilin əlamətlərini, çağdaş dünyamızda cərəyan edən prosesləri və ötən illərdən yarımçıq qalmış bəşəri problemləri mütləq nəzərə almaq lazımdır. Bu isə öz-özlüyündə ciddi ziddiyyətlərdən xəbər verir ki, bundan da baş açmaq böyük məharət tələb edir. Digər tərəfdənsə elə bir zaman kəsiyi olmayıb ki, Meymun ilində hadisələr hamının gözlədiyi axarla getsin. Bu səbəbdən də təhlil və proqnozları verməkd üçün fitri qabiliyyət, hərtərəfli bilik tələb olunur. Əks təqdirdə, deyilənlər özünü doğrultmayacaq. Dünyanın yenidən bölüşdürülməsi, yeni quruluşların yaradılması və böyük müharibələrin gedişatındakı dəyişikliklərin böyük əksəriyyəti Meymun ilinə təsadüf edir.

***- Dünya miqyasında və Azərbaycanda hansı hadisələr baş verəcək?***

- Hazırda Suriya və İraqda gedən qanlı müharibə, hər bir ölkəni təhdid edən terror, antidemokratik idarəetmə, maliyyə böhranı insanları ümidsizləşdirməkdə, qorxutmaqdadır. Hətta 3-cü dünya müharibəsi haqqında düşüncələr də var. Lakin araşdırmalarımız gələn ilin deyilənlər qədər də təhlükəli olacağını göstərmir. Dünya müharibəsi və ya münaqişələrin artması kimi hallar olmayacaq. Mart-avqust aralığında dünyamız hazırkı sınaqdan minimal itki ilə çıxmağı bacaracaq. Konkret olaraq Azərbaycana gəlincə, ürəkaçan olaylar az olacaq. Bu, ən azından Qarabağın yenə də qaytarıla bilməməsindən doğacaq. Başı varidat toplamağa qarışan səlahiyyətlilər təhdidlərdən çəkinəcək, riskdən qorxacaqlar. İli atəşkəssiz başa vursaq da, daha ağır döyüşlər getsə də, hansısa ərazinin qaytarılmasına nail olunmayacaq. İnsanlarımızı Türkiyə-Rusiya münasibətlərinin hazırkı durumu da narahat edir. Astroloji göstəricilər 2016-cı ildə bu iki ölkə arasındakı gərginliyin davam edəcəyini bildirsə də, hər hansı müharibə ehtimalı yoxdur. Meymun ili ən dəhşətli terror və sensasiyalı sui-qəsdlərlə yadda qalacaq, az qala hər ölkədə terror olacaq. Azərbaycan da dünyanın bir parçası olduğu üçün tədbirli olmalıyıq, xüsusən də yaz aylarında məsuliyyətlilərimiz daha diqqətli olmalı, gücləndirilmiş iş rejiminə keçməlidir. Çünki Meymun zərbəni gözlənilmədən və tam yaxınlığa gəlib vurur. 2016-cı ildə dünyanın yenidən bölünməsinin konturları daha qabarıq görünəcək. Afrikada, Orta Asiyada siyasi gərginlik baş qaldıracaq. Çoxsaylı hakimiyyət dəyişikliyi də istisna deyil. Yeni iti texnoloji tərəqqinin pik mərhələsi də adlandırmaq olar. Meymun oyunla, məzhəkə ilə bağlı olduğundan həmin məlum dövrdə nümayiş etdirilən sənət növlərində inkişaf olacaq. Yeraltı faciələr, okean sularında fəlakətlər, böyük subasmalar, elektrik stansiyalarında sıradançıxma halları arta bilər.

***- Bu ilin sonunda da olsa milli təhlükəsizlik naziri başda olmaqla, həmin nazirlikdəki bir çox məmurların zərərsizləşdirilməsi... ölkəyə öz damğasını vurdu. Bənzər hadisələr 2016-da da ola bilərmi, davamı gələcəkmi?***

- Əslində təxmin edilən formada olmasa da, bu il hökumətdə ciddi dəyişikliklər özünü göstərəcək. Dünyada baş verən qeyri-sabitlik, iqtisadi böhran və ölkəmizə qarşı yönələn sanksiya və təzyiqlər iqtidar yetkililərini vadar edəcək ki, yumşaq tərzdə olsa da, islahatlara getsin. Deməli, proqnozlaşdırmadan da söyləmək olar ki, çoxları işdən çıxarılacaq, hətta həbsə gedəcək. Daha iri məmurlara gəlincə, bildirim ki, 2016-cı ildə "yerindənqopmaz" sayılan iki böyük vəzifəli şəxs kabinetinə vida söyləyəcək. Bu il prezident İlham Əliyevdən də sensasion gedişlər görəcəyik. El dili ilə desək, sanki həmişə susan dövlət başçısı bu dəfə dillənəcək. Onun atdığı addımlar əhali üçün daha çox xeyirli olacaq. Bütün bunlara baxmayaraq, aprelin əvvəlinə qədər hökuməti böyük sınaqlar gözləyir. "Balanslaşdırılmış siyasət" iflasa uğrayacaq.

***- Bəs yerli media?***

- Yazın gəlişi ilə hökumətyönümlü informasiya vasitələri zəifləyəcək, bir-biri ilə savaşa girəcək. Hətta ola bilsin ki, onlardan bir çoxu fəaliyyətlərini dayandırsın. Ümumiyyətlə, bu il media ağır dövrlərindən birini yaşayacaq.

***- Böyük dövlətlər, onların taleyində hansı dəyişikliklər gözlənilir?***

- Öncə onu deyim ki, neftlə bağlı narahatçılıqların aradan qalxma ehtimalı da aşağıdır. Olsa-olsa ilin ikinci yarısında qiymətlərin enib-qalxma prosesi sabitləşəcək. Dünya mətbuatı, siyasi analitiklər, hətta öncəgörənlər 2016-cı ildə Bəşər Əsədin devriləcəyini, Vladimir Putinin hakimiyyətdən gedəcəyini söyləməkdədir. Lakin uzunmüddətli hesablamalarımız il ərzində bunun olmayacağını göstərir. Müsəlman ölkələrində qətliam törədən İŞİD terror təşkilatı mart ayından başlayaraq silsilə məğlubiyyətlərə tuş gələcək. Buna baxmayaraq, onlar öz fəaliyyətlərini səyyar şəkildə davam etdirəcəklər. Bu il Şərqin alovu sürətlə Qərbə keçəcək, Avropa ölkələrində ciddi problemlər yaranacaq. İl ərzində hərbi bazalarda partlayışlar da istisna olunmur. Şimali Koreya prezidentinə qarşı iki dəfə sui-qəsd olacaq. 2016-cı il daha çox "terror ili" kimi tarixə düşəcək. Az qala hər ölkədə bu, baş verəcək. Meymun ili öz xarakterinə görə aravurandır. Xüsusən də sevənlərə qarşı öz amansızlığı ilə yadda qalır. Bu səbəbdən də bir-birini sevənlər kənar müdaxilələrə qarşı çıxmalı, şübhəyə düşməməli, içindəkiləri açıq şəkildə söyləməlidir. Sevgidə doğruluq, ədalət və açıq söz hər kəsin xilasına, firavanlığına səbəb olacaq.

***- Dünya müharibəsi, Qarabağ müharibəsinin taleyində dönüşlər... bunların hansı baş verəcək?***

- Dünya müharibəsi olmayacaq, Qarabağda 2015-lə müqayisədə daha böyük və uzunmüddətli döyüşlər gedəcək. Lakin hansısa ərazinin azad olunacağı gözlənilmir. Qida zəhərlənmələrinin sayı artacaq. Türkiyə-Rusiya münasibətlərində gərginlik davam etsə də, hər hansı müharibə ehtimalı yoxdur.

***- İlin uğurlu-uğursuz ayı, günü, rəqəmi, aparıcı bürcləri... Bu detalları da oxuculara çatdıraq.***

- İlin müddəti 08.02.2016-27.01.2017. İlin planeti Ay, ilin uğurlu ayları may, iyul, uğursuz ayları yanvar, noyabr, ilin düşərli günü bazar ertəsi, cümə, ilin ağır günü çərşənbə axşamı, şənbə, ilin düşərli təqvimləri 2, 4, 5, 8, 16, ilin numeroloji rəqəmi 9, ilin uğurlu saatları 00:00-02:00 08:00-10:00 16:00-18:00, ilin uğursuz saatları 04:00-06:00 12:00-14:00 20:00-22:00, ilin aparıcı bürcləri Xərçəng, Buğa, ilin aparıcı işarələri Meymun, Siçovul, Əjdaha. İlin rəngi qırmızı, ağ, açıq-mavi, İlin daş-qaşı zümrüd, rubin, Ay daşı, ilin metalı gümüş, ilin çiçəyi jasmin, bütün ağ çiçəklər, ilin talismanı ürək, yapalaq, ilin aktiv əraziləri Avstraliya, Türkiyə, Azərbaycan, Şotlandiya, Hollandiya, Almaniya, İrlandiya, Polşa, İsveçrə, Suriya, Sakit okean adaları, İraq, İran, Əfqanıstan...

***- Bəs ilin astronomik tutulmaları... nə zaman baş verəcək?***

- Qarşımızda duran ildə astronomik tutulmaların sayı 4 olacaq. Onlardan ən təhlükəlisi martın 9-da gözlənilən tam Günəş tutulmasıdır. İnşallah, ümid edək ki, dünyamız bu kimi fəsadlardan qurtulacaq. Məlum kosmik olayın sıralanması isə aşağıdakı kimidir: 1. Tam Günəş tutulması (9 mart, Bakı vaxtilə saat 06:57-də Balıqlar bürcündə) 2. Yarımçıq Ay tutulması (23 mart, Bakı vaxtilə saat 17:47-də Tərəzi bürcündə) 3. Adi Günəş tutulması (1 sentyabr, Bakı vaxtilə saat 13:07-də Qız bürcündə) 4. Adi Ay tutulması (16 sentyabr, Bakı vaxtilə saat 23:54-də Balıqlar bürcündə).


Səbuhi Rəhimli

❑ Sevinc TELMANQIZI

# YENİ MÜSAVAT

## Son səhifə

N 287 (6315) 24 dekabr 2015




## Əzgil orqanizmi təmizləyir və cavanlaşdırır

Əzgil kimyəvi tərkibə görə almaya bənzəyir. Bu çox faydalı meyvədir. Əzgilin tərkibində şəkərlər, meyvə turşuları, C, B qrupu vitaminləri, beta-karotin (A vitamini), fol turşusu, pektinlər, fitonsidlər, büzücü maddələr, çoxlu sayda müxtəlif minerallar var. Əzgil mədə-bağırsaq sisteminin həkimidir. Kal əzgil ishalı müalicə edir, bağırsaqları yığır, dəymiş əzgil isə əksinə, qəbizlikdən azad edir, bağırsaqları çox yaxşı təmizləyir. Əzgil pektinlərlə zəngindir. Bu maddələr orqanizmdə yığılan ziyanlı maddələri (toksinlər, radionukleidlər, ağır metalların duzları və s.) xaric edir. Əzgili uzun müddət ərzində qəbul edən insan orqanizmi əsaslı şəkildə təmizlənə bilər. Əzgil həmçinin qanda "pis" xolesterinin səviyyəsini aşağı salır və bunun nəticəsində damarları qoruyur, aterosklerozun inkişafını ləngidir. Ateroskleroz zamanı damarların divarlarında xolesterin yığılır ki, bunun nəticəsində damarlar daralır, onların elastikliyi pozulur. Bu proses ürək və beyin damarlarını da əhatə edir. Nəticədə insanda insult və infarktın riski artır. Əzgil ürək-damar sistemi xəstəlikləri və bu xəstəliklərin profilaktikası zamanı çox faydalıdır - arterial təzyiqi tənzimləməyə kömək edir, ürəyin fəaliyyətini yaxşılaşdırır, ürək əzələsini möhkəmləndirir, qanın laxtalanmasını artırır. Əzgil sınanmış bəlğəmgətirici vasitədir. Bronxit, öskürək zamanı əzgilin ətini əzib balla qarışdırın və qəbul edin. Bu dadlı dərman nəfəsalmanı asanlaşdırır, nəfəs yollarını təmizləyir, iltihabın azalmasına kömək edir.

# Bu da iPhone 7

Daima müştərilərini texnoloji yenilikləri ilə sevindirən Apple yenə istifadəçilərini sevindirməyə hazırlaşır. Şirkət "iPhone 7" modeli üzərində çalışır. Artıq bu modelin internetdə görüntüsü də yayılıb. Düzdür, hələlik görüntünün doğrudan da iPhone 7-yə məxsus olub-olmaması barədə rəsmi açıqlama verilməyib. Model yenilənmiş dizayna malikdir. Onun olduqca nazik çərçivəsi var. Prototipin əsas ekran düyməsinin və 3.5 mm-lik qulaqlıq girşinin olmaması digərlərindən onu fərqləndirir. "Apple" loqosu isə telefonun arxa hissəsində kameranın aşağısında yerləşir. Daha öncə də iPhone 7-yə məxsus olduğu iddia edilən görüntülər yayılmışdı. Hətta yeni modelin sentyabr ayında təqdim ediləcəyi də deyilirdi. "Apple" 1976-cı il aprel ayının 1-də Stiv Cobs Voznyakvə Ronald Uayn iki tərəfindən yaradılan, hazırda dünyanın ən böyük proqram təminatçılarından biri olan kompüter firmasıdır. Şirkətin mərkəzi ofisi ABŞ-ın Kaliforniya ştatının Kaliforniya Kupertino şəhərində yerləşir. Bir neçə gün öncə "Apple"nin telefonun kamera hissəsini təkmilləşdirmək məqsədilə 800 nəfər mühəndisi işə götürməsi barədə xəbərlər yayılmışdı.



# Uşağının doğuşunu xatırlamır

İngiltərədə yaşayan 24 yaşlı Jodi Robson adlı qadın ən yaxşı həkimlərin belə diaqnoz qoya bilmədikləri xəstəlikdən əziyyət çəkir. İki uşaq anası olan qadın yatır və uzun müddət yuxudan oyana bilmir. Bəzən günlərlə, bəzən də həftələrlə yatan qadının xəstəliyinin nə olduğu bilinmir. Gənc qadın xəstəliyinin sinir sistemi ilə bağlı "Kleine Levin" sindromu olduğunu düşünür. Jodinin yuxusu o qədər ağır olur ki, 11 gün yatdığı zaman oğlunu dünyaya gətirib. Lakin onun doğuşunu xatırlamır. Gənc qadın yuxuda olduğu üçün bacısının ad günündə də iştirak edə bilməyib. Jodinin ilk yuxu krizi 12 yaşında, İspaniyada olarkən baş verib. O zaman yatıb və 8 gün oyana bilməyib. Ayıldıqdan sonra isə 3 həftə heç kimi xatırlamayıb. Hətta kim olduğunu belə unudub. Jodinin ən yaxşı köməkçisi isə həyat yoldaşıdır. Qadın 2-3 həftə oyanmadan yatarkən 6 yaşlı oğlu Harley və 3 yaşlı oğlu Rileyə həyat yoldaşı baxır. J.Robson oğlunun doğuşunu xatırlamadığı üçün özünü pis hiss etdiyini deyir. Onun üçün özəl olan bu anı unutmağın xatırlamaq istədiyini deyir.






## "WhatsApp"dan daha bir yenilik

Smartfonlar üçün ani mesajlaşma mübadilə sistemi olan "WhatsApp" daha bir yeniliyə imza atmağa hazırlaşır. Bu barədə alman saytı olan "Macerkopf" məlumat yayıb. Səsli danışıqdan sonra ani mesajlaşma sistemi olan "WhatsApp" istifadəçiləri görüntülü danışa biləcəklər. 2014-cü ildə 22 milyard dollara facebook-un satın aldığı "WhatsApp" bir-birinin ardınca yeniliklər etməkdən çəkinmir. Sahibi dəyişdikdən sonra bu sistemə bir çox yeniliklər gətirilib. Ən əsası isə mesajların oxunduğunu göstərən qoşa mavi xətt, dizayn dəyişikliyi, səsli danışıq və sairədir. Görüntülü danışıq funksiyası ilk olaraq "WhatsApp" versiyalarında istifadəyə veriləcək. Səsli danışıq "WhatsApp"a xas bir yenilik deyil. Eyni funksiya bir müddət öncə "Facebook Messenger" tərəfindən də işə salınmışdı. "WhatsApp" bu yeniliyini bu ilin aprel ayından işə salıb. Funksiya problemli olsa da fəaliyyət göstərir.




**QOÇ** - İşgüzar sövdələşmələrdə iştirak üçün böyük şansınız var. Bu istiqamətdə qarşınıza qoyduğunuz məqsədlərin əksəriyyətini reallaşdıra biləcəksiniz. Həmkarlarınızla ehtiyatlı davranın.

**BUĞA** - Dekabrın üçüncü dekadasının ən uğurlu gününü yaşayacaqsınız. Yeni təkliflər alacağınız, təzə xəbər eşidəcəyiniz labüddür. Bu gün hətta bir həftənin işini də görə bilərsiniz.

**ƏKİZLƏR** - Mənfi enerjili Ayın bürcünüzdə olması gününüzü bir qədər passiv edə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq böyüməsin deyə, maksimum təmkin nümayiş etdirin. Çox pul xərcləməyin.

**XƏRÇƏNG** - O qədər də səmərəli vaxt deyil. Ciddi iş görmək, uzaq səfərə çıxmaq, risk etmək sizə zərər yetirə bilər. Amma bu gün ürəyinizə yaxın adamlarla bir yerdə olmağınız vacibdir.

**ŞİR** - Pulla bağlı problemlərinizi bu gün yoluna qoya bilməsəniz, müəyyən çətinliklərlə baş-başa qala bilərsiniz. Bu istiqamətdə aktivliyinizi artırmağa səy göstərin. Saat 17-19 arası uğurludur.

**QIZ** - Bir qədər əsəbi ərəfədir. Az qala ətrafınızda olan hər bir predmet və ya məxluq əsəbinizi tarıma çəkir. Özünüzə toxtaqlıq verin. Başınızı daha çox işlə qarışdırmağa çalışın.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir vaxtdır. Hər dəqiqənin qədrini bilin. Mövcud situasiyaları dəyərləndirməyi bacarsanız, inanın ki, bütün proseslər səmərəli olacaq. Təzə xəbər də eşidəcəksiniz.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə yeni işlərə başlamağa dəyər. Bu yönümdə ulduzlar da sizə təkan verəcək. Boş durmaq, ümidsizliyə qapılmaq olmaz. Ətrafınıza yaxşı adamlar toplaşmaqdadır.

**OXATAN** - Sağlamlığınıza diqqət yetirsəniz, ixtiyarınızda olan bu təqvimdə bütün proseslər qənaətbəxş olacaq. Hətta nahardan sonra hansısa sevindirici hadisənin şahidi olacağınız da mümkündür.

**OĞLAQ** - Buraxdığınız hansısa səhvə görə daxili sıxıntılarınızın artdığı güman olunur. Bu səbəbdən də özünüzü ələ almaqda çətinlik çəkirsiniz. Axşama yaxın vəziyyətiniz tənzimlənəcək.

**SUTÖKƏN** - Planetiniz olan Saturnun aktivləşməsi fəaliyyət prinsipində, eləcə də qarşılıqlı münasibətlərdə proseslərin xeyrinizə dəyişməsinə səbəb olacaq. Qərar qəbul edərkən özünüzə güvənin.

**BALIQLAR** - Ailə-sevgi münasibətlərində azacıq gərginlik gözlənilir. Bunu aradan qaldırmaq üçün kənar müdaxilələrə baş qoşmamalı, dedi-qodudan uzaq olmalısınız. Daha səmimi görünün.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Ağıl genetik imiş



İngilis araşdırmaçı İmperial Collage insanların ağlını müəyyənləşdirən genlər tapıblar. Mütəxəssislər beyin gücünü artırmağın yollarını axtarılar. Araşdırmalar zamanı ağlın 75 faizinin genetik, geri qalanının isə məktəb və dostlardan asılı olduğu məlum olub. Bu günə qədər heç kim yaddaş, diqqət, beyinin sürəti və məntiq genləri haqda dəqiq məlumat əldə edə bilməmişdi. Oyunlar doğru qaydalar üzrə oynandığı zaman sürətli düşünmə və parlaq zəka özünü daha yaxşı göstərir. Lakin genlər mutasiyaya uğradığı zaman düşünmə durğunluğu və zehni problemlər yaranır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300